**ABBAS ZAMANOV**

# CƏNUBDAN SƏSLƏR

**Bakı – «Min bir mahnı» nəşriyyatı – 2010**

*Bu kitab görkəmli ədəbiyyatşünas alim,*
*yazısı və müəllim*
***MİR CƏLAL PAŞAYEVİN***
*əziz xatirəsinə ithaf olunur.*

**Elmi redaktor:** **İsa Həbibbəyli, akademik**

**Toplayanı, tərtib edəni və müqəddimənin müəllifi:** **Orxan Seyidov**

**Redaktoru:** **Ağakərim Əzimov**

**Abbas Zamanov «Cənubdan səslər».**
**Bakı, «MBM», 2010, 368 səh.**

*Kitabda Azərbaycan MEA-eıe müxbir üzvü, görkəmli ədəbiyyatşünas alim Abbas Zamanovun müxtəlif illərdə Azərbaycan dövrü mətbuat səhifələrində çap olunmuş xatirələri, elmi məqalələri, kino-dram məsələlərinə dair fikirləri və s. daxil edilmişdir materialların əksəriyyəti ilk dəfədir ki, çap olunur. Ümid edirik ki, kitab oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.*

ISBN 978-9952-29-047-7

**© Abbas Zamanov**
**Bakı, «MBM», 2010**

# UNUTSAQ, UNUDULARIQ

*«Böyük alim Azərbaycan elminin, ədəbiyyatının, mədəniyyətinin inkişafında öz fədakar əməyi ilə əvəzsiz rol oynamış Abbas Zamanovun xidmətləri unudulmazdır.*

*Azərbaycan ədəbiyyatının bir çox ölkələrdə tanınması və təbliğ olunması Abbas Zamanovun adı ilə bağlıdır.*

*Şübhə yoxdur ki, Abbas Zamanovun yaratdığı əsərlərdən milli mədəniyyətimiz gələcəkdə də bəhrələnəcəkdir».*

*Heydər Əliyev*
*«Səs» qəzeti, 07 aprel 1993-cü il*

Daşı-torpağı, hər qarışı ilə əziz olan doğma Naxçıvanımız Odlar Yurdu Azərbaycanın alınmaz qalası və qəhrəman yurd yerlərindən biridir. Beş minillik tarixə malik olan Naxçıvan diyarı Azərbaycanın ən gözəl guşələrindən biridir. Burda doğulub, təkcə Naxçıvanda deyil, bütövlükdə Azərbaycanımızı dünyaya tanıdan əvəzsiz şəxsiyyətlər az deyil. Mən bu iddianı irəli sürərkən ümummilli liderimiz Heydər Əliyevin yuxarıdakı fikrini əldə rəhbər tuturam. Naxçıvanın yetişdirdiyi cahanşümül insanlardan biri də əsl elm fədaisi, görkəmli alim, adı daim böyük qürurla çəkilən, böyük ədəbiyyatşünas, xeyirxah insan Abbas Fəttah oğlu Zamanovdur.

Abbas Zamanov Azərbaycan xalqının yaddaşında zəngin yaradıcılığı, vətənpərvərlik və xeyirxahlığı ilə əbədi olaraq həkk olunmuşdur. Xalqımız öz dəyərli ziyalısını təkcə ədəbiyyatşünas kimi deyil, həm də geniş eradusiyaya malik elm fədaisi kimi xatırlayır. Abbas Fəttah oğlu Zamanov 10 oktyabr 1911-ci ildə Naxçıvan MR-nın Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. 1921-1927-ci illərdə hələ kiçik yaşlarından ailə vəziyyətinin ağır olması üzündən əvvəlcə Naxçıvan, sonra isə Bakı şəhərində uşaq evlərində yaşayıb və təhsilini davam etdirmişdir. Həyatı əzab-əziyyətlərlə, məşəqqətlərlə keçən Abbas Zamanovun arxa-dayağı

kitablar olmuşdur. Çətinliklə də olsa təhsilini davam etdirib, həyatın ən ağır sınaqlarından keçmişdir. Məhz bunun nəticəsində həyatda hər şeyə öz gücü ilə müvəffəq olmuşdur.

1926-ci ildə Bakı Pedaqoji Texnikumuna daxil olan A.Zamanov öz fəallığı, işgüzarlığı ilə başqalarından seçilmiş və onun bu xüsusiyyətlərini nəzərə alıb komsomol sistemində rəhbər vəzifələrinə göndərmişlər. 1933-cü ilə kimi komsomol işlərində çalışan A.Zamanov elmi yaradıcılıq işlərindən uzaq düşməmək üçün komsomol işlərindən ayrılaraq «Gənc işçi» qəzetində redaktor müavini, «Gənc bolşevik» qəzetində redaktor vəzifəsində çalışmağa başlayır. Sonralar o, «Ədəbiyat və incəsənət» qəzetində məsul katib, «Azərnəşr»də bədii ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir. A.Zamanov bir müddət Azərbaycan Dövlət Filarmoniyasının və Azərbaycan Opera və Balet Teatrının direktoru vəzifələrində də çalışmışdır. Bütün bunlarla yanaşı A.Zamanov heç vaxt elmi axtarışlarından əl çəkməmiş, daim öyrənmiş, axtarışlar aparmış, necə deyərlər «qələmini öz biliyinin gücü ilə möhkəmləndirmiş», ondan faydalanmışdır.

A.Zamanov Böyük Vətən müharibəsi dövründə öz qələmini süngüyə çevirmiş, S.Vurğun demişkən «müsəlləh əsgər» olmuşdur. Müharibənin ilk günlərindən cəbhəyə yola düşmüş və «Döyüşən Krım» qəzetində tərcüməçi vəzifəsində çalışaraq, cəbhə həyatını əks etdirən oçerklərlə müntəzəm olaraq çıxış etmişdir. A.Zamanov 1947-ci ilə kimi orduda xidmət etmişdir.

Ordu sıralarından tərxis olunduqdan sonra elmi-pedaqoji fəaliyyətə başlayır. A.Zamanov 1948-ci ildən müəyyən fasilələrlə ADU-da (sonralar BDU-da – *red.*) ömrünün axırına kimi müəllim işləmişdir. Belə ki, 1948-1960-cı illərə kimi ADU-da (BDU-da) müəllim, 1960-1968-ci illərdə Azərbaycan MEA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, 1968-1971-ci illərdə Nizami adına Ədəbiyyat muzeyinin direktoru, 1971-1979-cu illərdə BDU-

nun Azərbaycan Ədəbiyyatı kafedrasının müdiri, Xəbərlər Mətbuat Agentliyi Azərbaycan Şurasının sədri və s. məsul vəzifələrində işləsə də, daimi iş yeri BDU olmuşdur.

Abbas Zamanov xalqımızın yetişdirdiyi və ədəbiyyatımızı hərtərəfli inkişaf etdirən karifeylərdən biridir. Onun yaradıcılıq diapozonu geniş və çoxşaxəlidir.

Görkəmli alimin elmi yaradıcılığının əsasında M.Ə.Sabirin həyatı və yaradıcılığı durur. O, ömrünün böyük bir hissəsini M.Ə. Sabir irsinin öyrənilməsinə sərf etmişdir. «Müasirləri Sabir haqqında» (1962), «Əməl dostları» (1979), «Sabir gülür» (1982), «Sabir bu gün» (1985), və s. bu kimi samballı əsərlər A.Zamanov qələminin məhsuludur. 1967-ci ildə «Sabir və müasirləri» mövzusunda yazdığı namizədlik dissertasiyası dərin məzmununa, əhatə dairəsinə görə Ali Attestasiya Komissiyası onu birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görmüşdür. Beləliklə, Abbas Zamanov Azərbaycan filologiyası sahəsində tarixdə ilk dəfə olaraq birbaşa doktorluq alimlik dərəcəsi almış alimlərdən biri oldu.

Yaradıcılığı ilə bərabər A.Zamanov böyük ictimai xadim idi. O, hələ Sovet hökumətinin «qılıncının qabağı da, dalı da kəsəndə» dünya azərbaycanlıları ilə əlaqə saxlayırdı. Belə ki, o, öz hesabına Azərbaycanda nəşr edilmiş qiymətli əsərləri dünya azərbaycanlılarına çatdırırdı. Xaricdə olan azərbaycanlılar da Abbas müəllimə özlərində nəşr edilmiş ədəbiyyatları göndərirdilər. Bu iş o dövr üçün olduqca ağır olsa da, Abbas müəllim bu işin öhdəsindən ləyaqətlə gəlirdi. İndi onun göndərdiyi kitablardan qardaş Türkiyə Respublikasında, Ərzurum Atatürk Universitetində yaratdığı 6 minə yaxın kitabdan «Abbas Zamanovun Bağış Kitabları» Kitabxana fəaliyyət göstərir.

Abbas Zamanov üçün vətən, millət hər şeydən üstün idi. Xeyirxah əməllərlə dolu olan ürəyi həmişə vətən, xalq üçün döyünərdi, çırpınardı. O, hər zaman xalqı ilə fəxr edər, vətənin dar günündə isə narahatçılıq keçirərdi. «Vətəni sevmək

azdır, onu qorumaq daha vacibdir.» Əlbəttə, hər kəs vətəni sevdiyini sözlə ifadə edir, amma yeri gələndə əməldə təsdiq edə bilmir. Hər bir azərbaycanlı yaxşı bilir ki, professor A.Zamanov vətənini, millətini sevdiyini əməldə də təsdiq etmişdir.

Tarixdən məlumdur ki, mənfur qonşularımız zaman-zaman bizə ərazi iddiaları etmiş, tarixi ərazilərimizi işğal edərək öz ərazilərinə qatmış və ərazilərini bizim torpaqlar hesabına genişləndirmişdir. Bu barədə mən uzun-uzadı danışmaq istəmirəm, ona görə ki, bu barədə çox deyilib, çox yazılıb. Amma bircə faktı qeyd etmək istəyirəm ki, keçən əsrin 60-cı illərində mənfur qonşularımız bizə yenə ərazi iddiası etdilər. Bu dəfə onlar qədim Azərbaycan eli olan Naxçıvanı hədəf götürdülər. O zaman SSRİ dövlətinə rəhbərlik edən N.S.Xruşşovun maymaqlığından istifadə edərək Naxçıvanı Azərbaycandan ayırıb Ermənistana vermək məsələsini siyasi büroya çıxartdılar. Bu işə isə, Azərbaycanın bir nömrəli düşməni A.Mikoyan rəhbərlik edirdi. Onlar siyasi bürodan da bu izin artıq ruslar demişkən «dobrosu»nu almışdılar.

Məsələ çox ciddi idi. Respublikaya rəhbərlik edən o zamankı rəhbərlər susmuş və bu cür ciddi məsələyə heç bir reaksiya vermirdilər. «Susmaq razılıq əlamətidir» deyib atalarımız. Bu məsələ Abbas müəllimi çox narahat etməyə başlayır. Fürsət axtarır ki, bu məsələni Azərbaycan ictimaiyyətinə çatdırsın. Özü də bilirdi ki, bu məsələ haqqında danışsa ona ağır başa gələcək.

Belə bir fürsət nəhayət ki, yarandı. Azərbaycan EA-nın böyük akt salonunda Səməd Vurğuna həsr olunmuş gecə keçirilirdi. Dəvət olunmuşlar arasında Abbas müəllim də vardı. Salon ağzına qədər dolu idi. İclası akademik Məmməd Arif müəllim aparırdı. O, çıxış üçün sözü Abbas müəllimə verdi. Abbas müəllim S.Vurğun yaradıcılığı haqqında çıxış edərək, axırda sözünü belə yekunlaşdırdı ki, bu gün Səməd Vurğun sağ olsaydı, deyərdi ki, biz Naxçıvanı ermənilərə verməric. Bu sözdən sonra salonu gurultulu alqışlar bürüdü. Adətən belə

vəziyyətlərdən ustalıqda çıxmağı bacaran M.Arif müəllim aranı sakitləşdimək istədi, amma Abbas müəllim yenidən tribunaya qayıtdı və dedi: «Mən sözümü demişəm və sözümdən də qaçmıram.» Sonra nələr baş verdi...

Abbas müəllim o zaman üçün ağır cəza olan Kommunist Partiyası sıralarından xaric edildi, ADU-dan (BDU-dan – red.) işdən çıxarıldı və məşəqqətli günləri başladı. Amma Abbas müəllim heç vaxt sözündən dönmədi. Naxçıvan məsələsi də müsbət həll olundu, Abbas müəllim də yenidən partiya sıralarına qaytarıldı, yenidən BDU-da işə bərpa olundu. Necə deyərlər, «haqq incələr, amma üzülməz». Abbas müəllimin bu cəsarəti SSRİ hökuməti dövründə Naxçıvan söhbətinə son qoydu. Keçən əsrin 80-ci illərinin axırı, 90-cı illərin əvvəllərində mənfur qonşularımız yenidən Naxçıvana göz dikdilər. Ermənilər tez-tez Sədərəki atəşə tutaraq Naxçıvanı işğal etmək istəyirdilər. Naxçıvanlılar mərdliklə vətənlərini qoruyurdular. 90-cı illərdə Abbas müəllim Naxçıvana gəldi və Sədərəkdə vuruşan qəhrəmanlarımızla şəxsən özü görüşdü. Bu, Abbas müəllimin Naxçıvana son gəlişi oldu. A.Zamanovun vətənpərvərliyi haqqında söhbətimi professor Şamil Qurbanovun bir fikri ilə tamamlamaq istəyirəm. O, yazırdı: «Biz hamımız yüksək vətəndaşlıq hissini, vətənpərvərlik duyğusunu, xalqa vurğunluğu birinci növbədə A.Zamanovdan öyrənmişik.»

A.Zamanov yaşadığı dövr ərzində çox məhsuldar işləmişdir. O, ədəbiyyatın hər sahəsində külüng çalmış və uğurlar qazanmışdır. Alimin yaxın dostu, ədəbiyyatşünas alim Əziz Şərif onu belə səciyyələndirmişdir: «Heç bir ədəbiyyat sənin kimi fədakar mücahidsiz ötüşə bilməz. Vay o ədəbiyyatın halına ki, onun Abbas Zamanovu olmasın.»

Ulu öndərimiz Heydər Əliyev A.Zamanovun yaradıcılığın və fəaliyyətini yüksək qiymətləndirirdi. Daim onunla əlaqə saxlayırdı. Təsadüfi deyildir ki, ulu öndərimiz Moskvadan Azərbaycana, doğma Naxçıvana qayıdarkən onu ilk

ziyarət edənlərdən və mənəvi dəstək olanlardan biri də A.Zamanov idi. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, A.Zamanovun vəfatı hər kəsi kədərləndirdiyi kimi Heydər Əliyevi də dərindən kədərləndirmişdir. O, A.Zamanovun Azərbaycan ədəbiyyatı üçün gördüyü nəhəng elmi işini, vətənpərvərliyini, xeyirxahlığını xüsusi vurğulayırdı.

A.Zamanovun vəfatı münasibətilə 1 aprel 1993-cü ildə Azərbaycan MEA-sına ünvanladığı teleqramda deyilirdi: «Azərbaycan MEA-sının müxbir üzvü, əməkdar elm xadimi, professor A.Zamanovun vəfatı bizi dərindən kədərləndirir. A.Zamanovun vəfatı ilə əlaqədar Naxçıvan MR-nın əhalisi adından Azərbaycan MEA-na, BDU-ya, mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Vətənpərvər alim, xeyirxah insan A.Zamanovun xatirəsi daim qəlbimizdə yaşayacaqdır.»

Bu uğurdan fərəhlənərək uzun müddət axtarıb topladığım və Abbas müəllimin nəşr olunmuş əsərlərində yer almamış, müxtəlif illərdə Azərbaycan dövrü mətbuat (qəzet və dərgilərdə) səhifələrində çap olunmuş məqalələr, xatirələr və resenziyaları bir yerə toplayaraq kitab şəklində çap etmək arzusunda idim. Budur indi bu kitab sizin əlinizdədir. Güman edirəm ki, bu kitab da xoşunuza gələcək. Kitabda keçən yüzillikdə yaşamış Azərbaycan Ziyalıları haqqında materiallarla zəngindir. Bundan başqa sizə təqdim olunan bu kitabda müxtəlif illərdə nəşr edilmiş kitablar haqqında rəylər, resenziyalar, Azərbaycan teatr səhnələrində oynanılan dram əsərləri haqqında tənqidi məqalələrlə də tanış olacaqsınız.

Kitabın arayıb ərsəyə gəlməsində mənə yardım etmiş hər kəsə bu başdan dərin minnətdarlığımı bildirirəm.

Sonda onu da demək istəyirəm ki, Abbas Zamanov unudulmağa yox, yaşadılmaq haqqı olan nadir şəxsiyyətlərdən biridir. Ümid edirəm ki, qədirbilən Azərbaycan xalqı heç vaxt Abbas Zamanovu unutmayacaq və daim onu yaşadacaqlar.

***Orxan SEYİDOV***

# ƏBƏDİYAŞAR ŞƏXSİYYƏTLƏR

***«...Abbas Zamanovun dissertasiyasının yalnız böyük inqidabçı demokrat şair M.Ə.Sabirin qoyub getdiyi zəngin bədii irsin tədqiqi sahəsində deil, ümumiyyətlə XX əsr ədəbiyyatının öyrənilməsində böyük əhəmiyyəti vardır».***

***Mir Cəlal Paşayev,***
***professor***



*Abbas Zamanov, Əziz Şərif və Hüseyn Cavidin qardaşı Şeyx Məhəmmədin oğlu Həmid Rasizadə.*
*Şəkil 1950-ci illərdə Naxçıvan şəhərində Şeyx Məhəmmədin ailəsinin qonağı olarkən çəkilmişdir.*

# MİR CƏLAL
## Müəllim, alim, yazıçı



Mir Cəlalın bir yazıçı kimi mətbuat aləmində görünməsi iyirminci illərin ikinci yarısına təsadüf edir. Bu zaman o, Gəncə pedaqoji texnikumunda təhsilini tamamlayır. S.Vurğun, C.Xəndan, H.Araslı və Əhməd Cəmil ilə birlikdə ədəbiyyata həvəs göstərir, bədii yaradıcılıq aləminə daxil olmaq üçün öz qələmini sınayırdı.

İndi o zamandan yarım əsr keçmişdir. Azərbaycan ədəbiyyatının bu yarım əsrdə keçdiyi yolun salnaməsini vərəqlərkən demək olar ki, biz onun hər səhifəsində yazıçı Mir Cəlal ilə üz-üzə gəlir, onun səsini eşidirik.

Qocaman ədibimizin 70 illiyini qeyd edərkən, onun yaradıcılıq yoluna ümumi bir nəzər salıb, iftixar hissi ilə deyə bilərik ki, müasir ədəbiyyatımızın yaranması, ideya saflığı, zəngin söz xəzinələrindən birinə çevrilməsi uğrunda gedən mürəkkəb mübarizələrin şanlı tarixində Mir Cəlalın özünəməxsus dəsti-xətti, özünəməxsus yeri vardır.

Mir Cəlal intellektual aləmi zəngin və müxtəlif sahəli yazıçılarımızdandır. Neçə illərdir ki, biz onu qələmini yerə qoymayan görkəmli nasir, məşhur tənqidçi-ədəbiyyatşünas, ali məktəb professoru kimi tanıyırıq. Lakin Mir Cəlalın tədqiqatçıları onun həyat və yaradıcılığının ümumi mənzərəsini müəyyənləşdirdikdə üstünlüyü yazıçı Mir Cəlala verirlər. Əlbəttə, bu təbiidir. Mir Cəlal hər şeydən əvvəl orijinal

bir yazıçıdır.

Yazıçı Mir Cəlal uşaqlıqdan zəhmətkeş xalq kütlələrinin məruz qaldığı ağır həyat şəraitində yaşamış, dözülməz zülmün, istismarın şahidi olmuş, ictimai bərabərsizliyin doğurduğu maddi-mənəvi ədalətsizlikləri şəxsən görmüşdür. Şəxsi müşahidənin nəticəsidir ki, yazıçının inqilabi keçmişimizə həsr olunmuş romanlarında ictimai həyat hadisələrinin etnik təsviri oxucuya əsrimizin tərcümeyi-halının canlı lövhələri, həyatdan qoparılmış müəyyən parçaları kimi təsir bağışlayır.

Yaxşı yadımdadır ki, 1939-cu ildə Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışırdım. Həmin il «Dirilən adam» rus dilində nəşr edildi. Romanın çıxmasından bir neçə ay sonra şöbənin ünvanına məktublar gəldi. Məktublardan görünürdü ki, bəzi oxucular romandakı hadisələri həyatda eynilə olmuş əhvalatlar kimi başa düşürlər. Məsələn, Uzaq Şərqdə hərbi xidmətdə olan Tixomirov familiyalı bir əsgər soruşurdu: «İndi Qədir harada yaşayır, nə ilə məşğuldur? Qədir ilə Qumru ailə qurublarmı? Uşaqları varmı? Mən tövsiyə edirəm ki, onların həyatından bir kinofilm çəkilsin».

Əlbəttə, əgər yazıçı təxəyyülünün mayası həyatdan gəlirsə, bu zaman onun təsvir etdiyi lövhələr bədii həqiqətə çevrilir, real varlıqla, gerçəkliklə həmahəng olur. Yazıçının ilk romanı «Dirilən adam»da gördüyümüz bu xüsusiyyət onun ikinci romanı «Bir gəncin manifesti»ndə daha qabarıq şəkildə təzahür edir.

«Bir gəncin manifesti» romanı «Dirilən adam»dan beş il sonra yazılmışdır. Şübhəsiz ki, bu illərdə ədibin qələmi daha da püxtələşmiş, yazı manerası cilalanıb təkmilləşmişdir. Buna görədir ki, bəhs etdiyimiz hər iki roman movzu, zaman və ideya istiqaməti etibarilə nə qədər bir-birinə yaxın olsalar da, «Bir gəncin manifesti» ədibin ilk romanına nisbətən daha sanballı çıxmışdır. «Bir gəncin manifesti» o za-

man həm Mir Cəlalın yaradıcılığında, həm də, ümumiyyətlə, Azərbaycan ədəbiyyatında yeni, fərəhli bir hadisə idi. Ədib yeni romanında tipik surətlər qalereyası yaradıb, onların daxili aləmini, arzu və istəklərini, güclü və zəif cəhətlərini son dərəcə konkret, maraqlı üslüb və şirin bir dil ilə təsvir edib, poetik yüksəkliyə qaldırmışdı. Müəllifin mahiranə bədii ümumiləşdirmələrini də buraya əlavə etsək, qeyd-şərtsiz deyə bilərik ki, «Bir gəncin manifesti» tək bir gəncin manifesti deyil, ümumiyyətlə, o dövrdə əsarət dünyasına qarşı mübarizə aparan, zülm və istismar zəncirlərini qırıb atan gənc nəslin manifestidir. Bu məziyyətinə görə ədibin yeni romanı oxucular tərəfindən sevinclə qarşılandı, tənqid onu olduqca yüksək qiymətləndirdi, hətta bu əsəri «otuzuncu illərdə yaranan Azərbaycan romanınını ən yüksək mərhələsi» adlandıranlar da oldu.

Sonralar romançı Mir Cəlal yaradıcılıq ilhamının üzünü əsrin bu gününə çevridi. O zamanadək ancaq hekayələrində təsvir etdiyi müasir həyatın varlığını geniş etnik planda, roman və povestlərdə təsvir etməyə qüvvətli meyl göstərdi, nəticədə yazıçının həyatımızın aktual problemlərinə həsr olunmuş «Açıq kitab» (1941), «Yaşıdlarım» (1946), «Təzə şəhər» (1950) kimi romanları yarandı.

Yeni həyat quran adamların əmək cəbhəsində göstərdikləri xariqələrin bədii təcəssümü, irəliləyişimizə mane olan müzür ünsürlərin ifşası, həyatımızın bütün sahələrində əmək qəhrəmanlarının tufeylilər üzərində, doğruların oğrular üzərində, bir sözlə, yeniliyin köhnəlik üzərində qələbəsi bu romanların əsas pafosunu təşkil edirdi.

«Açıq məktub» romanının bu baxımdan xüsusilə aktual əhəmiyyəti vardır. «Açıq kitab» müəllifi həyatımızın müxtəlif sahələrində gizlənib, yalnız özlərini, öz ciblərini güdən, əxlaq normalarına zidd olan ünsürlərin əməllərinin üzərini örtən gözəgörünməz pərdələri açır, hər şey haqqında danışır, «Açıq kitab» həyatımızın qüsurları haqqında açıq da-

nışmağı hər şeydən üstün tutur, bu qüsurları törədənlərin maskalarını götürüb atarkən heç bir güzəştə getmir. Buna görə də «Açıq kitab» yazıldığı dövr üçün çox faydalı bir əsər olduğu kimi, bu gün də ictimai-tərbiyəvi əhəmiyyətini saxlamaqdadır.

«Açıq kitab» romanından sonra yazılmış «Yaşıdlarım» və «Təzə şəhər» əsərlərində biz yeni nəsillər ilə qarşılaşır, dinc quruculuq illərində və müharibədə fədakarlıq göstərən insanların nəcib əməllərinin şahidi oluruq. Əgər «Açıq kitab» da aparıcı pafos tənqid idisə, bu romanların əsas pafosu müsbət xarakterlər yaratmaqdan ibarətdir. Beləliklə, məzmun və ideya baxımından bu romanlar bir-birini davam etdirib tamamlayır. Bu cəhət həmin romanları trilogiya adlandırmağa haqq verir.

Mir Cəlalın bədii yaradıcılığından söhbət açarkən, əlbəttə, onun hekayələri haqqında xüsusilə danışmaq lazımdır. Çünki, o, ədəbiyyata hekayə ilə gəlmiş, yaxşı bir hekayəçi kimi tanındıqdan sonra qələmini romanda sınamışdır. Romançı kimi şöhrət tapdıqdan sonra da Mir Cəlal hekayədən ayrılmamış, yaradıcılığının bütün mərhələlərində hekayə yazmaqda davam etmişdir.

Hekayə Mir Cəlalın bədii irsində mühüm yer tutur. Yaradıcılığının ilk dövründə ədibin yazdığı hekayələr yaşadığımız günlər üçün də aktualdır.

Bir hekayəçi kimi Mir Cəlal heç kəsə oxşamır. Onun hekayələrinin özünəməxsus dili, üslubu, təhkiyə manerası vardır. Vaxtilə akademik Məmməd Arif yaxşı demişdir: «Mir Cəlal mahir bir hekayə ustasıdır. Onun hekayələri yığcam və ibrətlidir. Mir Cəlalın hekayələrindəki sənətkaranə sadəlik, fövqəladə təbiilik, heyranedici səmimilik təqdirəlayiqdir». Mir Cəlalın əsərlərini, xüsusilə hekayələrini yaşadan məhz bu xüsusiyyətləridir.



Ədəbi fikrimizin tarixinə Mir Cəlal həmçinin görkəmli tənqidçi-ədəbiyyatşünas kimi də daxil olmuşdur. Azərbaycan ədəbi irsinin öyrənilməsində və respublikamızda müasir tənqidin yaranmasında qocaman yazıçımızın mühüm xidmətləri vardır. O, ədəbiyyat aləminə gəldiyi ilk illərdən bədii yaradıcılıqla elmi-tənqidi fəaliyyəti həmişə yanaşı davam etdirmiş, birinə doğma, o birinə ögey münasibət bəsləməmiş, bunların ikisinə də eyni dərəcədə müvəffəq olmuşdur.

Mir Cəlal haqqında alim və tənqidçi kimi danışarkən hər şeydən əvvəl göstərmək lazımdır ki, məhdud ixtisas çərçivəsi onun fəaliyyəti üçün yad anlayışdır. O, müxtəlif zaman-

larda ədəbiyyatımızın Nizamidən başlamış S.Vurğunadək davam edən dövrünün ayrı-ayrı elmi-nəzəri problemlərinin tənqidi ilə məşğul olmuş və bu gün də təravətini itirməyən qiymətli elmi əsərlər yazmışdır. Mir Cəlalın 1940-cı ildə «Füzulinin poetik xüsusiyyətləri» mözusunda müdafiə etdiyi namizədlik dissertasiyası dahi şairin irsinin tədqiqinə həsr edilmiş ən yaxşı əsərlərindəndir.

Mir Cəlalın 1947-ci ildə müvəffəqiyyətlə müdafiə etdiyi doktorluq dissertasiyasında 1905-1917-ci illər arasındakı Azərbaycan ədəbiyyatı – C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, M.Hadi kimi nəhəng sənətkarların yazıb-yaratdığı, «Mola Nəsrəddin» jurnalının nəşr olunduğu, zəngin və mürəkkəb ədəbi ənənələrin formalaşdığı dövrün ədəbiyyatı tədqiq edilmişdir.

Mir Cəlal eyni zamanda Azərbaycan müasir ədəbi tənqidinin yaranması sahəsində uzun illər boyu çalışmış,



müasir ədəbiyyatın mühüm problemləri, M.S.Ordubadi, A.Şaiq, S.S.Axundov, S.Vurğun, S.Rüstəm, Ə.Məmmədxanlı və başqa görkəmli nümayəndələrin haqqında kitablar və məqalələr yazıb nəşr etdirmişdir. Yuxarıda deyilənlərdən aydın göründüyü kimi, Azərbaycan ədəbiyyatşünaslığını və ədəbi tənqidini Mir Cəlalsız təsəvvür etmək qeyri-mümkündür.

Böyük Vətən müharibəsi illərində Mir Cəlal xalqı qəhrəmanlığa çağıran hekayələr yazmış, Azərbaycan ziyalılarından ibarət nümayəndə heyətlərinin tərkibində cəbhələrə getmiş, döyüşçülərlə görüşmüş, onları yeni-yeni qələbələrə ruhlandırmışdır. 1943-cü ildə biz Mir Cəlalı Novorossiyskidə vuruşan döyüşçülərin yanında, daha sonra uzaq Şərqdə Vətənimizin sərhədlərinin keşiyində dayanan azərbaycanlı əsgərlərin yanında görürük.

45 ildən artıqdır ki, Mir Cəlal Azərbaycan Dövlət Universitetində mühazirə oxuyur və 20 ilə yaxındır ki, universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasına başçılıq edir. Beləliklə, tələbələr həm onun bədii əsərlərini, dərsliklərini oxuyur, həm də mühazirələrini eşidib, filologiya elmini öyrənirlər. Səmərəli elmi-pedaqoji fəaliyyəti dövründə Mir Cəlal onlarca filologiya elmləri doktoru və namizədi yetişdirmişdir.

*«Kommunist» qəzeti,*
*6 may 1978.*

# FEYZULLA QASIMZADƏ
## Qayğıkeş müəllim, istedadlı alim



...Katib filoloji fakultəsini yenicə bitirmiş məzunların diplomunu bir-bir payladı, mənə növbə çatdıqda isə «Dövlət imtahan komissiyasının sədri Feyzulla Qasımzadə yoldaş sizinlə təklikdə söhbət etmək istəyir» – dedi. Yoldaşlarım diplomlarını əlində tutub, sevindikləri halda mən təlaş keçirirdim: Axı, mən də bunlarla birliklikdə imtahan vermişəm, sədrin mənimlə nə söhbəti ola bilər?

Mənim bu təlaşım uzun sürmədi. Sədrin özü Azərbaycan ədəbiyyatı tarixi kafedrasının otağından çıxıb, məni içəri dəvət etdi, yanında oturtdu və diplomumu mənə təqdim edərək, sözə başladı.

– Biz qərara almışıq ki, səni institutda saxlayaq. Bu fikrə necə baxırsan? Mən bu təklifi sevinclə qəbul etdim, növbəti tədris ilindən institutun filoloji fakultəsində işə başladım.

İnstitutda çalışdığım ilk günlərdən Feyzulla müəllim mənə xüsusi qayğı göstərir, mühazirəni necə hazırlamaq və keçirmək haqqında məsləhətlər verir, hətta bəzən mühazirənin konspektini belə nəzərdən keçirirdi.

Müharibə illərindəki fasilədən sonra mən yenə də Feyzulla müəllimlə birlikdə, onun müdir olduğu kafedrada işləməli oldum. O yenə də mənə eyni qayğını göstərirdi: mühazirələrimə qulaq asır, qüsurlarımı səmimi bir şəkildə özümə deyir, qiymətli göstərişlər verirdi.

Respublikamızın ədəbi ictimaiyyəti filoloji elmləri dok-

toru, professor Feyzulla Qasımzadənin anadan olmasının 60 illik və elmi-pedaqoji fəaliyyətinin 40 illik yubileyini keçirdiyi günlərdə mən onun bu qayğısını dərin minnətdarlıq hissi ilə xatırlayıram, həm də təkcə mən yox,hörmətli müəllimin yüzlərcə keçmiş tələbələri həmişə onu minnətdarlıqla yad edirlər. Çünki Feyzulla Qasımzadə bütün tələbələrinə qarşı son dərəcə qayğıkeş bir müəllimdir. Bizim qayğıkeş müəllimimiz həm də respublikamızın istedadlı alimidir. Ədəbiyyatımızın xalq həyatı ilə qırılmaz tellərlə bağlandığı dövrün – xəlqilik və realizmin, demokratik ideyaların bədii yaradıcılığa dərin nüfuz etdiyi XIX əsr tarixinin elmi prinsiplər əsasında, öyrənilməsi Feyzulla Qasımzadə müəllmin adı ilə bağlıdır. Gənclərimizin bir neçə nəsli XIX əsr ədəbiyyatımızın tarixini mirzə Feyzulla müəllimin dərslərindən oxuyub öyrənmişlər. O, 20 il əvvəl çapdan çıxmış, «Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı» adlı monoqrafiyası ilə ədəbiyyatşünaslığımızın tarixində axundovşünaslıq məktəbinin təməl daşını qoymuşdur. Feyzulla müəllmin N.B.Vəzirov, A.A. Bakıxanov haqqındakı monoqrafiyaları, Seyid Əzim Şirvani, Qasımbəy Zakir və başqa yazıçıların yaradıcılığına dair tədqiqləri ədəbiyyatşünaslıq elmimizin qızıl fonduna daxil olmuş qiymətli əsərlərdir.

Professor F.Qasımzadə həmişə axtaran, irəliyə baxan, öz tədqiqatını hər gün, hər saat təkmilləşdirməyə çalışan alimdir. Keçən il çapdan çıxmış «XIX əsrin Azərbaycan ədəbiyyatı tarixi» kitabı buna parlaq bir misal kimi göstərilə bilər. Müəllifin elmi fəaliyyətinin tacı olan bu monumental əsər 30 illik gərgin əməyin, səmərəli axtarışların və tədqiqatın məhsuludur. Geniş ümumiləşdirmələr əsasında, yüksək elmi səviyyədə yazılmış bu əsər ədəbi ictimaiyyətimiz tərəfindən sevinclə qarşılanmış, sovet alimlərinin və xarici ölkə filoloqlarının da nəzər-diqqətini cəlb etmişdir.

F.Qasımzadənin elmi yaradıcılığının diqqətəlayiq keyfiyyətlərindən biri, bəlkə də birincisi budur ki, o öz tədqiqa-

tını yalnız məlum əsərlər üzərində, hazır materiallar əsasında aparmamışdır: əsərlərində ustalıqla ümumiləşdirdiyi ədəbi hadisələrin bir çoxunu arxivlərin təkindən, üzərini toz-torpaq basmış təzkirələrdən, əlyazmalarının saralmış səhifələrindən tapıb üzə çıxarmışdır ki, ağır zəhmət və inad tələb edən bu çətin işi ancaq bütün varlığı ilə elmə bağlanan öz xalqının tarixini, ədəbiyyatını sonsuz məhəbbətlə sevən vətənpərvər, yaradıcı bir alim görə bilərdi.

Cümləpərdazlıq, söz güləşdirmə, qeyri-müəyyənlik– professor Qasımzadənin yaradıcılığı üçün yaddır. O, öz əsərlərində ədəbi hadisələr haqqında konkret fikir söyləməyi sevən, mühakimələrini elmi dəlillər və sənədlərlə əsaslandıran, tədqiq etdiyi ədəbi hadisələri dövrün tarixi-ictimai şəraiti ilə sıx əlaqələndirən, sənətkarın yaradıcılığını hərtərəfli öyrənən və olduğu kimi, yəni yaxşı və pis cəhətləri ilə, daxili ziddiyyətləri ilə göstərən maarifpərvər alimdir.

Mirzə Feyzulla müəllim həyatının yeddinci on ilinə qədəm qoyur. Lakin biz onda qətiyyən yorğunluq və qocalıq əlaməti görmürük. O, öz elmi pedaqoji fəaliyyətini indi də gəncliyə məxsus coşğun enerji ilə davam etdirir, öyrənir və öyrədir. Qocaman müəllimin təntənəli yubileyi günündə biz, onun keçmiş və indiki tələbələri bir ağızdan deyirik:

– Qoy, bizim sevimli Mirzə Feyzulla müəllmimiz uzun illər boyu yaşasın, yaratsın, gəncliyə dərs desin, ədəbiyyatşünaslığımızı yeni-yeni əsərlərlə zənginləşdirsin.

*«Azərbaycan gəncləri» qəzeti,*
*19 dekabr, 1958*

# ŞAİQ MÜƏLLİM



Uzun müddət keçməsinə baxmayaraq, 1926-cı dərs ilində Bakı darülmüəllminə daxil olduğum günlər yaxşı yadımdadır. Abituriyentlər ədəbiyyatdan və riyaziyyatdan yazılı imtahan verməli idilər. Ədəbiyyatdan imtahanı Abdulla Şaiq müəllim götürürdü. Yazı işinin mövzusu belə idi: «Şəhər kəndə nə verir, kənd şəhərə nə verir?».

O zaman imtahandan sonra qiymətlər elan edilmədi. Qəbul olunanların siyahısı divardan asıldı. Siyahıda mənim də adım var idi. Uzun illər imtahanlarda aldığım qiymətlərdən xəbərim olmadı.

Təxminən 30 il sonra Xalq Maarif Komissarlığının arxivində çalışdığım zaman təsadüfən öz şəxsi işimə rast gəldim. Beləliklə, darülmüəllliminə daxil olmağımın tarixçəsini, qəbul imtahanlarının nəticələrini 30 il sonra öyrəndim. Şəxsi işin üzərində darülmüəllmin müdirinin müavini Cəmo Cəbrayılbəyli aşağıdakı sözləri yazmışdır: «Ədəbiyyatdan «əla, riyaziyyatdan iki üstəgəl» qiymət aldığı və çocuq evində yaşadığı üçün qəbul edilsin».

O vaxt şəxsi işin fotosurətini çıxarıb maraq üçün Abdulla Şaiq müəllimə göstərdim. O, yazı işinə baxıb gülümsədi, yarıciddi-yarızarafat dedi: «Deməк, mən o zaman səhv etməmişəm».

Şəxsi işin üzərindəki dərkənardan göründüyü kimi, əgər

Abdulla Şaiq müəllm mənim yazıma yüksək qiymət verməsəydi, bəlkə də mən texnikuma qəbul edilməz və kim bilir, sonrakı taleyim necə olardı.

İndi mən o günüm və gələcəyim üçün həlledici əhəmiyyətli olan bu hadisəni xatırlarkən Abdulla Şaiq müəllimi dərin və sonsuz minnətdarlıq hissi ilə yad edirəm.

Həmçinin o zaman riyaziyyatdan mənə «iki» qiymət verən Məhəmmədbəy Şeydayevi də hörmətlə xatırlayıram. O, gözəl müəllim idi. Sonralar darülmüəllimində riyaziyyatı bilməyənlərə də öyrətdi.

1956-cı ildə Abdulla Şaiq müəllmin anadan doğulmasının 75 illik yubileyi keçirilərkən onun haqqında kiçik bir kitabım və «Литературный Азербайджан» jurnalında məqaləm çıxmışdı. Yubileydən sonra Şaiq müəllim xəstələnmişdi. İndiki urologiya klinikasının binasında yerləşən xəstəxanada müalicə olunurdu. Kitabçanı və məqaləni xəstəxanada ona təqdim etdim. Onlara baxdıqca hiss etdim ki, müsəəssir oldu. Zəif səslə dedi: «Xilqətin əzəldən belə bir qanunu vardır, insanlar bir-birilərinə olan borclarını nə vaxt, harada isə ödəyirlər. İndi sən də mənim o kiçicik yaxşılığımdan çıxdın».

Mən etiraz etdim: «yox, Şaiq müəllim, bu, mümkün deyil. Mənim nəslimin, mənim nəslimdən əvvəlki və sonrakı nəsillərin boynunda sizin elə böyük haqq-sayınız vardır ki, onun əvəzini heç bir vaxt, heç bir vaxt ödəmək mümkün olmayacaqdır. Siz Azərbaycan gəncliyinin bir neçə nəslinin mənəvi atasısınız».

Fitrətən təvazökar və utancaq olan Şaiq müəllimin solğun simasında balaca qızartı əmələ gəldi. O dedi: «Əgər mən bu dünyanı sadəcə olaraq seyr edib getmirəmsə, özümü xoşbəxt hesab edirəm».

Mən dedim: Şaiq müəllim, əvvəla, siz heç yerə getmirsiniz. Hələ sizin gəncliyə deməli çoxlu sözləriniz var. İkinci, siz xoşbəxt adamsınız. Özü də nadir xoşbəxt insanlardansı-

nız. Siz bu xoşbəxtliyi tarixi xidmətləriniz ilə qazanmısınız.

Abdulla Şaiq özünəməxsus sakit bir əda ilə bu ifadəni də təsdiq etmədi: «Kaş ki, sən deyən olaydı», dedi.

Bəli, bu həqiqətdir: Abdulla Şaiq XX əsr Azərbaycanın ən xoşbəxt, yaradıcı ziyalılarından, ən böyük pedaqoqlarından biridir. Onun maarif və mədəniyyət aləminə gəlişi əsrimizin başlanması ilə bir vaxta düşür. İctimai həyata qədəm basdığı ilk illərdən o, Nəriman Nərimanov, Firudin bəy Köçərli, Sabir, Səhhət, Sultanməcid Qənizadə, Süleyman Sani Axundov və başqaları ilə əl-ələ verib xalqın mədəni inkişafı, gənc nəslin təlim-tərbiyəsi uğrunda uzun illər boyu Fərhad kimi külüng çalımışdır.

Abdulla Şaiq müəllimin müəllmliyə və yazıçılığa başladığı dövr son dərəcə mürəkkəb və ziddiyyətli idi. Bu, elə bir zaman idi ki, yad təsirlər hər tərəfdən Azərbaycana soxulur, hətta şüurlara da yol tapır, xalqa düşmən olan ünsürlər də «xalq» deyə döşlərinə döyürdülər. Bu zaman dostu düşməndən, yaxşını pisdən seçmək o qədər də asan deyildi. Cəlil Məmmədquluzadə «Anamın kitabı» pyesində bu dövrün tərcümeyi-halını dahiyanəliklə rəsm etmişdir. Cəlil Məmmədquluzadənin təbirilə desək: «Bu vaxt bir ananın, bir atanın doğma övladları olan Rüstəm bəy bir tərəfə çəkir, Mirzə Məmmədəli o biri tərəfə, Səməd Vahid isə tamamilə başqa bir tərəfə».

Belə bir ziddiyyətli, mürəkkəb dövrdə Abdulla Şaiq müəllim yad təsirlərə qapılmadı. O, həmişə işığa qondu, xalqın səadəti yolunu hansı cəbhədə gördüsə o cəbhənin əsgəri oldu. Yorulmaq nə olduğunu bilmədi, çalışdı-çapaladı, dərsliklər yaratdı, müəllimlik etdi, şeirlər, hekayələr, romanlar, pyeslər, gözəl uşaq əsərləri yazdı. Onun coşğun pedaqoji fəaliyyəti, rəngarəng bədii yaradıcılığı gəncliyimiz üçün böyük tərbiyə məktəbi oldu və indi də tərbiyə məktəbidir.

Abdulla Şaiq böyük ədəbi irs qoyub gedən orjinal bir

yazıçı olsa da, o, hər şeydən əvvəl böyük müəllim idi. Müəllim yoldaşları və tələbələri onu «müəllimlərin müəllimi» adlandırmışlar.

Abdulla Şaiq müəllim tələbələrinin ürəyində silinməz izlər buraxmışdır. Onlar həmişə, hər yerdə böyük iftixar hissi ilə demişlər: «Abdulla Şaiq mənim müəllmim olmuşdur!». İndi də yaşları 80-ə doğru addımlayan qocaman alimlər, yazıçılar, ictimai xadimlər yüksək iftixar hissi ilə deyirlər: «Mən Şaiqdən dərs almışam».

Abdulla Şaiq müəllim pedaqoji fikrimizin və ədəbiyyatımızın tarixinə ölməz simalarından biri kimi daxil olmuşdur.

İllər sürətlə keçir, nəsillər bir-birini əvəz edir, Abdulla Şaiq müəllim onlardan geri qalmır. İllər və nəsillərlə birlikdə addımlayır, nəcib insani obrazı və mayası xalqın həyatından, adət-ənənələrindən gələn səmimi bədii əsərləri ilə ürəklərə hərarət saçır, nəsillərin gələcəyə doğru gedən yollarını işıqlandırır.

*«Sabir bu gün», «Gənclik»,*
*Bakı, 1985, s.242.*

# ƏLİ SULTANLI



Böyük Vətən müharibəsindən sonra ordu sıralarından təxris olunub, universitetin filologiya fakultəsində işə başlamışdım. Müəllimlikdən uzun müddət ayrıldığım üçün bir növ yadırğamışdım, hiss edirdim ki, mühazirələrim maraqlı keçmir. Bunu müəllim yoldaşlarımdan birinə açıb dedikdə o, professor Əli Sultanlının (1906-1960) mühazirələrinə qulaq asmağı mənə məsləhət gördü. Mən belə də etdim: professordan icazə alıb, onun növbəti mühazirəsinə getdim. Auditoriyada yüzdən artıq tələbə vardı. Mövzu Şekspirdi. Professor Hamlet surətini təhlil edirdi; hadisələrin mahiyyətindən asılı olaraq bəzən sakit, bəzən həyəcanlı danışırdı. O, sadəcə olaraq mühazirə oxumurdu, bu zaman professor da, tələbələr də Hamletin faciəsi ilə yaşayırdılar. Bəzən professorun siması həlim bir sakitlik, bəzən xoş bir razılıq, bəzən də kədər və ya qəzəb hissi duyulurdu. Bununla belə mühazirəni elə səlis, elə rəvan söyləyirdi ki, əgər onun dediklərini stenoqrafist yazsa idi, heç bir düzəliş etmədən çapa vermək olardı.

O biri gün mən professorun başqa bir kursda söylədiyi mühazirəyə getdim. Bu gün o antik ədəbiyyatdan mühazirə oxuyurdu. Bu dəfə mənim bəxtimə əsatir aləminin sehrkar qəhrəmanı Prometey çıxmışdı. Professorun böyük ustalıqla qurulmuş mühazirəsini dinlədikcə zəncirlənmiş bahadırın müqəddəs əməlləri gözümüzün qabağından gəlib keçir, onun əbədiyyətə qovuşmuş nəcib surəti xəyalımızda canlanırdı.

Deyə bilərlər ki, axı, bunun Əli Sultanlıya nə dəxli var, dünya ədəbiyyatının bu ölməz abidəsinin bəşəriyyətə qədim

Yunanstanın ilk facianəvisi Esxil bəxş etmişdir. Doğrudur. Lakin bu da doğrudur ki, böyük sənət əsərini tam əzəməti ilə tələbəyə çatdırmaq, tələbəni sənətkarın yüksək ideallarına tabe etmək, əsərdə cərəyan edən hadisələrin ruhuna uyğun olaraq, yeri gəldikcə, tələbəni sevindirmək, kədərləndirmək və ya qəzəbləndirmək hər mühazirə oxuyan müəllimin işi deyil. Bunu ancaq ustad müəllim bacara bilər.

Adətən, dərsin bitdiyini xəbər verən zəng səsini tələbə razılıq hissi ilə qarşılayır. Professor Əli Sultanlının mühazirələrində isə mən bunun əksini gördüm: zəng səsi mühazirəni dərin bir aludəliklə dinləyən tələbələrdə təəssüf hissi doğururdu.

Bax, Əli Sultanlı belə bir unudulmaz müəllim idi. Onun yüzlərə, bəlkə də minlərə çatan tələbələrinin və onu yaxından tanıyanların hamısı bu fikirdədir desəm, əminəm ki, heç kəs məni başqasının adından fikir söyləməkdə təqsirləndirməz, əksinə, təsdiq edər. Çünki, Əli Sultanlı 30 ildən artıq Azərbaycanın ali məktəblərində dünya ədəbiyyatı tarixindən mühazirə oxumuş, tələbələrin hörmət və məhəbbətini qazanmış bir müəllim idi. O deyirdi ki: «Mən tələbələrə mühazirə oxumaqdan aldığım zövqü heç bir şeydən almıram, mən müəllimlik etməsəm, yaşaya bilmərəm». Bu, həqiqətən, belə idi. Əli Sultanlı öz sənətinin vurğunu olan bir müəllim idi.

Müəllim Əli Sultanlı eyni zamanda müasir ədəbiyyatşünaslığımızın görkəmli yaradıcılarından biridir. Azərbaycan filologiyası qarşısında Ə.Sultanlının ən böyük xidməti ondan ibarətdir ki, o respublikamızın ali məktəbləri üçün ana dilində dünya ədəbiyyatı tarixi kursunu yaratmışdır. O, gəncliyimizə «Antik ədəbiyyat müntəxəbatı» (1959) adlı üç böyük dərslik və uzun illər boyu apardığı ardıcıl elmi tədqiqatın nəticəsi olan monumental «Antik ədəbiyyat tarixi əsərini» qoyub getmişdir. Bu əsərlərin yalnız dərslik kimi deyil, geniş oxucu kütlələrinin dünya ədəbiyyatının inciləri ilə tanış etmək üçün də əhəmiyyəti vardır. Bunlardan əlavə Ə.Sultanlı müxtəlif zamanlarda Höte, Şiller,

Heyne, Rollan, Russo, Molyer, Hüqo, Aristofon, Bokkaçio, İbsen və başqaları haqqında ayrı-ayrı kitabçalar və jurnal məqalələri nəşr etdirmiş, beləliklə, Azərbaycan oxucularını dünya ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığı ilə tanış etmək sahəsində də səmərəli iş görmüşdür.

Respublikada dünya ədəbiyyatının ən mötəbər mütəxəssisi olan Ə.Sultanlı eyni zamanda Azərbaycan ədəbiyyatının, xüsusən dramaturgiya və teatrımızın ən yaxşı tədqiqatçılarından biri idi. Onun müvəffəqiyyətlə müdafiə etdiyi «M.F.Axundov və Molyer» mövzusunda namizədlik və «Azərbaycan dramaturgiyasının inkişafı tarixi» mövzusunda doktorluq dissertasiyalarında ədəbiyyatımızın problematik məsələləri tədqiq edilmişdir.

Əli Sultanlının elmi tədqiqat fəaliyyətinin vüsəti xüsusilə diqqəti cəlb edir. O, Azərbaycan ədəbiyyatının müxtəlif dövrləri və müxtəlif problemləri üzərində işləmişdir. 1957-1960-cı illərdə nəşr edilən üçcildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin M.F.Axundov, N.Vəzirov, M.S.Ordubadi, A.Şaiq, H.Mehdi bəhsləri Əli Sultanlının qələmindən çıxmışdır. Onun 1958-ci ildə universitetin elmi əsərlərində çap olunmuş «Kitabi-Dədə Qorqud» haqqındakı məqalələr seriyası son dərəcə maraqlı bir elmi əsərdir. Xalqımızın bu gözəl ədəbi abidəsi həmin məqalələrdə ətraflı təhlil olunmuşdur.

Azərbaycan xalqının dünyanın başqa xalqları ilə ədəbi əlaqələrini öyrənmək sahəsində də Ə.Sultanlı səmərəli işləmiş və bir sıra qiymətli əsərlər yazmışdır. «Kitabi-Dədə Qorqud» və qədim yunan dastanları» (1946), «Henye və Azərbaycan ədəbiyyatı» (1946), «Nizami və Qərbi Avropa ədəbiyyatı» (1946), «Ostrovski və Azərbaycan dramaturgiyası» (1948), «N.Vəzirov və rus dramaturgiyası» (1949) və sairəni buna misal göstərmək olar.

Tədqiq edilən sənətkarın yaradıcılığını ədəbiyyatşünaslıq nöqteyi-nəzərindən qiymətləndirmək, dərin ümumiləşdirmə,



*Solda: (öndə) – Hüseyn Abbaszadə, Əziz Şərif, Abbas Zamanov, (arxada) – Emin Mahmudov, Adil Babayev, Ayaz Vəfalı*

yığcamlıq, ədəbi hadisələri dövrün ictimai-siyasi şəraiti ilə müqayisələr, təsvirçilikdən qaçmaq – Ə.Sultanlının elmi əsərləri üçün səciyyəvi xüsusiyyətlər bunlardır.

Görkəmli alim, ustad müəllim, gözəl tərbiyəçi olan Əli Sultanlı nəcib bir insan idi. O öz tələbələrinə, həmkarlarına və dostlarına xüsusi məhəbbət və qayğı ilə yanaşırdı.

Buna görədir ki, biz – Əli Sultanlının respublikamızın müxtəlif rayon və şəhərlərinə yayılmış tələbələri, yetişdirdiyi gənc alimlər, iş və qələm yoldaşları onu sevir, hörmət və minnətdarlıqla yad edirik.

*«Əməl dostları»*
*B.Yazıçı, 1979, səh. 265-268*

# MƏMMƏD ARİF
## Ustadın dərsləri



Arif müəllimin 75 yaşının tamam olması münasibətilə redaksiyanın məqalə yazmaq təklifi məni xeyli düşündürdü. Nə yazım? Kim bilmir ki, Məmməd Arif Dadaşzadə 50 illik bir dövrü əhatə edən ədəbiyyat tariximizə tənqidi fikrin klassiki kimi daxil olmuşdur. Kim bilmir ki, Azərbaycan sovet ədəbiyyatında Cəfər Cabbarlının dramaturgiyada, Ordubadinin nəsrdə, Səməd Vurğunun poeziyada gördüyü işi tənqiddə Məmməd Arif görmüşdür. Bunları hamı bilir.

Odur ki, xeyli götür-qoy etdikdən, düşünüb-daşındıqdan sonra belə qərara gəldim ki, Arif müəllimlə 40 il sürən dostluğumuz, şəxsi və xidməti münasibətlərimiz zamanı müşahidə etdiyim bəzi əhvalatları hafizəmdə canlandırıb kağıza köçürmək daha belə məsləhətlidir.

Arif müəllimlə şəxsən 1939-cu ildə «Ədəbiyyat qəzeti»ndə katib işlədiyim zaman tanış olmuşdum. 1940-cı ildə Azərnəşrin bədii ədəbiyyat şöbəsi müdiri vəzifəsinə keçdikdən sonra tanışlığımız dostluğa çevrildi. Bundan sonra həmişə mən Arif müəllimin ailəsinin, necə deyərlər, məhrəm adamı, şənliklərinin də, kədərlərinin də yaxın iştirakçısı oldum.

Arif müəllimi insan kimi səciyyələndirən bir çox unudulmaz xoş hadisələr hafizəmdə həkk olunmuşdur. Hər dəfə bu və ya başqa münasibətlə Arif müəllimi xatırladıqda o hadisələr xəyalımda yenidən canlanır. Əziz dostu, hörmətli ustadı minnətdarlıq hissi ilə yad edirəm.

Deyirlər ki, adamlar bir-birini səfərdə daha yaxşı tanıyırlar. Bu həqiqətdir. Arif müəllimlə məni ilk yaxın tanış-

lığım səfərdə oldu. 1940-cı ilin baharında biz birlikdə Sxaltubaya müalicəyə getmişdik. 25 gün bir sanatoriyada, bir otaqda yaşadıq. Bu müddətdə mən ondan nə qədər ılıq qayğı gördüm... Arif müəllim səhərlər adətən çox erkən oyanıb sanatoriyanın bağına gəzməyə gedərdi. Yataqdan elə sakit qalxar, otaqdan elə ehmal çıxıb gedərdi ki, mənim ruhumun xəbəri də olmazdı. Həmişə səhər yeməyinə düz yarım saat qalanda otağa daxil olub məni oyadardı.

Bir dəfə mən harada isə yubanıb vannaya getməmişdim. Bunun üçün Arif müəllim məni məzəmmət edib dedi: sən bura gəzməyə yox, müalicəyə gəlibsən. Bir də belə eləsən, mən səninlə bir otaqda qalmayıb yerimi dəyişdirəcək, özünü də dindirməyəcəyəm.

Bu ciddi xəbərdarlıqdan sonra mən özümü yığışdırdım, bir daha vannanı buraxmadım. Arif müəllim də otaqdan köçməli olmadı.

Sanatoriyada mədəni-kütləvi işləri təşkil edən xidmətçi müalicəyə gələnlərin anketini nəzərdən keçirər, yüksək peşə sahiblərinin klubda məruzəsini təşkil edərdi. Bir gün o, bizim otağa gəlib Arif müəllimdən Azərbaycan ədəbiyyatı haqqında məruzə etməyi xahiş elədi. Əvvəlcə Arif müəllim razılıq vermədi. Ancaq xidmətçi asanlıqla başdan ediləsi adam deyildi. O, istədiyinə nail oldu, bir neçə gün sonra elan vuruldu. Arif müəllim sanatoriyanın klubunda məruzə etməli oldu. Arif müəllimin bəzi qeydlər etdiyini görmüşdüm. Lakin yanımızda ədəbiyyat olmadığı üçün mən həyəcan keçirirdim. Arif müəllim isə çox sakit idi. Nəhayət, məruzə günü gəlib çatdı. Arif müəllim özünəməxsus sakitliklə məruzəyə başlayıb, Azərbaycan ədəbiyyatının yaranması, inkişaf dövrləri haqqında təxminən bir saat danışdı. O, tələsmədən, asta-asta, aramla danışırdı. Söhbət Nizami, Xaqani, Nəsimi, Füzuli və başqa dahi yazıçılardan gedəndə Arif müəllimin simasında və danışıq tərzində aşkar duyulan bir qurur hissi özünü büruzə verirdi.

Məruzə maraqlı keçdi, sual verənlər də oldu, axırda məruzəçi alqışlandı. Düzünü deyim ki, o vaxtadək mən Arif

müəllimin rus dilində bu cür sərbəst danışdığını bilmirdim.

Bu məruzədən sonra adamlar Arif müəllimə ehtiramla təzim edər, yeməkxanaya gedəndə və ya çıxanda kənara çəkilib ona yol verərdilər.

Sanatoriyada Uznadze familyalı 83 yaşlı bir həkim müalicə olunurdu. Məruzədən sonra o, Arif müəllimə yanaşıb dedi ki, mənim atam Qafqaz canişinliyinin dəftərxanasında M.F.Axundov ilə birlikdə işləmişdir. Hətta mən atamın yanına gedəndə bir-iki dəfə onu görmüşdüm. Atamın onun dəfnində iştirak etdiyini də bilirəm. Arif müəllim ona dedi ki, bəlkə bir xatirə yazasınız. Doktor bundan imtina edib dedi: Mən nə yaza bilərəm. Bir-iki dəfə onu kənardan görmüş, Azərbaycan yazıçısı olduğunu atamdan eşitmişdim. Sonrada atam demişdi ki, onun dəfnində olub. Vəssalam... Bizim evimizdə canişin dəftərxanası məmurlarının birlikdə çəkdirdikləri bir şəkil var. Atam şəkilləri nömrələyib arxasında adlarını yazmışdır. Məncə, M.F.Axundov da o şəkildə vardır. Ünvanımı sizə verərəm, Tbilisdə bizə gələrsiniz. Mən o şəkili sizə bağışlayaram.

Uznadzenin müalicə vaxtı bitdi, bizdən qabaq getdi. Bakıya dönərkən Tbilisi vağzalında bizi mənim keçmiş seminariya yoldaşım Rza Şahvələd qarşılayıb evinə apardı. Azca istirahət etdikdən sonra həkim Uznadzegilə getdik. O bizi səmimiyyətlə qarşıladı, köhnə ailə şəkillərini gətirib tökdü ortalığa. Lakin o şəkil tapılmadı. Böyük bacısını çağırıb şəklin harada olmasını soruşdu. Məlum oldu ki, hansı arxivin əməkdaşı isə şəkli aparmış, üzünü çıxarıb qaytarmağa söz vermiş, lakin indiyədək qaytarmamışdır. Həkimin bacısı bunu da əlavə etdi ki, mən o adamı yaxşı tanıyıram, onun caynağına keçən geri qayıtmaz. Həkim pərt oldu, şəklin özünü və ya surətini tapıb göndərəcəyinə söz verdi. Lakin ondan bir xəbər çıxmadı. Kim bilir, bəlkə də indi həmin şəkil Tbilisinin arxivlərinin birində saxlanılmaqdadır. Bəlkə də hansısa bir tədqiqatçı onu tapıb üzə çıxaracaqdır...

1968-ci ildə Mola Pənah Vaqifin anadan olmasının 250

illik yubileyinin keçirilməsinə hazırlıq gedirdi. Arif müəllim vaxtaşırı Nizami muzeyinə gələr, Vaqifin yubiley sərgisinin açılışına hazırlığın gedişi ilə maraqlanar yerindəcə lazımi göstərişlər verərdi.

Muzeyə gəlişlərinin birində Arif müəllim mənə dedi ki, akademiyanın «Elmi əsərləri»nin növbəti nömrəsi Vaqifə həsr ediləcəkdir. Nömrənin baş məqaləsini yazmaq sənə tapşırılmışdır. Bu təklif mənə qəribə göründü, dedim: Axı, mən heç bir vaxt Vaqiflə məşğul olmamışam, bəlkə bunu mütəxəssisə tapşırasınız. Arif müəllim qəti bir tərzdə etiraz edib dedi: Yox, sən yazacaqsan, məşğul olmayıbsan, indi olarsan.

Arif müəllim bu sözləri elə qəti bir şəkildə dedi ki, onun təklifinə etiraz yeri qalmadı.

Məqaləni yazmalı oldum, makinadan çıxarıb Arif müəlliməə göndərdim. Düzü mən Vaqif haqqında məqalə yaza biləcəyimə əmin deyildim. Buna görə Arif müəllimin fikrini həyacanla gözləyirdim.

Məqaləni göndərdiyim günün səhəri Arif müəllim muzeyə zəng edib dedi ki, dünən axşam evdə məqaləni Arazla birlikdə oxuduq, xoşumuza gəldi. Mətbəəyə göndərilmək üçün nəşriyyata verəcəyəm. Mən razılıq etmək istərkən sözümü kəsdi: «Qulaq as, o gün muzeydə işçilərin yanında sənə demədiyim sözləri indi demək istəyirəm. Əgər Azərbaycan ədəbiyyatının müəyyən bir dövrü ilə məşğul olan bir alim ədəbiyyatımızın başqa bir dövrünün qapısını açmağa cəsarət etmirsə, demək, o, elmə təsadüfi gəlmişdir. İncimə, mən bu sözləri səni nəzərdə tutub demirəm. Sənin maraq dairən genişdir. Vaqif haqqında məqalə yazmağı bacaracağına əmin olmasaydım, onu sənə tapşırmazdım. O günü bu təklifdən boyun qaçırmaq istəməyin xoşuma gəlmədi. Odur ki, bu sözləri mütləq sənə deməli idim. Cəsarətli olmaq lazımdır».

Bu sözlər başqalarına əxlaq dərsi oxumaq üçün deyilməmişdir. Arif müəllimin öz yaradıcılığı bu prinsipə riayət etməyin ən yaxşı nümunəsidir. Dar ixtisas çərçivəsi Arif müəllimin ədəbi-tənqidi irsi üçün tamamilə yaddır. Azərbaycan

sovet ədəbiyyatının ən mötəbər tədqiqatçısı, professional mütəxəssisi olan Arif müəllim ədəbiyyatımızın başqa dövrləri, bu dövrlərin yetişdirdiyi nəhəng simaları haqqında yazılmış bir sıra monoqrafik məqalələrin müəllifidir. Tənqidçiliklə ədəbiyyatşünaslığı öz yaradıcılığında məharətlə birləşdirən Arif müəllim Sovet İttifaqının qardaş xalqları, həmçinin dünya ədəbiyyatına dair sanballı elmi əsərlər yazmışdır. Bunu da əlavə etmək kifayətdir ki, Arif müəllim respublikamızın ali məktəblərində rus ədəbiyyatı tədrisinin bünövrəsini qoyan alimlərimizdən biri, bəlkə də birincisidir.

Arif müəllimin məqaləni bəyənməsi məni ürəkləndirdi. Professor Həmid Məmmədzadə ilə birlikdə Vaqifin seçilmiş əsərlərini ərəb əlifbası ilə hazırlayıb nəşr etdik, kitaba müqəddimə yazdım. «Bakinski raboçi» qəzetinin Vaqifə həsr edilmiş yubiley nömrəsində məqaləm çıxdı. Arif müəllimin bəyəndiyi məqaləni sonralar «Bustan» (Vena), «Zəmanənin dəftəri» (Tehran), «Əlislam» (Münhen), «Qardaşlıq» (Bağdad), «Türk ədəbiyyatı» (İstanbul) jurnalları, akademiyanın «Elmi əsərləri»ndən götürüb tərcümə edərək nəşr elədilər. Əlbəttə, bunlar üçün mən Arif müəllimə borcluyam.

Bəli, Arif müəllim öz tələbələrinə və həmkarlarına belə atalıq qayğısı göstərirdi. Buna görədir ki, onlar Arif müəllimin xatirəsini ürəklərində minnətdarlıqla yaşadırlar.

Yaxşı yadımdadır. 1969-cu ildə respublikada Cəfər Cabbarlının 70 illiyi keçiriləndə Arif müəllimin başçılıq etdiyi bir dəstə yazıçı, alim, rəsam Xızıya getmişdi. Gedənlərin içərisində Nəbi Xəzri, Cabir Novruz, xalq rəssamı mərhum İsmayıl Axundov, Aydın Cabbarlı və adlarını xatırlamadığım bir neçə gənc şair var idi. Əvvəlcə Cabbarlının Xızı kəndindəki muzeyinə getdik. Nizami muzeyindən gətirdiyimiz yeni eksponatları muzeyə qoyduq. Sonra kəndin aşağısındakı bağda yığıncaq oldu. Yığıncaqda kəndin cavanları, həmçinin Cəfər Cabbarlının yaşıdları və ondan yaşca böyük olan həmyerliləri iştirak edirdilər. Yığıncağı Abşeron Rayon Partiya Komitəsinin katibi Sadıq Murtuzayev idarə

edirdi. Yazıçı haqqında Arif müəllim danışdı. O, yığıncağa toplaşan kalxozçuların səviyyəsinə uyğun bir tərzdə, aram-aram danışırdı. Arif müəllim danışdıqca onun nurani simasından qurur və səmimiyyət yağırdı. Cabbarlının yığıncağa toplaşan həmyerliləri də eyni hiss ilə yaşayırdılar.

Çıxışlar oldu, şairlər şeir oxudular. Sonra bizi vaxtilə Müşfiqin füsünkar təbiətini vəsf etdiyi Yarımca kəndinə apardılar. Kəndin kənarında, hər tərəfi yamyaşıl ağaclarla örtülü bulağın başındakı çəmənliyə xalça-palaz döşənmişdi. Süfrə qonaqları gözləyirdi. Yemək-içmək başlandı, ehtiraslar qızdı, sağlıqlar difiramba çevrildi. Bol-bol tériflər baş alıb gedirdi. Arif müəllimin simasından hiss olunurdu ki, o, nədənsə, darıxır, həyacan keçirir. Növbəti sağlıqların birindən sonra Arif müəllim qədəhlərin boşalmasını gözləməyib ciddi, bir qədər də əsəbi tərzdə danışmağa başladı: «Sizin bu mənasız tərifləri eşidəndə adamın əti tökülür. Adam nə qədər bir-birini tərifləyər? Təriflənənlər aldanıb deyilənlərə inana bilərlər. Bu isə onları yollarından sapdıra bilər. Kimi yıxmaq istəyirsən- qoltuğuna ver, onda o, yolunu azıb öz-özünə yıxılacaqdır.

Bu sözlərdən sonra Arif müəllim üzünü məclisin masabəyinə tutub davam etdi:- söz almadan danışdığım üçün üzr istəyirəm. Gəlin, təbiətin bu gözəl ağuşunda məclisimizi davam etdirək. Lakin dadsız-duzsuz təriflə dolu sağlıqlara son qoyaq».

Hamı öz payını götürdü. Bundan sonra üstünlük şeirə, musiqiyə verildi.

Arif müəllim bizi 1975-ci ilin dekabrında tərk etmişdir. Lakin o, indi də bizimlə yaşayır, zəngin tənqidi irsi ilə bizə kömək edir.

*«Sabir bu gün», «Gənclik»,*
*Bakı, 1985, s.321.*

# MİKAYIL MÜŞFİQ
## Yadımda qalanlar



Mikayıl Müşfiq cəmi on-on iki il yazıb-yaratmışdır. Buna baxmayaraq o, böyük poetik irs qoyub getmişdir.. Azərbaycan sovet poeziyasını, onun yaranmasını, təşəkkül və inkişafını Müşfiqsiz təsəvvür etmək çətindir.

Müşfiqi yaxından tanıyanlar bilirlər ki, o, son dərəcə emosional bir şəxsiyyət idi. Bəzən hisslərini güclə cilovlayırdı. Lakin xarakterindəki bu cəhət Müşfiqi mücərrədliyə, həyatdan uzaqlaşmağa apara bilmirdi. Şeir, şair haqqında onun maraqlı mülahizələri var idi.

İyirminci illərdə «Kommunist» qəzetinin klubunda demək olar ki, hər cümə günü (o zaman istirahət günü cüməyə düşürdü.) qızğın, ədəbi yığıncaqlar keçirilərdi. Biz tələbələr də bu yığıncaqlara gedər, məclisin aşağı başında dayanıb deyilənlərə həvəslə qulaq asardıq.

Bir dəfə «Kommunist» qəzetinin klubunda şair Əbdülbaqi Fövzinin şeirləri müzakirə edilirdi. Məruzəçi mərhum Seyfulla Şamilov idi. Məruzə bitən kimi Müşfiq yerindən belə bir replika atdı:

– Yoldaş məruzəçi, Fövzinin «Oxuduqca adamın oxusu gəlir» misrası haqqında fikriniz nədir?

Müşfiq bununla «oxusu» sözünün uydurulduğuna işarə edirdi.

Müşfiqin replikası Fövzini möhkəm tutdu: narazılığını bildirdi. Bu zaman Müşfiq belə cavab verdi:

– Fövzi, nahaq yerə əsəbləşirsən. Bayağı və uydurma ifa-

dələr şerə yamaqdır. Yamaq isə tez sökülür.

Bəli, Mikayıl Müşfiq poeziyada hər cür bayağılığa, uydurmaçılığa, süniliyə düşmən idi.

1933-1934-cü illərdə «Gənc işçi» qəzeti redaksiyasında işləyirdim. O zaman səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Abdulla Faruq, Hüseyn Natiq və başqa şairlər, deməк olar ki, hər gün «Gənc işçi» redaksiyasına gələr, yeni şeirlərini oxuyar, mübahisə edərdilər. «Gənc işçi» cavan şairlərin, bir növ, yaradıcılıq emalatxanası rolunu oynayırdı. Həmin illərdə redaksiyada Fərrux Həsənli adlı bir cavan işləyirdi. Fərrux üzügülər, mülayim və xeyirxah adam idi, biz hamımız onu çox sevirdik. Mətbuatda Fərrux Həsənlinin tez-tez şeirləri çıxardı. Ancaq bu şeirlər ədəbi ictimaiyyətin diqqətini cəlb etməzdi. Bir gün Müşfiq dostu Sabit Rəhmanla birlikdə redaksiyaya gəlmişdi. Onu da deyim ki, bu zaman Sabit də şeir yazırdı. Hələ nəsrə və dramaturgiyaya keçməmişdi. Fərrux Həsənli yeni yazdığı bir şeri onlara oxudu. Həmin şerin iki misrası yadımdadır:

*Traktor əkib-biçər.*
*Kəndli onları seçər.*

Fərrux şeri oxuyub qurtaran kimi Müşfiq müqəddiməsiz, qeyd-şərtsiz ona dedi:

– Qardaşım, nə qədər ki, gec deyil, get özünə başqa sənət seç, sonrakı peşimançılıq fayda verməz.

Bəli, Müşfiq sözünü açıq deyərdi, üstüörtülü danışmaqdan xoşlanmazdı.

1934-cü ildə «Gənc işçi» qəzeti redaksiyasında işlədiyim vaxt Gəncəyə (indiki Kirovabada) ezamiyyətə getmişdim. Bir gün şəhərin Sabir küçəsində Müşfiqlə Sabit Rəhmana rast gəldim. Məlum oldu ki, Müşfiq dostu Sabitlə birlikdə Gəncəyə, nişanlısı Dilbərin görüşünə gəlib. Onlar məni Dilbər xanımgilə çay içməyə dəvət etdilər. Mən Pedaqoji Texnikumun-

da Dilbər xanımla bir vaxtda oxumuşdum. Buna görə onların təklifini çəkinmədən qəbul etdim. Getdik. Dilbər xanımın qohumu şair Əhməd Cavad evdə oturub Müşfiqgili gözləyirdi. Somovar buğlanırdı. Evdə stol, stul yox idi. Xalçanın üstündə bardaş qurub oturduq. Müasir şerdən söhbət açıldı. Müşfiq həyəcanla deyirdi: «İznivaye çəkilməyin dövrü çöxdan keçib. İndi şair öz zəmanəsinin görən gözü, eşidən qulağı, döyünən ürəyi olmalıdır. Əks-təqdirdə inzivayev çəkilənlərin gününə düşərik, heç bir dəftərdə adımız qalmaz».

Hafizəmizdə həkk olunmuş bu sözlərin deyildiyi vaxtdan 44 il keçmişdir. Bu illərin sınağından sonra Müşfiqin zəngin poetik irsinə ümumi bir nəzər saldıqda inanırsan ki, o, həqiqətən zəmanəsinin belə bir şairi-görən gözü, eşidən qulağı, döyünən ürəyi olmuşdur...

*«Ədəbiyyat və incəsənət» qəzeti,*
*01 iyul1978-ci il*

# CƏFƏR CABBARLI
## O, həmişə bizimlədir



1935-ci ilin tutqun bir yanvar günü idi. Cəfər Cabbarlını son mənzilə yola salan izdiham Kommunist küçəsinə yerləşmirdi. Kommunist küçəsi ilə məvazi olan küçələrdən də izdiham fəxri xiyabana doğru axışıb gedirdi. Cabbarlının vəfatı xəbəri ildırım surəti ilə hər tərəfə yayılmışdır. Bütün Bakı ayağa qalxmışdı. İzdihamın içərisində bir neçə cavan yoldaşımla birlikdə mən də var idim. Biz o zamanın məşhur müəllimlərindən Azad Əmirov və Səlim Səyyahın arxasınca gedir, onların danışıqlarını eştiməyə çalışırdıq. Hacı Səlim Səyyahın göz yaşları qurumaq bilmirdi. Qocaman müəllim yanaqlarına tökülən yaşları silə-silə deyirdi:

– Azad bəy, mən belə izdihamlı dəfni birinci dəfə 1907-ci ildə Həsənbəy Zərdabi dəfn olunanda görmüşəm. O gün Bakıda dükan-bazar, bütün idarələr bağlanmışdı. Azərbaycanlılarla yanaşı, şəhərin başqa millətlərdən ibarət olan əhalisi də dəfn mərasimində iştirak edirdi. Bu gün olduğu kimi, o gün də insan yığını dalğalı dənizə bənzəyirdi. İynə atsaydın, yerə düşməzdi.

Düzü ki, qoca məllimin sözlərindəki dərin mənanı mən sonralar dərk etdim. Zərdabi ilə Cabbarlının dəfn mərasimlərinin arasındakı oxşarlıq ondan irəli gəlirdi ki, mədəniyyətimizin və ümumiyyətlə, ictimai fikir inkişafımızın bu iki nəhəng siması eyni dərəcədə ümumxalq etirafı qa-

zanmış, onlar özlərinə xalqın ürəyinin dərinliklərində əbədi yuva qurmuşlar. Onların hər ikisinin qaynar həyat yolu mədəniyyətimizin tarixində bütov bir epoxadır. Elə bir epoxa ki, həmin müasir, həmişə təsirli, həmişə nurludur. Buna görə Zərdabinin də, Cabbarlının da vəfatı xalq üçün ən ağır itki olmuş, onların dəfn mərasimləri ümumxalq kədərinə, ümumxalq nümayişinə çevrilmişdi.

Məlum bir həqiqət vardır ki, insanların xidməti yaşlarının çoxluğu və ya azlığı ilə deyil, gördüyü işlərin sanbalı, həyatda buraxdıqları izlərin mənası və dərinliyi ilə ölçülür. Cabbarlı vur-tut 35 il yaşamışdır. Lakin bu qısa müddətdə gördüyü işlərlə o, ədəbiyyatımızın ümmanına elə bir lövbər atmışdır ki, heç bir tufan bu lövbəri yerindən tərpədə bilmir., əksinə, ötüb keçən illər bu lövbərin yerini daha da möhkəmləndirir, daha da bərkidir.

Cəfər Cabbarlının böyüklüyü, yaradıcılığının müasirliyi, məna və əhəmiyyəti hər şeydən əvvəl ondan ibarətdir ki, o bütün qısa ömrü boyu, həmişə öz xalqı ilə birlikdə ağlamış, birlikdə sevinmiş, birlikdə gülmüşdür.

Bir vaxt xalqımızın həyatında hökm sürən ictimai faciələri, eybəcərlikləri açmaq, adamları onlardan uzaqlaşdırmaq lazım idi. Bu zərurət tarixin hökmü idi. Bu zaman Cabbarlı aydınları, gültəkinləri, səriyyələri səhnəyə gətirdi.

Bir zaman yeni qurulmuş həyatı tərənnüm etmək, yeni dünyanın əxlaq normalarını oxuculara aşılamaq, yeniliyin inkişafına mane olan düşmən qüvvələri mübarizə və dirçəliş yollarından kənara atmaq lazım idi. Bu zaman Cabbarlı tərəddüd etmədən sevilləri, elxanları, almasları, yaşarları, sonaları, eyvazları, baxşıları səhnəyə gətirdi. Beləliklə, xalq qarşısında, ədəbiyyat qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmiş oldu.

Cəfər Cabbarlının yaradıcılıq üfüqlərinin genişliyinə heyran olmaya bilmirsən: Cabbarlı — dramaturq, Cabbarlı —

şair, Cabbarlı — nasir, Cabbarlı — opera, libertolları müəllifi, Cabbarlı —rejissor, Cabbarlı — tənqidçi və publisist ... Bunların hamısınıda da professional!

Cəfər Cabbarlının bizdən yarım əsrə yaxın bir müddət ayırır. Əlbəttə, «ayırır» ifadəsini şərti mənada başa düşmək lazımdır. Bir-birini əvəz edib ötən illər Cabbarlını bizə daha da yaxınlaşdırır. Cabbarlı bu gün də yaşayır. Cabbarlının bədii sözü bu gün də insanlara necə yaşamağı, həyatda yaxşını, gözəlliyi necə sevməyi, pisə necə nifrət bəsləməyi öyrədir. O, həmişə bizimlədir.

*«Ədəbiyyat və incəsənət» qəzeti*
*02 aprel, 1982-ci il*

# ÖLMƏZ OBRAZLAR
## (C.Cabbarlının vəfatının 23-cü ildönümü münasibətilə)

C.Cabbarlının vəfatından iyirmi üç il keçir. Bu iyirmi üç ilin müddətində biz heç bir vaxt Cabbarlının yoxluğunu hiss etməmişik. Çünki onun yaratdığı ölməz obrazlar sıralarımızda yaşayır, bizimlə yanaşı addımlayır, bizə həyat eşqi, vətən eşqi, mübarizə eşqi aşılayırlar. Bu qəhrəmanların ruhu xalqın həyatına, məişətinə, qanına və iliyinə işləmişdir. Analar sevimli körpələrini yüksək iftixar hissi ilə Aydın və Oktay, Elxan və Sevil, Almas və Yaşar deyə çağırırlar. Çünki Cabbarlının qəhrəmanlarında xalqın ağlı və zəkası, arzu və istəyi, sevinci və kədəri təcəssüm etdirilmişdir. Onların köksündə yaşadığımız əsrin qəlbi döyünür, biləklərində zamanın nəbzi vurur.

Biz bu qəhrəmanlarla hər dəfə yenidən tanış olduqda özümüzü nikbin və gümrah hiss edir, ürəyimiz yeni bir qüvvə ilə – yaşamaq və yaratmaq əzmi ilə döyünür.

Vaxtilə M.F.Axundovun ictimai həyata, müasirlərinin şüuruna etdiyi qüvvətli təsirdən danışarkən, Cabbarlı demişdir: «O zaman həyatın bir tərəfi sökülür, dağılır, o biri tərəfi başqa, tam başqa və yeni bir biçimdə tikilirdi. Burada Mirzə Fətəli bir mühəndis kimi bu sökülən və tikilən binanın başı yanında durmuş, amansız qələmi ilə «bura sökülməlidir, bu isə tikilməlidir» deyir, köhnə yaşayışın bütün nöqsanlarını, yaramazlığını, yeninin isə bütün faydalarını irəli sürür, inandırır, qandırırdı».

Mirzə Fətəli irsinin layiqli varisi olan Cəfər Cabbarlının özü də belə etməmişdirmi? Ağır çətinliklərə sinə gərən Sevil, dəmir iradəli Almas, ən nəcib əməlləri, ana yurdun azadlığı və istiqlaliyyəti uğrunda canını qurban verən qorxmaz El-

xan, doğma xalqının rifahı və səadəti üçün yorulmadan elmi axtarışlar aparan nəcib Yaşar, sənətdən yenilik, müasirlik tələb edən Gülsabah azad sosializm dünyası quran insanların yaradıcılıq yolunu sönməz bir məşəl kimi işıqlandırmış, onlara nəyi sökməyi və nəyi tikməyi öyrətmişlər.

Mirzə Fətəli Axundov kimi Cəfər Cabbarlı da öz əsrinin oğludur. O, «Dönüş» pyesinin qəhrəmanı Gülsabahın dili ilə öz oxucularına belə müraciət edirdi:

- Fabrikalara, zavodlara! Dəmir çıxaran mədənlərə! Çuğun tökən zavodlara! Əsrin qan damarları oradadır!

Bu sözlər əsrin əks-sədası, zamanın tələbi və çağırışı idi. Cabbarlının obrazlarının arzuları və əməlləri sadəcə çağırışa şüar olaraq qalmırdı. Cabbarlı öz qəhrəmanları ilə bu arzuların həqiqətə çevrilməsində yaxından, çox yaxından iştirak edirdi.

Cəfər Cabbarlı deyirdi ki: «Ən gözəl əsər sənətdə böyük fikirlər ifadə edən, insanları tərbiyə məqsədilə yazılan əsərdir. Oxuculara, tamaşaçılara bir dərsi-ibrət verməyən, bir hüsni-niyyət qənaəti qazandırmayan əsərlər sənət əsəri ola bilməzlər».

Azərbaycan qadınlığının taleyində «Sevil»in oynadığı tarixi rol sənətdə bu prinsipin həyata keçirilməsinin parlaq timsalı deyilmi?

Cəfər Cabbarlının obrazları yalnız məişət aləmində deyil, mübarizə və döyüş meydanlarında da öz tərbiyəvi təsirini göstəmişdir. Böyük Vətən müharibəsinin qızğın dövründə «Za Rodinu» adlı cəbhə qəzetində belə bir maraqlı döyüş əhvalatı nağıl edilirdi.

1943-cü ildə Dnepr sahilərində ölüm-dirim döyüşləri getdiyi günlərdə N saylı hissələrimizdən biri öz qərargahı ilə birlikdə düşmən mühasirəsinə düşür. Bu zaman polkun bayraqları azərbaycanlı serjant Sədrəddin Cəbiyev, bayraq düşmənin əlinə keçməsin deyə ona suyun axa bilməyəcəyi

böyük bir daş bağlayaraq Dneprin sahilə yaxın bir yerinə atır. Bu zaman arxadan köməyə gələn hissələri sürətli hücumla düşmənin mühasirəsini yarıb polku xilas edirlər. Əsir düşmək təhlükəsi aradan qalxan kimi serjant Cəbiyev bayrağı sudan çıxarıb polkun qərargahına gətirir. Bayraqdarın bu hərəkətini eşidən ordu qərargahı rəisi general, tədbirli davrandığı üçün Cəbiyevə şəxsən təşəkkür etmək üçün onu yanına çağırır. General serjant Cəbiyevdən soruşur:

- Bu vurhavurda bayrağa daş bağlayıb suya atmaq haradan ağlına gəldi?

- Buna oxşar bir hadisəni Bakıda bizim yazıçımız Cəfər Cabbarlının «Od gəlini» adlı pyesinin tamaşasında görmüşəm. Pyesin baş qəhrəmanı Elxanın dəstəsi istilaçı ərəblərlə vuruşda məğlub olduqda, dəstənin bayrağı düşmənin əlinə keçməsin deyə – Dönməz onu parça-parça edir.

- Sən qorxmadınmı ki, bayrağı suya atdığın üçün rəislərin sənə cəza verə bilərlər?

- Yox, qorxmadım, çünki o zaman Elxan Dönməzə heç bir söz demədi.

Cəbhə qəzetinin səhifəsindən gətirdiyimiz bu misal bir daha aydın sübut edir ki, Cabbarlının obrazlarının nə qədər böyük təsiri, tərbiyəvi əhəmiyyəti olmuşdur. Onlar oxucunun şüuruna, hissinə, duyğusuna nüfuz etmişdir.

Cabbarlı qələm yoldaşlarına müraciətlə «ədiblərin fikri əsrləri qabaqlamalıdır» demiş və onu öz yaradıcılığında həqiqətə çevirərək əsrləri qabaqlayan əsərlər yazmışdır. Onun otuz beş il bundan əvvəl yazdığı «Məhkum Şərqə» şeri sanki elə indi, imperializmin Şərqdə qanlı fitnə-fəsad törətdiyi günlərdə yazılmışdır. Sanki ədib indi üzünü qoca Şərqin qəhrəman oğullarına tutaraq onları müstəmləkəçi cəlladlara qarşı mübarizəyə səsləyir.

C.Cabbarlının qəhrəmanları yalnız bu günün deyil, gələcəyin də qəhrəmanlarıdır. Onların yolu dünənki, bugünkü

və sabahkı sovet adamlarının yoludur. İllər, bir-birini sürətlə əvəz edən illər keçdikcə Cabbarlının obrazları gəncləşir, yeni məna, yeni əhəmiyyət kəsb edirlər. Bu obrazlar həmişə irəli addımlayacaq, gələcək nəsillərə bu günün tarixindən xoş xəbərlər aparacaq, onlara nəcib bəşəri hisslər aşılayacaq, onları Vətənin, xalqın səadəti uğrunda mübarizəyə ruhlandıracaqdır.

*«Kommunist» qəzeti,*
*31 dekabr, 1957*

# CƏFƏR CƏFƏROV
## Onu xatırlarkən



Qələbəmizin 30 illiyini hədsiz sevinclə, yüksək iftixar hissi ilə bayram etdiyimiz günlərdə onun qazanılmasında özünə görə payı olan, lakin bu şanlı bayramda iştirak edə bilməyən cəbhə dostları yada düşür, onların yoxluğuna heyfsilənirsən. Bu xoşbəxt günlərin onlara nəsib olmadığına ürəkdən təəssüf edirsən.

Belə cəbhə dostlarından biri iki il əvvəl bizi tərk edən görkəmli tənqidçi, ədəbiyyat tarixçisi və teatrşünas Cəfər Cəfərov idi.

1941-ci ilin sonunda Azərbaycan KP MK bir neçə yazıçı və jurnalisti Krımda cəbhə qəzetində işləməyə göndərmişdi. Onların içərisində mən də var idim. Dekabr ayında biz Kerçə çatanda Cəfər Cəfərovu orda gördük. O, siyasi rəhbər (leytenant) rütbəsində cəbhənin siyasi idarəsində xidmət edirdi. Dekabr ayından etibarən «Döyüş zərbəsi» (sonra bu qəzet «Döyüşən Krım» adlandırıldı) adlı cəbhə qəzeti dörd dildə – rus, Azərbaycan, gürcü və erməni dillərində nəşr edilməyə başladı. C.Cəfərov siyasi idarədəki vəzifəsindən azad olunub cəbhə qəzeti redaktorunun Azərbaycan redaksiyası üzrə müavini təyin edildi. İlk günlərdən etibarən Cəfərov öz istedadı, işgüzarlığı, cəsurluğu və şəxsi rəftarı ilə redaksiyada hamının hörmətini qazandı. O, Azərbaycan redaksiyasını layiqincə idarə etməklə yanaşı, bütün redaksiyalar üçün rus dilində beynəlxalq icmallar, «Təbliğatçılara kömək» rubrikası altında siyasi söhbətlər, Azərbaycan xal-

qının qəhramanlıq keçmişinə dair məqalələr yazardı. Arada vaxt tapıb cəbhənin ön xəttinə də gedər, döyüşdə fərqlənən azərbaycanlı əskərlər haqqında oçerklər də yazardı. Hər həftənin sonunda qəzetlərin nömrələri müzakirə ediləndə Cəfərin yazıları həmişə yüksək qiymətləndirilərdi. Qəzeti redaktoru, polk komissarı Berezin bir yerə gedəndə həmişə redaksiyanı Cəfər Cəfərova tapşırardı.

1942-ci il may ayının 15-də Azov dənizi ilə Qara dənizi birləşdirən boğazdan Tamana keçəndə C,Cəfərov özunü cəsur bir sovet zabiti kimi göstərdi. Onun səyi nəticəsində, böyük çətinliklə olsa da, redaksiyamızın bütün şəxsi heyəti sağ-salamat Tamana keçə bildi. Yaxşı yadımdadır o, gəmiyə hamıdan sonra mindi.

İndi, Qələbənin 30 illiyi bayramında Cəfəri xatırlarkən həmin odlu-alovlu günlər hafizəmdə canlanır, unudulmaz cəbhə dostumu hörmət, məhəbbət və minnətdarlıqla yad edirəm.

*«Ədəbiyyat və incəsənət» qəzeti,*
*09 may, 1975-ci il*

# AZƏRBAYCAN YAZIÇILAR İTTİFAQININ PLENUMUNDA ABBAS ZAMANOVUN ÇIXIŞI (25 MART 1988-Cİ İL)

**İxtisarla**

## CƏFƏR CƏFƏROV

Mənim yaşım ötsə də, amma özümü həmişə cavanların sırasında görürəm. Hörmətli Anar müəllim, istərdim ki, cavanlar yaxşı olsunlar, onlarda vətəndaşlıq hissi olsun. Cavanlarımızı vahimə, təşviş qorxutmasın. Çıxış edəndə də birinci növbədə vətəndaşlığımızı unutmayın. Yüksək səviyyəli əsərləri siz cavanlar yazmalısınız.



*Rəsul Rza, Cəfər Cəfərov, Anar*

Mən burada ədalətsizlik haqqında bir-iki kəlmə demək istəyirəm. Cəfər Cəfərov adlı tanınmış bir alimimiz var idi. O, Moskvada əsər müdafiə etmişdi. Mən ona ən işıqlı, ən yaxşı bir teatrşünas kimi baxırdım. Cəfər Cəfərov yoldaşı, inanın ki, barmaqla göstərirdilər. Tblisi şəhərində Zaqafqaziya teatr bayramı keçirilirdi. Moskvadan gələn yoldaşlar da burada iştirak edirdilər. O yığıncaqda qərar çıxarıldı ki, C. Cəfərovun məclisdəki çıxışı Zaqafqaziya teatr baharının qərarı kimi qəbul olunsun. C. Cəfərovu indiki gənclik yaxşı tanımır. C. Cəfərov o zaman Yazıçılar İttifaqından çıxarıldı. Niyə çıxardılar? Ona görə ki, C. Cəfərov ömrü boyu ağa-ağ, qaraya-qara deyən tənqidçi-ədəbiyyatşünas idi. Dəfələrlə onu incitdilər, müxtəlif damğalar yapışdırdılar, guya o, kosmopolitdir. O, kosmopolit ola bilərdimi? Sonra C. Cəfərov 5-6 il Mərkəzi Komitənin ideologiya üzrə katibi oldu. İstəsəydi, göstəriş verərdi, o qərar ləğv edilərdi. C. Cəfərov dedi ki, mən vəzifəmdən sui-istifadə etmək istəmirəm. Dedilər ki, ərizə yaz səni yenidən ittifaqa bərpa edək. Dedi ki, çıxardanda məndən ərizə tələb olunmamışdı. Üzümü plenumun iştirakçılarına və üzvlərinə tutub deyirəm ki, Cəfər Cəfərovun Yazıçılar İttifaqından çıxarılması qərarının ləğv edilməsi vaxtı çatıb.

*«Ədəbiyyat və incəsənət» qəzeti,*
*08 aprel 1988-ci il*

# QULAM MƏMMƏDLİ

## Sənə uğurlar olsun



Şəhərimizin qiraət salonlarından birinin əməkdaşı Qulam Məmmədlidən mənə «şikayətlənərək» deyirdi: Qulam müəllim bizimlə birlikdə salona daxil olur, birlikdə salonu tərk edir. O, qarşısındakı kitabları, qəzet və jurnal komplektlərini elə aludəliklə nəzərdən keçirir ki, salonda iş saatının bitdiyini ona deyə bilmirik.

Bu tamamilə doğrudur. Qulam Məmmədlinin həyatı, 20-30 il bundan əvvəl olduğu kimi, bu gün də kitabxanaların, arxivlərin, elmi müəssisələrin qiraət salonlarının divarları arasında keçir. Biz tez-tez onun səsini mavi ekrandan, radio dalğalarından eşidirik. Ədəbi-elmi yığıncaqlarımız onsuz keçmir. Qəzet və jurnal səhifələrində Qulam Məmmədlinin yeni tapıntılarını oxumağa adət etmişik. O, həyatının heç bir dəqiqəsini boş keçirmir, həmişə hərəkətdə, həmişə işdə-gücdə, həmişə yeni axtarışlar, kəşflər sorağındadır. Bu il onun dörd iri həcmli kitabı çapdan çıxacaqdır: Üzeyir Hacıbəyovun, Hüseyn Cavidin həyat və yaradıcılığının salnamələri, qədim dövrdən başlayaraq, bizim günlərədək arxivlərdə, əlyazmalarında, mətbuatda adları çəkilən şəxslərə dair «Sizə Kim lazımdır?» mənbələr yığnağı, Azərbaycan teatr salnaməsinin ikinci hissəsi.

Mətbuatımızın, ədəbiyyatımızın veteranı, respublikanın əməkdar mədəniyyət işçisi, hamımızın sevimlisi Q.Məm-

mədli 85 yaşının tamam olmasını belə qaynar, işgüzar şəraitdə qarşılayır.

Mən onu «qocaman» adlandırmağa cəsarət etmirəm. Çünki qocaman bu qədər işləyə bilməz. Qulam müəllim cavanlıq ehtirası ilə yaşayır, yazır, yaradır, hər gün nə iləsə bizi sevindirir.

Mən yuxarıda Qulam müəllimin bu il nəşr olunacaq kitablarının adlarını çəkdim. Onun müxtəlif zamanlarda nəşr olunmuş Mirzə Cəlil, Ərəblinski, C.Zeynalov, A.M.Şərifzadə haqqındakı salnamələri, «İmzlar» kitabı, Heyran xanım, Möcüzə və Fədainin əsərlərinin nəşri, Ş.M.Xiyabaninin həyat və yaradıcılığına dair tədqiqatı bizim stolüstü kitablarımızdır. Respublikamızın ədəbiyyatşünasları, teatrşünasları, tarixçiləri bunlarsız keçinə bilmir. Biz bu kitablara mötəbər bir mənbə kimi müraciət edərkən, Qulam müəllimi həmişə minnətdarlıq və hörmət hissilə yad edirik. Qulam müəllimin bütün ömrü ictimai həyatın burulğanında keçmişdir. O, müxtəlif illərdə «Kəndli», «Azərbaycan kolxozçusu», «Yeni yol» qəzetlərinin, «Kirpi» jurnalının redaktoru vəzifələrində çalışmışdır. O, həmişə, hər yerdə özünü partiyanın sadiq əsgəri kimi aparmışdır.

Qulam müəllimin elmi-ictimai fəaliyyəti ilə şəxsiyyəti arasında üzvi bir uyğunluq vardır. O gözəl insan, qayğıkeş dost, şirin həmsöhbətdir. Bütün bunlara görə biz onu coşğun məhəbbətlə sevirik.

Əziz qardaşım Qulam! 85 yaşın mübarək! Sürətlə irəlilədiyin yaradıcılıq yollarında sənə yeni uğurlar diləyirəm, dostum!

*«Ədəbiyyat və incəsənət» qəzeti,*
*23 aprel 1982-ci il*

# SÜLEYMAN RÜSTƏM
# ALOVLU, MÜBARİZ ŞAİR
**(İxtisarla)**



Bu məqaləni yazmağa başlarkən Süleyman Rüstəmin 55 ildir ki, hafizəmdə yaşayan aşağıdakı misraları yadıma düşdü:

Oxuyun, bir qızıl
kitabam mən,
İnqilab oğlu
inqilabam mən.
Ruhu yüksək adamların
biriyəm,
Sinfimin top-tüfəngli
şairiyəm.

Süleymanın həyat və yaradıcılıq yoluna bələd olanlar yaxşı bilirlər ki, bu misralar şairlərin tez-tez işlətdikləri quru-boş «mənəm-mənəmlik» xatirinə deyilməmişdir. Bu misralar şairin yaradıcılıq manifestidir. O, əlinə qələm aldığı ilk günlərdən bu misralardakı prinsiplərə sadiq qalmış, zamanın sosial tələblərinə səs verən poeziyası uğrunda gedən ədəbi mübarizələrdə bir addım belə geri çəkilməmiş, həmişə döyüş səngərlərinin ön atəş xəttində dayanmışdır. Odur ki, Süleyman Rüstəmin bütün yaradıcılığını qızıl kitab adlandırmaq olar. Elə bir kitab ki, səhifələdikcə poeziyamızın tarixini oxuyur, onun inkişaf və mübarizə yolları ilə üz-üzə gəlirik.

Azərbaycan müasir ədəbiyyatının inkişafı tarixində elə bir böyük və ya kiçik hadisə yoxdur ki, S. Rüstəm onda iştirak etməsin. Öz sözünü deməmiş olsun. Süleyman Azər-

baycan müasir ədəbiyyatının canlı tarixidir.

Süleyman Rüstəmin 1922-ci ilidə «Çimnaz xanım yuxudadır» pyesi Tənqid Təbliğ teatrında tamaşaya qoyulanda və ilk şeirləri «Gənc işçi» qəzetinin səhifələrində çıxanda onun 16 yaşı yenicə bitmişdi. Deməк, 80 yaşı yenicə tamam olan qocaman şairimizin təxminən 65 illik yaradıcılıq bioqrafiyası vardır. Elə bioqrafiya ki, onu Azərbaycan müasir ədəbiyyatının bioqrafiyasından ayırmaq qeyri-mümkündür.

Səməd Vurğun qələm dostu S. Rüstəmin ədəbiyyatımızın tarixindəki mövqeyini belə səciyyələndirmişdir: «Süleyman Rüstəm müasir Azərbaycan poeziyasının banisidir. Biz Azərbaycanın bütün şairləri Süleyman Rüstəm yoldaşa borcluyuq...»

Süleyman Rüstəmin yaradıcılıq aləminə qədəm basdığı 20-ci illər sovet ədəbiyyatının təşəkkül dövrü adlanır. Bu illərdə köhnəliklə yenilik arasında ölüm-dirim mübarizəsi gedirdi.

Dəmirçi Əliabbasın oğlu gənc Süleyman bu mübarizənin mərkəzində dayanan şəxslərdən biri, bəlkə də birincisi idi. O, yenilik cəbhəsinin ideologiyasına uyğun təzə-təzə şeirlər yazır, məktəblərdə, zavodlarda ədəbiyyat dərnəklərinə rəhbərlik edir, qarşıya çıxan çətinliklərdən nə qorxur, nə də çəkinirdi.

Cavan şair «Kommunist» qəzeti redaksiyasının nəzdində yaradılmış «Qızıl qələmlər» ədəbi təşkilatının döyüşkən əsgəri idi. Məhz onun səyi ilə bu təşkilat get-gedə genişləndi. Bəzi qəzalarda da şöbələri yaranıb fəaliyyət göstərməyə başladı. «Qızıl qələmlər» təşkilatı Azərbaycan sovet ədəbiyyatı tarixində öz layiqli tədqiqini gözləyən mühüm bir mərhələdir.

1927-ci ildə S. Rüstəmin «Ələmdən nəşəyə» kitabı nəşr olundu və ədəbi ictimaiyyətdə tarixi bir hadisə kimi qarşılandı.

Poeziyaya yeni gələn bu lirik qəhrəman hər şeydən əvvəl

alovlu vətəndaş idi, ana torpağın mənafeyi, zülm və əsarətdən xilas olmuş xalqın mənafeyi onun üçün hər şeydən yüksək idi. Beləliklə, «Ələmdən nəşəyə» kitabı gənc müəllifin təcrübəsizliyindən doğan bəzi bəsit cəhətlərinə baxmayaraq, ədəbiyyatımıza partiyalılıq, xəlqilik, inqilabi çevrilişin doğurduğu yeni həyatı, yeni dünyagörüşünü, yeni əxlaqi münasibətləri tərənnüm motivləri gətirdi.

20-ci illərdə Süleyman elə coşğun ilhamla yazıb-yaradırdı ki, ona bir imza kifayət etmirdi. Odur ki, şair müxtəlif mətbuat orqanlarında əsas imzası «Süleyman Rüstəmdən başqa, «Dəmirçioğlu», «D. oğlu», «R-zadə», «İynə» və s. imzalarla da şeirlər, məqalələr çap etdirirdi. Lakin imzaların müxtəlifliyinə baxmayaraq, oxucu onun dəst-xəttini tanıyır və bilirdi ki, bu təxəllüslər altında «gizlənən» müəllif mübariz şair Süleyman Rüstəmdir.

20-ci illərdə və 30-cu illərin əvvəllərində «Sənət sənət üçündür» nəzəriyyəsini müdafiə edən «bitərəf şer» tərəfdarlarının da səsləri eşidilirdi. Buna görə yaradıcılıq iqlimini korlamağa cəhd edən, ədəbiyyatımızın irəliləyişinə mane olmağa çalışan mühafizəkarlara qarşı mübarizə ədəbi həyatın təxirəsalınmaz vəzifələrindən biri idi. Bu şərəfli vəzifənin yerinə yetirilməsində S. Rüstəmin mühüm xidmətləri vardır.

Mühafizəkarlıdan əl çəkməyənlərə qarşı mübarizədə S. Rüstəm güzəşt nə olduğunu bilmirdi. Bəzən təqiblərə, dedi-qodulara məruz qalsa da, heç vaxt rəqiblərinin qabağından qaçmır, əksinə onlara, güclü zərbələr endirir, onları geri çəkilməyə, təslim olmağa məcbur edirdi.

Şeirlərinin birində Süleyman yazır:

Bütün dünya yerindən,
Məhvərindən ayrılsa.
Süleyman Rüstəmin qəlbi,
Azərbaycandan ayrılmaz.

Şairin mübarizələrlə dolu həyat və yaradıcılıq yolu göstərir ki, Süleyman bu əhdinə həmişə vəfalı bir övlad kimi əməl etmişdir. O, zamanla birgə addımlamış, müasir dövrün çağırışına uyğun poetik əsərlər yazmışdır. «Yaxşı yoldaş», «Qafurun qəlbi» poemalarını, «Gecənin romantikası», «Çapayev» və s. şeirlərini buna misal göstərmək olar. Bu poetik incilərin hər biri öz zəmanəsində rəğbətlə qarşılanmış, oxucunun ağlına, şüuruna, düşüncəsinə müsbət mənada müdaxilə etmişdir.

Böyük Vətən müharibəsinin başlandığı ilk günlərdən başqa görkəmli yazıçılarımız kimi, S. Rüstəm də qələmə sarılıb mübariz ruhlu şerlər yazır, oxucuya qələbəyə inam, düşmənə sonsuz nifrət hissləri aşılayırdı.

Müharibə illərində Süleyman yalnız arxada oturub şeir yazmaqla kifayətlənmirdi, tez-tez cəbhələrə gedir, azərbaycanlı əsgərlərlə görüşür, şeirləri və söhbətləri ilə onları döyüşlərə ruhlandırırdı.

Şairin belə görüşlərindən ikisinin şəxsən şahidi olmuşam.

1942-ci ildə Kerçdə «Döyüşən Krım» qəzetinin redaksiyasında xidmət edirdim. Redaksiyamız Tayquç adlı kənddə yerləşirdi. Mayın əvvəllərində eşitdik ki, Azərbaycandan S.Rüstəmin başçılıq etdiyi nümayəndə heyəti Leninsk stansiyasına gəlmişdir. Cəfər Cəfərovu və məni qəzetin redaktoru oraya göndərdi ki, gedib S.Rüstəmi redaksiyaya gətirək. S.Rüstəmlə cəbhə siyasi idarəsi rəisinin qazmasında görüşdük. Bakıdan gələnlərin içərisində müğənni Ələvsət Sadıqov, artist Dadaş Şaraplı, tarzən Hacı Məmmədov və başqaları vardı. Gəlişimizin məqsədini bildirdikdə rəis müavini qəti tərzdə dedi:

- Siz bilirsiniz ki, düşmən əks-hücuma keçmişdir. Vəziyyət ağırdır. Nümayəndə heyəti nə redaksiyaya, nə də hissələrə gedəcəkdir. Bu gün axşam biz onları geri göndərməliyik. Başqa cür hərəkət edə bilmərik. Biz onların həyatına

cavabdehik.

Süleyman ona etiraz edərək cavab verdi.

- Bəs siz buradakı döyüşçülərin həyatına cavabdeh deyilsiniz? Onlar necə, biz də elə. Bizim vəziyyətimizi təsəvvür edin: Bakıya qayıdıb camaata söyləsək ki, döyüşçülərlə görüşə bilmədik, bizə nə deyərlər? Mən sizdən çox xahiş edirəm ki, bizi azərbaycanlılardan ibarət hissələrdən birinə aparasınız.

Rəis müavini buna cavab verməyib qonşu qazmaya keçdi, bir neçə dəqiqədən sonra qayıdaraq bildirdi:

- Siyasi idarə sizin xahişini yerinə yetirdi. Hazırlaşın, elə indi Minarəli Şaban kəndinə gedəcəyik. Orada azərbaycanlı döyüşçülərlə görüşəcəksiniz. Nəzərə alın ki, görüş bir saatdan artıq çəkməməlidir.

... Biz də nümayəndə heyətinə qoşulub Minarəli Şabana getdik. Döyüşçülər böyük bir xəndəkdə dövrə vurub oturmuşdular. Süleyman şer söyləyir, müğənni oxuyurdu, yaxınlardan isə bombaların uğultulu partlayış sədaları eşidilirdi. Qəribə bir mənzərə yaranmışdı. Əsgərlərin simasında razılıq və sevinc hissi duyulurdu.

Şair ilə cəbhədə ikinci görüşümüz 1942-ci ilin payızında Zaqafqaziya cəbhəsində Dağıstanda oldu. Cəbhədə sakitlik idi. Süleyman «Gün o gün olsun ki...» şeirini oxuyarkən döyüşçülər də onunla birlikdə oxumağa başladılar. Məlum oldu ki, onlar bu şeiri əzbərləmişlər.

Bu günkü kimi yadımdadır, döyüşçülər «Gün o gün olsun ki, Bakını görək» misrasını ümid və həsrət dolu xüsusi tərzdə oxudular.

Süleymanın Böyük Vətən müharibəsi dövründə yazdığı əsərləri müharibə dövrü ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur. Şairin «Ana və poçtalyon», «Gün o gün olsun ki...» və s. əsərlərini azərbaycanlı döyüşçülər çantalarında gəzdirib, Berlinə qədər aparıb çıxarmışlar.

S.Rüstəm ustad şairdir. Söz, qafiyə onun əlində mum kimi yumşaq və elastikdir. O, sözü istədiyi şəklə salır, sözdən istədiyi kimi istifadə edə bilir. Onun təbi son dərəcə rəvandır, şeirlərini oxuyarkən inanırsan ki, necə deyərlər, heç bir vaxt qafiyə üçün əlini cibinə salmamışdır. Rəsul Rzanın dediyi kimi «Süleyman şəxsi hisslərlə ictimai hissləri birləşdirən, onların təzə və təravətli ifadəsini verən sözlər tapır, duyğularını özünəməxsus bir məharətlə ifadə edir.»

Ustad şair dramaturgiyada da qələmini sınamışdır. Müxtəlif illərdə yazdığı «Çimnaz xanım yuxudadır», «Yanğın», «Qana qan», «Qaçaq Nəbi», «Burda mənəm, Bağdadda kor Xəlifə» və «Durna» kimi əsərləri ilə dramaturgiyamızın tarixində özünəməxsus mövqe tutmuşdur.

Təbrizdə bəzən Süleyman Rüstəmi «Bizim şair, cənub şairi» adlandırırlar. Bu müddəa təsadüfi deyil. Süleyman istər Təbrizdə hərbi xidmətdə olduğu illərdə, istərsə də, sonralar cənub mövzusunda saysız-hesabsız əsərlər yazmış, bu əsərlərdə xalqın tükənməz dərdini və kədərini, arzu və istəklərini coşğun ilhamla, dərin ürək ağrısı ilə tərənnüm etmişdir. Cənubdan gələn məktubların birində oxuyuruq: «Ustad Süleyman Rüstəm dil öyrətdi, əlimizə qələm verdi, yol göstərdi, şer yazmağın sirlərini başa saldı. Hamımız özümüzü ona oxşatmağa çalışdıq. Sönməz də, Şeyda da, bir çoxları da özlərini ustadın şagirdi hesab edir və bununla fəxr eləyirlər».

Mən bu məktuba aşağıdakı sözləri də əlavə edərdim: Mədinə xanım da, Balaş da, Hökumə xanım da, Söhrab da özlərini Süleyman Rüstəmin şagirdi hesab edir və bununla fəxr edirlər.

S.Rüstəm yeni Cənub şeirinin banisi və bayraqdarıdır. Müasir poeziyamızda Cənub həsrətini S.Rüstəm kimi coşğun ilhamla tərənnüm edən ikinci bir şair göstərmək çətindir. Süleymanın Cənub şeirləri dərdli nəğmələrin nəğməsidir.

Süleyman Rüstəmin 80 yaşı tamam olur. Lakin heç kəs buna inana bilmir. Çünki onun şeirlərində gənclik təravəti vardır. On illər bundan əvvəl olduğu kimi, biz indi də onun yeni şeirlərini vəcdlə oxuyuruq və inanırıq ki, Azərbaycanın Süleymanı hələ uzun illər gənclik ehtirası ilə yaşayacaq, öz pərəstişkarlarını yeni-yeni poeziya inciləri ilə sevindirəcəkdir.

*«Kommunist» qəzeti,*
*16 mart 1986-ci il*

# ŞIXƏLİ QURBANOV
## Onun sözü – onun özü



Filoloji elmlər namizədi Həmid Məmmədzadə ilə birlikdə Ş.Qurbanovun üçcildliyini nəşrə hazırlarkən inandım ki, onun şəxsiyyəti ilə ədəbi yaradıcılığı arasında, sözü ilə özü arasında möhkəm mənəvi vəhdət vardır. O, bir yazıçı kimi tərənnüm etdiyi nəcib insani motivlərə özünün şəxsi həyatında, ictimai fəaliyyətində möhkəm əməl etmişdir. Məsələn, «Sənsiz...» pyesinin qəhrəmanlarından biri deyir: «Biz böyük və şərəfli yol keçmişik, ictimai həyat yolu. Bu, bizi yaşadır, bu, bizə qanad verir.»

Sanki bu sözlər müəllifin özü haqqında deyilmişdir. Onun da həyat yolu ictimai həyat yoludur. O, ictimai həyatın burulğanında bərkimiş, qaynar qazanında bişmişdir. Bütün addımlarında onu qanadlandıran, ona ilham verən ictimai həyat, ictimai ideal olmuşdur. Lakin heç bir vaxt onun başını sığallamamışdır. Həyatın keşməkeşli yollarında qarşıya çıxan təbii çətinliklərə cəsarətlə sinə gərmiş, həyatda nə etmişsə öz əməyi, öz istedadı ilə etmişdir.

Mən hər dəfə Fəxri xiyabana gedəndə Nəriman Nərimanovun 1916-cı ildə yazdığı aşağıdakı sözlər yadıma düşür: «İnsan var ki, ölər, yox olar və onun yoxluğunu ancaq yaxın əqrəbası hiss edər. İnsan var ki, ölər və onun yoxluğu bütün milləti heyfsləndirər.»

Bəli, elədir. Şəxsi səadətini xalqının səadətinə tabe edən

və lazım gələrsə, öz səadətini vətəndaşlarının səadətinə qurban verməyə hazır olan adamların ölümü, xüsusən vaxtsız ölümü ümumxalq kədəri doğurur, xalq onları sonsuz məhəbbətlə sevir, əzizləyir və heç bir vaxt unutmur.

Bir il əvvəl vaxtsız itrdiyimiz Şıxəli Qurbanov Azərbaycan xalqının belə unudulmaz oğullarından biridir. Onun həyat yolu uzun sürməsə də, şərəfli və zəngindir. 1942-ci ildə orta məktəbi bitirəndə Şıxəlinin 17 yaşı yenicə tamam olmuşdu, hərbi xidmətə çağırış vaxtına hələ iki il var idi. Deməк, təhsilini davam etdirə bilərdi. Lakin o, ali məktəbə yox, öz könlü ilə ordu sıralarına gedib Böyük Vətən müharibəsi cəbhələrində döyüşlərdə iştirak etdi, yalnız Vətən qarşısındakı borcunu yerinə yetirdikdən sonra dinc əmək cəbhəsinə qayıtdı, V.İ. Lenin adına Azərbaycan Pedaqoji İstitutunun filoloji fakültəsini bitirib aspiranturaya daxil oldu. 1956-cı ildə filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün «Puşkin və Azərbaycan poeziyası» mövzusunda dissertasiya müdafiə etdi.

Şıxəli Qurbanov 1946-cı ildən üzvü olduğu Kommunist Partiyasının sadiq əsgəri idi. 1953-cü ildən 1961-ci ilədək o, partiya orqanlarında rəhbər işlərdə çalışıb özünü istedadlı təşkilatçı, marksizm-leninizm ideyalarının yorulmaz təbliğatçısı kimi göstərdi.

1961-ci ildə Şıxəli Qurbanov elmi işə keçərək respublika Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunda beş il ədəbi əlaqələr şöbəsinə başçılıq etdi və həmin illərdə özünün «XIX əsrdə Azərbaycan – rus ədəbi əlaqələrinin inkişaf mərhələləri» adlı sanballı monoqrafiyasını yazdı ki, bu qiymətli elmi əsərinə görə ona filoloji elmlər doktoru alimlik dərəcəsi verildi.

1966-cı ilin fevral ayında Şıxəli Qurbanov təkrar rəhbər partiya işinə qayıdıb Azərbaycan KP MK katibi seçildi. Ş. Qurbanovun yüksək təşkilatçılıq istedadı bu vəzifədə çalış-

dığı qısa müddətdə özünü xüsusilə göstərdi. O, respublikanın partiya təşkilatında və bütün zəhmətkeşləri arasında böyük hörmət və etibar qazandı. Lakin çox keçmədi – 1967-ci ilin mayın 24-də onun alovlu ürəyi qəflətən dayandı.

Şıxəli Qurbanovu bir insan, bir vətəndaş kimi səciyyələndirmək üçün gəlin, yenə də onun qəhrəmanlarından birini dinləyək: «Həyat çox mürəkkəb şeydir. Bəzən çətin olur, bəzən asan. Adamın gülən vaxtı da olur, ağlayan vaxtı da. Həyatda hər şeyi asanlıqla əldə etmək mümkün olsaydı, yaşamaq maraqsız olardı. Bir də ki, insan tək deyil. Bir dəfə özün üçün sevinəndə, on dəfə də başqaları üçün sevinirsən, bir dəfə özün qəmgin olanda, on dəfə də başqaları ilə birlikdə qəmlənirsən.»

Bu sözlər yalnız başqalarına nəsihət üçün deyilməmişdir. Bunları müəllif özünün həyat məcəlləsindən götürmüşdür. Onunla bir yerdə işləyənlər, onu yaxından tanıyanlar bilirlər ki, Şıxəli Qurbanov heç bir vaxt tək özü üçün yaşamamışdır. Həmişə başqalarının kədərinə və sevincinə şərik olmuş, başqalarının həyat yolunda irəliləməsinə kömək etmiş, neçələrini əlindən tutub ayağa qaldırmış, ictimai fəaliyyəti və bədii yaradıcılığı ilə insan ürəklərinin dərin guşələrinə işıq salmışdır. O, bütün ömrü boyu vətəndaşlıq borcunu müqəddəs tutmuş, bu yüksək hiss həmişə onun ruhunua, varlığına hakim kəsilmiş, ictimai fəaliyyətinə, bədii və elmi yaradıcılığına istiqamət vermişdir.

Bu xüsusiyyət Ş. Qurbanovun ədəbi əsərlərinin də leytmotivini təşkil edir. Tənqidlərində də, vəsflərində də o, ancaq bir məqsədi – oxuculara yüksək vətəndaşlıq keyfiyyətləri aşılamaq məqsədini güdmüşdür.

Şıxəli Qurbanov bədii yaradıcılığa hələ məktəbli ikən həvəs göstərmişdir. Sonralar adi həvəs professional vərdişə çevrilmiş, onun qələmi getdikcə cilalalanıb püxtələşmiş və

yalnız özü buna inandıqdan sonra əsərlərini mətbuata və teatrlara vermişdir. Əlbəttə, onun yaradıcılığı asfalt döşənmiş hamar yolu ilə inkişaf etməməişdir. Qələmini şerdə sınayan cavan oğlan sonralar bədii yaradıcılığın başqa sahələrinə də əl atmış və axırda özünü dram janrında tapmışdır. Onun pyesləri, librettoları səhnə üzü görmüş, tamaşaçılar tərəfindən qızğın rəğbətlə qarşılanmış və nəhayət, bədii yaradıcılıq aləmində mövqeyini onsuz tamaşa etdiyimiz «Sənsiz...» pyesi ilə möhkəmləndirmişdir.

Madam ki, belədir, onda müəllifin «Sənsiz...» pyesi haqqında bir neçə kəlmə danışmaq lazımdır. Şəxsiyyətə pərəstişin hökm sürdüyü illərdə baş vermiş bəzi haqsızlıqların real bədii təcəssümü olan «Sənsiz...»i faciə adlandıranlar bizcə yanılmırlar. Buradakı insani münasibətlər həqiqətən faciəvi münaqişələr üzərində qurulmuşdur. Hələ bu az imiş, «Sənsiz...»in özünün də, müəllifininin də səhnəyə gəlişinin də taleyi faciəli oldu.

Biz «Sənsiz...»i müəllifin özü ilə birlikdə səhnədə görməyə hazırlaşırdıq. Lakin iş elə gətirdi, pyesi müəllifin vəfatından bir neçə gün sonra səhnədə gördük və onu gurultulu alqışlarla qarşıladıq. Beləliklə, «Sənsiz...» tamaşaçıların kədəri ilə sevincini birləşdirdi.

Bəlkə biz müəllifin faciəli ölümündən sarsılıb kövrəldiyimiz, riqqətə qapıldığımız üçün «Sənsiz...»in tamaşasını sürəkli alqışlarla müşayiət edirik? Bəlkə bu əsər müəllifin son sözü, son nəğməsi olduğu üçün onu bu qədər sevirik? Əlbəttə, bunlarsız deyildir. Lakin «Sənsiz...» bunlarsız da rəğbətlə qarşılanacaqdı. Çünki «Sənsiz...» mövzusunun cəsarətlə işlənməsi, dərin müasirlik ruhu, bədii təfəkkür pafosu, tamaşaçıya dediyi sözün qüdsiyyəti və özünün dramatik quruluşu etibarı ilə ədəbiyyatımızda yeni hadisə idi. Ədəbi yaradıcılıq aləmində hər hansı bir yenilik, novatorluq isə həmişə oxucunu və tamaşaçını ürəkdən sevindirmişdir.

Müəllifin üçcildliyinə daxil edilmiş elmi irsi göstərir ki, ədəbiyyatşünaslığımızın inkişafında da Şıxəli Qurbanovun böyük xidmətləri vardır. O, 15 ildən artıq Azərbaycan-rus ədəbi əlaqələrinin öyrənilməsi işində yorulmadan tədqiqat aparıb üç monoqrafiya – Azərbaycan dilində «Puşkin və Azərbaycan poeziyası» (1956-cı il), rus dilində «A.S. Puşkin və Azərbaycan» (1959-cu il), «Azərbaycan – rus ədəbi əlaqələrinin inkişaf mərhələləri» (1964-cü il) əsərlərini nəşr etdirmişdir. «XIX əsrdə Azərbaycan – rus ədəbi əlaqələrinin inkişaf mərhələləri» monoqrafiyası isə müəllifin uzun illər boyu bu sahədə apardığı gərgin elmi tədqiqatın yekunudur. Monoqrafiyanı oxuyarkən müəllifin işgüzarlığına, tədqiqat və axtarış aparmaq bacarığına heyran qalır və inanırsan ki, o, bu əsəri yazmaq üçün Bakıda və Tblisidə, Moskvada və Leninqradda qapısını döymədiyi kitabxana, görmədiyi arxiv qoymamışdır. Əsərin elmi məziyyətinə gəldikdə elə bunu demək kifayətdir ki, müəllif özündən əvvəl açılmış çığırlarla getməmişdir. Özünün və özgələrinin tədqiqatını saf çürük edib, yeni nəticələrə gəlmiş, yeni hökmlər, yeni müddəalar irəli sürüb. Onları müvafiq elmi dəlillərlə əsaslandırmış, Azərbaycan – rus ədəbi əlaqələrinin, demək olar ki, bir əsrlik tarixini yaratmışdır. Filologiyamızın monumental əsərlərindən olan bu monoqrafiya hələ əlyazması halında Moskva ədəbiyyatşünaslarının da diqqətini cəlb etmişdir. Şıxəli Qurbanov haqqında bir alim kimi danışarkən ədalətlə demək lazımdır ki, Azərbaycan – rus ədəbi əlaqələrinin elmi əsaslarla öyrənilməsində birinci yer hələ ona məxsusdur.

Şıxəli Qurbanov bir yazıçı, bir alim kimi sözünü axıradək deyə bilməmiş, sinəsi dolu getmişdir. Bununla belə onun irsi zəngin və rəngarəngdir. Müəllifin ədəbi və elmi əsərləri 60 çap vərəqindən ibarət üçcildlikdə toplanmışdır. Birinci cildə pyeslər, librettolar, hekayələr və şerlər, ikinci cildə «XIX əsrdə Azərbaycan – rus ədəbi əlaqələrinin inki-

şaf mərhələləri» monoqrafiyası: üçüncü cildə «Puşkin və Azərbaycan poeziyası» elmi əsəri və ədəbi tənqidi məqalələri daxil edilmişdir. Birinci cild çapdan çıxmış, ikinci və üçüncü cildlər ilin axırınadək nəşr ediləcəkdir. Heç şübhəsiz ki, hamı bu əsərləri sevə-sevə oxuyacaq,onların müəllifini dərin ehtiram, məhəbbət və minnətdarlıq hissi ilə yad edəcəkdir.

Müasir dünyamızın polad iradəli adamlarından biri olmuş şair Musa Cəlil ölüm ayağında demişdir: «Sağlığında elə yaşa ki, öləndən sonra ölmə». Bəli sağlığında həqiqi vətəndaş kimi yaşayanlar öləndən sonra ölmürlər. Şıxəli Qurbanov həyatını əsl vətəndaş kimi başa vurduğu üçün öləndən sonra ölməmişdir. Biz onun əsərlərini oxuyarkən, pyeslərinə tamaşa edərkən unudulmaz dostumuzun ılıq nəfəsini duyur, xoş səsini eşidirik. Onun nəcib obrazı xəyalımızda yaşayır, həyat yollarında bizimlə yanaşı addımlayır, bizi yaxşı vətəndaş olmağa ruhlandırır.

*«Kommunist» qəzeti,*
*24 may 1968-ci il*

# MİRZƏ İBRAHİMOV
## Pərvanə kimi



Mirzə İbrahimov son romanını «Pərvanə» adlandırmışdır. Halbuki, əsərdə Pərvanə adlı surət yoxdur. Bu, romanın rəmzi adıdır. Pərvanə – xalq işi, xalq səadəti uğrunda özünü oda-közə vuran müsbət qəhrəmanların ümumiləşdirilmiş rəmzi surətidir. Məncə, bu ad sevimli xalq yazıçımızın özünə də yaraşır. 40 ildən artıqdır ki, M.İbrahimov görkəmli söz ustadı, ədəbi inkişafımızın yorulmaz təşkilatçısıdır.

Pərvanə şamın vurğunu olduğu kimi, Mirzə İbrahimov da Odlar yurdunun, anamız Azərbaycanın, Azərbaycan xalqının vurğunudur. 40 ildən artıqdır ki, onun bir günü, bir saatı belə xalqsız keçməmişdir. Xalqın səadəti, tərəqqisi, dünəni, bu günü, sabahı yazıçı Mirzə İbrahimovun yaradıcılığının, dövlət xadimi M.İbrahimovun ictimai-siyasi fəaliyyətninin məna və məzmununu təşkil edir. Bu illərdə xalqımızın mədəni inkişafında, ictimai-siyasi həyatında elə bir böyük və ya kiçik hadisə olmamışdır ki, biz Mirzəni onun mərkəzində görməyək. Mirzənin tərcümeyi-halı xalqın tərcümeyi-halı ilə elə qaynayıb qarışmışdır ki, onları bir-birindən ayırd etmək qeyri-mümkündür.

Mirzə İbrahimov uşaqlığında nə əməlli-başlı ata-ana nəvazişi görmüş, nə də həyat onun başını sığallamışdır. Lap kiçik yaşlarında ata-anasını itirən Mirzə gündəlik ruzisini öz əlinin əməyi ilə qazanmalı olmuşdur. Həyatın enişli-yoxuşlu yollarında onun əlindən tutanı olmamışdır. Mirzə

öz əməyi, çalışqanlığı və istedadı ilə həyatda özünə yol açmışdır. Bu gün 60 yaşlı Mirzə İbrahimovun nəyi vardısa-bədii və elmi əsərləri, adı, şöhrəti, yüksək mükafatları – bunların hamısını öz fədakar əməyi ilə qazanmışdır.

M.İbrahimovu bir yazıçı kimi səciyyələndirən başlıca xüsusiyyət nədir? Hər şeydən əvvəl, müasirlik. Mirzə öz əsrinin oğludur. Müasirlik onun yaradıcılığının canını, qanını və iliyini təşkil edir. Biz onun hər bir yeni əsərindən zamanın səsini eşitmişik. Onun ilk sambalh əsəri «Həyat» pyesini götürək. Əsərin yazıldığı 30-cu illər Azərbaycan kəndi üçün həm şərəfli, həm də mürəkkəb bir dövr idi. Bu dövr ona görə şərəfli idi ki, kolxoz quruluşu artıq qələbə çalmış, kolxoz quruluşunun ilk dövrü üçün səciyyəvi olan çətinliklər artıq arxada qalmışdı. Kolxozun sovet kəndi üçün yeganə düzgün yol olduğu artıq göz qabağında idi. Bu dövr ona görə mürəkkəb dövr idi ki, yeni kəndin hələ də həyat sahəsindən çəkilməyən düşmənləri kolxoza qarşı gizli mübarizə aparırdılar. Vaxtilə kolxozun ilk yaradıcıları ilə üz-üzə vuruşan hacı əhmədlərin yerini indi hiyləgər süleymanlar tutmuşdular. İndi onlar simalarını gizlədir, özlərini «dost» kimi aparır, kolxozla üz-üzə yox, əlaltı vuruşurdular. Yeri gəldikcə gizli olaraq xalq əmlakını yandırır, küncdə-bucaqda dayanıb sui-qəsdlərə belə əl atırdılar. Onları görmək, onları yaxalamaq o qədər də asan deyildi.

«Həyat» 30-cu illər Azərbaycan kəndinin ictimai həyatının bir parçasıdır. Pyesin əsasını o zamankı kəndlərimizdə baş vermiş real hadisələr təşkil etsə də, bu hadisələr yazıçının yaradıcılıq süzgəcindən keçirilib o zamankı Azərbaycan kəndinin ümumiləşdirilmiş obrazına çevrilmişdi. O zaman «Həyat» çoxları üçün həyat dərsi oldu, çoxlarının gözünü açdı. İndi 30-cu illərin ədəbiyyat tarixini yazan alimlərimiz «Həyat» pyesini o dövrün ən aktual dram əsərlərindən biri, sərt illərin tarixi-bədii sənədi kimi qiymətləndirirlər.

Mirzə İbrahimov həyatın nəbzini tuta bilən, onun inkişa-

fı ilə birgə addımlayan sənətkarlardandır. Onun 1957-ci ildə Azərbaycan kəndinə həsr etdiyi «Böyük dayaq» romanında rəsm edilən mənzərə isə tam başqa mənzərədir. Əsərin baş qəhrəmanı xalq, baş mövzusu isə kolxoz kəndinin əmək romantikasının poetik təsviridir. İndi kolxozda nə İmamyar, nə də Süleyman vardır. Həyatın burulğanı onları çoxdan məhv etmişdir. İndi kolxoz kəndinin irəliləyişinə mane olan tam başqa əngəllər meydana çıxmışdır: vaxtı ilə kolxozun inkişafı üçün əlindən gələni əsirgəməyən və bu sahədə az xidmətləri olmayan Rüstəm kişilər indi «mənəmlik» azarına tutulmuşdur. Onları Yastı Salman, Yarməmməd və Lal Hüseyn kimi yaltaqlar əhatə etmişdir. Beləliklə, 50-ci illər kolxozunun özünəməxsus çətinlikləri yaranmışdır. Fitrətən düzgün, mənəvi cəhətdən saf bir kolxoz başçısı olan Rüstəm kişi özünəgüvənmə, lovğalıq nəticəsində yanlış yola düşmüşdür. Ona belə gəlir ki, «Bizim zəmanəmizdə planları yerinə yetirdin, papağını çəp qoy, gəz, neyləsən söz deyən olmayacaqdır». Göründüyü kimi, Rüstəm kişi kolxozun vəzifəsini yanlış başa düşür, istər-istəməz canından artıq sevdiyi kolxoz təsərrüfatının inkişafında bir növ əngələ çevrilir. Çünki «mənəmlik» xəstəliyi onu xalqdan uzaqlaşdırmışdır. Nəticədə kollektivlə şəxsiyyət arasında ziddiyyət yaranmışdır. Müəllif bu ziddiyyətin psixoloji köklərini açaraq qəhrəmanlarının birinin dili ilə deyir: «Kim ki, camaata xor baxır, elə bil öz əlləri ilə gözlərini bağlayır, öz şamını söndürür...».

Cəsarətlə demək olar ki, «Həyat» pyesinin 30-cu illərdə Azərbaycan kəndində oynadığı ictimai-tərbiyəvi rolu «Böyük dayaq» romanı 50-ci illərdə oynamışdır.

Mirzə İbrahimovun bədii yaradıcılığında cənub mövzusu son dərəcə geniş, son dərəcə mühüm yer tutur. O, Cənubu ən yaxından tanıyan, Cənub dərdini, Cənub həsrətini dərindən yaşayan və bu dərdi, həsrəti ürək ağrısı ilə əks etdirən qüdrətli sənətkarlarımızdandır. Biz Mirzənin Cənuba

həsr etdiyi əsərləri oxuyarkən faciəli mənzərələrlə qarşılaşır, içimizdə dərin hüzn, kədər oyanır. Ədibin Cənub mövzusunda qələmə aldığı əsərləri xatirimizdə canlandıraq: «Gələcək gün», «Güləbətin», «Fırtına quşu», «Azad», «12 Dekabr» «Tonqal başında», «İztirabın sonu»... Bu əsərlər ürəyi alışıb yanan bir vənətdaşın qələmindən çıxmışdır. Lakin o, yansa da nə özü ruhdan düşür, nə də bizi ruhdan salır. Biz dərin etiqadla inanırıq ki, çəkilən iztirablar, verilən qurbanlar hədər getməmişdir. Müəllif özü də inanır, bizi də inandırır ki, Firudun məhv olsa da gec-tez əmək istisamarın, azadlıq istibdadın üzərində qələbə çalacaq, nəhayət, o şanlı gün – qəhrəman oğullarımızın uğrunda canlarını qurban verdiyi həmin o gün gələcəkdir, mütləq, mütləq gələcəkdir!

Mirzənin Cənub əsərlərinin fəciəli sonluqla bitməsi təsadüfi deyildir. 1920-ci ildə İran Azərbaycanında şah üsulidarəsinin devirib «Azadistan» quran Şeyx Məhəmməd Xiyabani deyirdi ki, «azadlıq ağaclarının bəhrə verməsi üçün onları cavanların qanı ilə suvarmaq lazımdır». 1909-cu ildə Səttar xan hərəkatı zamanı şah qoşunlarına qarşı döyüş səngərində 21 yaşında həlak olan inqilab qəhrəmanı Səid Səlmasi yazmışdır ki:

Fədayi-məsləkim olmuş həyati-istiqbal
Hicari-can edən olmazsa olmaz istikmal...

Adını unutduğum məşhur şəxsiyyətlərdən biri demişdir ki, irəliyə doğru inamla hərəkət etmək üçün adamın bir addımı keçmişdə, o biri addımı gələcəkdə olmalıdır. Keçmişinə arxalanmayan xalqın işıqlı gələcəyi ola bilməz. Bizim Mirzə bu həqiqəti duyduğu üçündür ki, yaradıcılığında xalqımızın keçmişini də unutmur. Onun yeni əsəri– «Pərvanə» romanında xalqımızın keçdiyi tarixin bütöv bir mərhələsi əks edilmişdir. Akademik Məmməd Arifin dediyi kimi: «Pərvanə» romanı Azərbaycan xalqının tarixində «dönüş nöqtələrindən olan bir dövrün ictimai mənzərələrini geniş

lövhədə əks etdirir. Gözümüzün qabağında siniflər, təbəqələr müxtəlif siyasi-ictimai görüşlü adamlar, ziddiyyətli zövqlər, ehtiraslar gəlib keçir, irtica ilə tərəqqi üz-üzə dayanır».

Həmin sözlərə bunu da əlavə etmək lazmdır ki, bütün bunları müəllif bu günün gözü ilə görmüş, müasirlik cəbhəsindən mənalandırmışdır.

Mirzə İbrahimovun yaradıcılıq üfüqlərində milli məhdudiyyət və coğrafi sərhəd yoxdur. Humanist ədibimizin bütün zəhmətkeş insanların taleyi maraqlandırır. Müəllifin 30-cu illərdə qələmə aldığı «Madrid» dramı buna misal göstərilə bilər. Bu dramda azadlıqsevər ispan xalnının faşizmə qarşı qəhrəmancasına apardığı cahanşümul tarixi mübarizə əlvan boyalarla rəsm edilmişdir. Dramın qəhrəmanlarından biri deyir: «Mənim idealım yalnız ispan xalqının azadlığı uğrunda deyil, bütün bəşəriyyəti azadlığı uğrunda mübarizə aparmaqdır». Göründüyü kimi, burada vətənpərvərlik ilə beynəlmiləlçilik bir nöqtədə birləşmişdir və bu, təsadüfi deyildir. Vətənpərvərlik ilə beynəlmiləlçiliyin vəhdəti M.İbrahimov yaradıcılığının başlıca xüsusiyyətlərindən biridir.

Mirzə İbrahimov həm də görkəmli ədəbiyyatşünas, gözəl tədqiqatçı alimdir. O, 40 ildən artıqdır ki, müasir və klassik ədəbi irsimizi yorulmadan tədqiq edir. Onun Cəlil Məmmədquluzadə haqqında otuz beş il əvvəl yazdığı «Böyük demokrat» kitabı mahir satira ustadının yaradıcılığına həsr edilmiş elmi-tədqiqat əsəri kimi bu gün də qiymətlidir. Mirzənin «Azərbaycan dili» kitabı dilimizin tarixi taleyinə dair yazılmış ən yaxşı kitabdır. Yazıçı M.İbrahimov ilə alim M. İbrahimov həmişə yanaşı işləyir və heç bir vaxt bir-birinə mane olmurlar.

Məlumdur ki, Sovet hakimiyyəti illərində Azərbaycan dili bir əsrlik, bəlkə daha çox inkişaf yolu keçmişdir. Azərbaycan ədəbi dilinin inkişafında, onun büllurlaşmasında ən çox xidmətləri olan görkəmli yazıçılarımızdan biri, Mirzə İbrahimovdur. Azərbaycan ədəbi dilinin zənginləşməsi yol-

larında Səməd Vurğunun poeziyada, Cəfər Cabbarlının dramaturgiyada gördüyü işi nəsrdə Mirzə İbrahimov görmüşdür.

İfrat məhəlliçilik, neologizm pərdəsi altında saxta uydurmaçılıq Mirzənin bədii dili üçün tamamilə yaddır. Mirzə İbrahimovun saf və səlis dili bu günkü ədəbi dilimizin ən yaxşı nümunəsidir.

Görkəmli söz ustadımız bədii tərcümə sahəsində də fəaliyyət göstərir. Dünya dramaturqlarının padşahı Şeksprin, «Kral Lir», «12-ci gecə», Çexovun «Üç bacı» pyeslərinin qəhrəmanları Mirzənin tərcüməsi ilə səhnəmizdə Azərbaycan dilində danışmışlar. Çernışevski ilə ürəklərini Azərbaycan oxucularına açmışlar.

Mirzə İbrahimov həm də görkəmli ictimai dövlət xadimidir. O uzun illər boyu daşıdığı məsul dövlət vəzifələrini bədii yaradıcılıqla məharətlə uzlaşdıra bilmiş, yüksək dövlət vəzifləri heç bir vaxt onun yazıçılığına mane olmamışdır.

Mirzə İbrahimovun görkəmli yazıçı və tanınmış dövlət xadimi kimi şöhrəti Azərbaycan sərhədlərini aşaraq Sovet İttifaqının bütün qardaş respublikalarına və dünyanın bir sıra ölkələrinə də yayılmışdır. Onun əsərləri qardaş sovet xalqlarının və dünyanın bir çox xalqlarının dillərinə tərcümə edilmişdir.

Dünyada sülh və əmin-amanlıq uğrunda mübarizə aparan görkəmli mədəniyyət xadimlərinin sırasında bizim Mirzənin də fəxri yeri vardır. Son illərdə biz Avropa, Asiya və Afrika ölkələrində keçirilən sülhü müdafiə konqreslərində Mirzənin səsini eşitməyə adət etmişik. Dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq konqreslərdə Mirzə xalqımızı ləyaqətlə təmsil edir.

*ADU-nun Elmi əsərləri,*
*Dil və ədəbiyyat seriyası*
*1972, № 1, s.3-5*

# NƏBİ XƏZRİ
## Şairin nəcib duyğuları
### (N.Babayevin «Avropa xatirələri» şeirləri haqqında)



*Könül ayrılmayır öz baharından,*
*İlham baharından, söz baharından.*
*Deyirəm Vətənin bircə qış günü,*
*Yaxşıdır qürbətin yüz baharından.*

Şair Nəbi Babayevin öz «Avropa xatirələri» şeirlərini bu rübai ilə başlaması təsadüfi deyildir. Belçikanın paytaxtı Brüsseldə yazılmış bu səmimi misraların ruhu onun «Avropa xatirələri» başlığı altında «Kommunist» qəzeti səhifələrində dərc etdirdiyi şeirlərin canını, qanına iliyinə işləmişdir. Bu şeirləri oxuduqca biz, hər şeydən əvvəl ürəyi vətən eşqi ilə döyünən Azərbaycan vətəndaşını, həssas bir Azərbaycan şairini görürük.

Bir-birini əvəz edən qədim ölkələr, əzəmətli şəhərlər, ucsuz-bucaqsız dənizlər, keçilməz meşələr onun gözünü qamaşdırmır. Şair harada olursa-olsun, bir dəqiqə belə ana yurdunu unutmur, onun həsrəti ilə yaşayır. O, Romada qolu-budaqlı çinar görüncə bir anlığa qəribliyini yaddan çıxarır. Çünki bu zaman onun gözü qarşısında sevimili Azərbaycan torpağının qocaman çinarları canlanır... Parisdə Senanı seyr edərkən qeyri-ixtiyari olaraq Kürü və Arazı xatırlayır...Adriatik dənizindən keçəndə doğma Xəzər yadına düşür. Bu vaxt onun şair qəlbi riqqətə gəlir. Çünki

Başqadır mənası ana diyarın!
Əsdi göy Xəzərdən yel narın-narın.
Sahildən ucalan qayalıqların
Daşına baş qoyub ölərəm – dedim!

Ana Vətəndən çox-çox uzaqlarda, Avropanın dəbdəbəli şəhərlərində Vətən həsrəti ilə yazılmış bu gözəl şeirləri oxuduqca biz ana yurda, ana diyara daha da dərindən bağlanır, Azərbaycan torpağında doğulduğumuz üçün fəxr edirik. Demək, şair ürəyimizdə nəcib hisslər doğurur, qəlbimizin dərinliklərində kök salmış Vətən sevgisini cuşa gətirir. Bizcə «Avropa xatirələri»nin müvəffəqiyyətinə səbəb olan birinci cəhət budur.

«Avropa xatirələri»ni sevdirən ikinci cəhət isə budur ki, müəllif kapital hökmranlığının xarici bəzəkləri, saxta pafosu fonunda burjuaziya həyatının doğurduğu faciələri görə bilmiş, oxucunun hissinə, duyğusuna təsir edən poetik lövhələr yaratmışdır. «Xoş xatirələr xiyabanı», «Gül satan qız» və bəzi başqa şeirləri buna misal göstərilə bilər. Bu parçaları oxuyarkən «Gözlərindən ürəyinə yaş axan» gül satan qızcığazın, əri namərd bir güllənin qurbanı olub erkən dul qalan, «Canında ölümün nəfəsini duyan» zavalı, gənc qadının, namusunu sərxoş yanginin hədələdiyi məsum bir qızın, oğlu al bayraqla nümayişə çıxdığı üçün xaincəsinə edam edilən bədbəxt bir qocanın xatirəsi əsəblərimizi sarsıdır, «Yalnız buludlar və küləklərin azad olduğu» kapital ölkələrində olmazın zülm və işgəncələrə məruz qalan sadə insanların uğursuz taleyinə acıyırıq.

Nəhayət, «Avropa xatirələri»nin müvəffəqiyyətini təmin edən cəhətlərdən biri də bu şeirlərdə hakim olan kəskin müasirlik ruhudur. Müəllif, «Qoy rahat uyusun», «Tək qollu çalğıçı» və başqa şeirlərində bütün mütərəqqi bəşəriyyətin müqəddəs arzusu olan sülhə çağırır. Keçən müharibənin tö-

rətdiyi dəhşətlərin nəticələrini gözləri ilə görən şairin lirikası birdən-birə sərtləşir. Ona görə ki:

Hələ ölməmişdir canilər tamam,
Onlar da bu qədim torpaqda durur.
Nə səhər dincəlir, nə də ki, axşam,
Neçə min tüfənglər ayaqda durur.

Bu xəbərdarlıqdan sonra o, insanarı ayıq olmağa, müharibə dəhşətlərinin təkrarına yol verməməyə çağırır.

Gəlin, biz And içək, gəlin And içək,
Qoy yaşıl düzlərə od saçılmasın.
Dünən o əsgərə açılan tüfəng,
Nə sənə, nə mənə qoy açılmasın.

«Avropa xatirələri» yüksək şeiriyyətlə yazılmış parçalardır. Onlar ritorikadan, artıq ifadələrdən, mənasız «mənəm-mənəmlərdən» uzaqdır. Müəllif toxunduğu mövzuları özünə aid təfəkkür yolu ilə həll etmiş, hadisələrə Azərbaycan vətəndaşı gözü ilə baxmış, onları vətənpərvərlik nöqteyi-nəzərindən mənalandırmışdır. Buna görə də «Avropa xatirələri» Vətənin sözü, zamanın səsi kimi təsir bağışlayır.

«Avropa xatirələri» bir daha göstərir ki, Nəbi Babayev öz yolu, öz səsi, öz nəfəsi olan orijinal bir şairdir. Bu şeirlər yalnız onun yaradıcılığında deyil, ümumiyyətlə poeziyamızda fərəhli bir hadisədir.

*«Bakı» axşamı qəzeti,*
*15 fevral 1958-ci il*

# NƏBİ XƏZRİ
## Poetik təfəkkürün aydınlığı

Xalq şairi Nəbi Xəzri doğulduğu, ərsəyə çatdığı torpaqla, doğma xalqla qırılmaz tellərlə bağlı olan görkəmli bir söz ustasıdır. Onun səsi narahat dünyamızın müxtəlif qitələrindən, Şərqin və Qərbin, hətta uzaq Amerikanın ayrı-ayrı ölkələrindən gəlsə də, bu səs yalnız doğma Vətəndə, anamız Azərbaycanda, Muğan və Milin ilğımlı düzənlərində, Göy gölün füsunkar ləpələrində,, Şuşanın dilbər dolaylarında, Dəli Kürün və Xan Arazın çinarlı sahillərində, şıltaq, çılğın təbiətli Xəzərin mavi sularında qərar tapır, qüvvə toplayır, yenidən pərvazlanaraq poeziyanın əngin və yüksək fəzalarında uçur:

Könül ayrılmayır öz baharından,
İlham baharından, söz baharından.
Deyirəm Vətənin bircə qış günü,
Yaxşıdır qürbətin yüz baharından...

Bu şah misralar Nəbi Xəzrinin bütün poetik yaradıcılığına epiqraf sayıla biləcək digər bir bəndlə də doğma səslənir:

Başqadır mənası ana diyarın!
Əsdi göy Xəzərdən yel narın-narın.
Sahildən ucalan qayalıqların
Daşına baş qoyub ölərəm – dedim!

Qədim yunan əfsanəsindəki Antey kimi əsl sənətkar, həqiqi hünərvər şair də gücünü yerdən almalıdır:

Sənət bir hünərdir, bəli bir hünər,
Ayağın qoy alsın gücünü yerdən.

Axsaya-axsaya şerə gələnlər
Yıxıla-yıxıla gedər şeirdən.

Bəli, yüksək, ali dövlət, mükafatlarını öz istedadı, hünəri və qabiliyyəti ilə alan Nəbi Xəzri doğma yurdu Azərbaycanda, Sovetlər ölkəsində, habelə onun hüdudlarından çox-çox uzaqlarda sevilən, mütaliə edilən bənzərsiz sənətkarlanrdandır.

Vətən sevgisi, Vətən məhəbbəti, insan və onun daşda, qranitdə çiçək açan əmək hünəri, sevən ürəklərin fərəh və nisgilli döyüntüləri həyat və mübarizə eşqi onun ilhamının qüvvət və enerji mənbəyidir. Şair öz məhəbbətində bütövdür, ardıcıldır, səmimidir, qaynardır, hətta bir növ qısqancdır:

Yarımçıq sevməyi sevməyir sənət,
İlk sözü, son sözü səmimiyyətdir.
İlhama xəyanət, sözə xəyanət
Bəlkə də ən böyük bir xəyanətdir.

Bəli, ilhama, şeirə xəyanəti ən böyük xəyanət adlandıran şairin şer-sənət ümmanına, poetik dünyasına nəzər salarkən inanırsan ki, şer onun həyatı, ömrü, varlığı, mənəvi aləmidir. 45 ilə yaxın şer dünyasında külüng çalan şairin yaratdıqlarının hamısı ürək qanı və könül çırpıntılarından mayalanmışdır. Bu ülfət və ünsiyyətin nəticəsidir ki, şairin məhəbbətə həsr olunmuş şerlərində insanın bu əzəli və əbədi hisslərinə yeni, müasir bir baxış hakimdir; bu eşq, bu məhəbbət məğrur və təmənnasızdır:

Öz məğrur eşqimdə təmənnasızam.
Bir damla istəsəm,
Bir ümman istə...
Mən ki, bir dünyalıq baharam, yazam,
Bircə gül istəsəm,

Gülüstan istə.
Mənə ulduz boyda işıq ver desəm,
Sən məndən günəşli
Asiman istə.

Haçan bir saatlıq görüş istəsəm,
Sən bütün ömrümü
Ərməğan istə.

Damla əvəzinə ümman, bir gül yerinə bütöv gülüstan, ulduz boyda işıq üçün günəşli asiman, bircə saatlıq görüşdən ötrü bütöv bir ömrü ərməğan verməsi şairin humanizminin, sevgi və insani səxavətinin, mənəvi zənginliyinin lakonik poetik faktı kimi mənalandırılmışdır: o, sevgi, eşq və məhəbbəti bir sədəqə kimi yox, ona layiq məğrur aşiq kimi umur, mənəvi haqqı olan bir şəxs kimi diləyir. Şair lirik hisslərin ifadəsində həddindən artıq qənaətcildir, belə hallarda sözsüz mahnı kimi misraların daxili, gizli, sehrkar siqləti müdrik, ləngərli bir tərzdə dil açıb həzin bir ahənglə öz-özünə oxuyur:

– Bizdədir dünyanın sevinci qəmi,
Bəs niyə susuruq görüşəndə biz!
– Böyük bir məhəbbət də böyük çay kimi,
Axar ürəklərdən səssiz-səmirsiz.

Şairin «Mənim yer günəşim» adlı poetik məcmuəsində onun uzun illərdən bəri yazıb-yaratdığı ən gözəl şerləri toplanmışdır. Müəllifin onlarca şer kitabından biri kimi bu toplu da oxucular qarşısında şairin poetik hesabatıdır. Bu kitabı ilə o, bütün planeti qarış-qarış gəzmiş, hər yerdə poeziyamızı, Vətənimizi ləyaqətlə təmsil etmişdir. Onun həyatının bir anı belə şersiz, zəhmətsiz olmamış, həmişə poetik axtarışlarda, kəşflərdə keçmişdir.

Rus şairi V.Bryusov yazmışdır ki, yadırğamamaq üçün pianoçu hər gün çaldığı kimi, şair də hər gün yazmalıdır.

Əks təqdirdə o, tamamilə yadırğaya bilər. Nəbi Xəzri də bu prinsipə sadiq qalır, demək olar ki, hər gün yazıb-yaradır. Şair oxucularla görüşlərindən birində demişdir ki, mən şer yazmadığım günü ömrümdən saymıram. Hər gün nə isə yazıram və yaxud yazacaqlarım haqqında düşünürəm. Başqa sözlə deyilsə, şairin sənətkarlıq karxanası daim, işləməli,ləngimə və boşdayanmanın nə olduğunu bilməməlidir.

Nəbi Xəzri elə xoşbəxt sənətkarlardandır ki, müxtəlif fəaliyyət sahələrini, müxtəlif ədəbi növ və janrları, bədii formaları möhkəm və məharətli sənətkar əlləri ilə ecazkar şəkildə bir şəxsin simasında birləşdirməyi həmişə bacarır. Onun qələmindən lirik təravəti ilə seçilən şerlərlə yanaşı, vətəndaş bir şairin ürək vurğularının ritmik çaları, ictimai-siyasi poeziya nümunələri kimi hamının diqqətini cəlb edən, kamil, mükəmməl sənət inciləri ilə bir sırada, bir-birindən fərqlənən gözəl poemaları, dram əsərləri, publisistik yazıları, nəsr parçaları, tənqid və ədəbiyyatşünaslıq əsərləri, tərcümələri, xatirələri çıxmışdır.

Xüsusi vurğu ilə qeyd edilməli əsas cəhətlərdən biri də bundan ibarətdir ki, N.Xəzri adı çəkilən sahələrin hər birində öz istəyinə müvəffəq ola bilən bir sənətkardır. S.Vurğunun sözləri ilə desək, poetik iqlimin dəyişməsi çox halda bədii yaradıcılığın xeyrinə olur. N.Xəzri ölkəmizdə baş verən hadisələrin əks-sədasını, dövrün, zamanın sosial-mənəvi möhürünü öz yaradıcılığında əks etdirmək üçün tez-tez və ya yeri gəldikcə janrdan-janra, formadan-formaya keçməyi tamamilə mümkün hesab edir. Şairin «Kiçik təpə», «Sumqayıt səhifələri», «Ana», «İki Xəzər», «Günəşin bacısı», «İnam», «Vicdan» və s. poemaları, «Sən yanmasan», «Əks-səda», «Mirzə Şəfi», «Mənsiz dünya», «Torpağa sancılan qılınc» pyesləri buna canlı sübutdur.

N.Xəzri işgüzar, zəhmətsevər, cəsarətli sənət fədaisidir. Uzun illərdir ki, o, məsul vəzifələr daşıyır. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəqi Əlaqə Cəmiyyətinə

başçılıq edir, ictimai xadim kimi səmərəli, qızğın fəaliyyət göstərir. Necə deyərlər onun bir ayağı xarici ölkələrdə, o biri ayağı isə doğma Azərbaycandadır. Lakin bütün dünyanı ölkə-ölkə, iqlim-iqlim gəzməsi onun bədii yaradıcılığına nəinki mane ola bilmir, əksinə, sənətini yeni mövzular, motivlər və mövzularla zənginləşdirir.

Lenin mükafatı laureatı, rus şairi Yeqor İsayevin çox sərrast dediyi kimi, «Ən cənub respublikamız olan Azərbaycandan şimala doğru uzanan böyük Sovetlər ölkəsinin ucsuz-bucaqsız hüdudları Nəbi Xəzrinin poetik həmlələr meydanı, onun şairlik istedadının maqnit sahəsidir».

N.Xəzri ən çox nəşr edilən, oxunan, yayılan və sevilən şairdir. Onun əsərləri kitab mağazalarının rəflərində yığılıb qalmır, oxucular tərəfindən rəğbətlə alınır. Şairin əsərləri dəfələrlə əksər xalqların dillərinə tərcümə olunmuş, xüsusilə rus oxucularının sevimlisinə çevrilmişdir. Onu xarici ölkələrdə də yaxşı tanıyır və sevirlər.

Nəhayət, tam bir qətiyyətlə deməliyik ki, xalq şairi Nəbi Xəzrinin «Mənim yer günəşim» adlı şerlər və poemalar kitabının Lenin mükafatına təqdim edilməsi onun poetik istedad və əməyinin məntiqi nəticəsidir.

*«Bakı» axşam qəzeti,*
*24 fevral 1988-ci il*

# FİRUDUN HÜSEYNOV



**Abbas Zamanovun İsa Həbibbəyliyə yazdığı məktubdan sətirlər:**

*Göndərdiyin «Kitablar aləmində» (eyniadlı jurnal nəzərdə tutulur – İ.H.) məni həm sevindidi, həm də kədərləndirdi. Çünki unudulmaz dostumuz, qardaşımız Firudun Hüseynovun son yazısı «İntibah carçısı» məqaləsi burada dərc olunmuşdur. «Molla Nəsrəddin» haqqında mollanəsrəddinnamə məqaləsi... Bu məqaləni oxuyarkən Firudun təmkinliyi, Firudun konkretliyi, Firudun söz demək ustalığı ilə bir daha üz-üzə gəldim.*

*Firudun nadir insan, nadir dost, nadir alim, nadir şəxs idi, daha doğrusu nadr şəxsiyyət idi. İndi onun yeri hər gün görünür. Özü də necə görünür? Hayıf Firudundan. Sevdiyi, sədaqətlə xidmət etdiyi Vətən torpağı halaldı ona. Məzarı nurla dolsun. Gərək Firudun belə tez getməyəydi... daha yaza bilmirəm...»*

***Bakı, mart. A.Z.***

***«Müasirləri Abbas Zamanov haqqında», Bakı, «Çinar-çap», 2003, səh. 42***

## Yeni Tədqiqat

### Cəlil Məmmədquluzadə nəsrində əsas problemlər

Əsası XIX əsrdə böyük Mirzə Fətəli Axundov tərəfindən qoyulmuş yeni, realist ədəbiyyatımızın yaradıcılıq üfüqlərini XX əsr şəraitində genişləndirən, inqilablar zəmanəsinin tələblərinə cavab verən səviyyəyə qaldıran sənətkarlarımızdan biri, bəlkə də birincisi Cəlil Məmmədquluzadədir. C.Məmmədquluzadə Mirzə Fətəlinin layiqli şagirdi olsa da, onun açdığı cığırların əsiri olmadı; Əli Nazimin ifadəsi ilə desək, Mirzə Cəlil «ədəbiyyata ədəbiyyatdan,

həyata ədəbi ənənələrdən gəlmədi, ədəbiyyata öz «çarıqları» ilə qədəm qoydu, özü ilə bərabər Məmmədhəsən əmiləri, zeynəbləri, novruzəliləri də gətirdi, ədəbiyyatda onlara vətəndaşlıq hüququ qazandırdı». Nəticədə o, ədəbiyyatı xalq həyatının dərinliklərinə endirib, Azərbaycan ədəbiyyatında yeni məktəb yaratdı, yeni epoxa açdı. Bu o deməkdir ki, C.Məmmədquluzadənin yaradıcılığı haqqında elmi əsər yazmaq – ədəbiyyatımızın bütöv bir dövrü haqqında əsər yazmağa bərabərdir. Filoloji elmlər namizədi Firidun Hüseynovun bu günlərdə filoloji elmlər doktoru alimlik dərəcəsi almaq üçün müdafiə etdiyi «Cəlil Məmmədquluzadə nəsrində əsas problemlər» əsəri belə çətin bir mövzuya həsr olunmuşdur. Bu işin çətinliyi bir də ondan irəli gəlir ki, Cəlil Məmmədquluzadənin nəsri haqqında F.Köçərlidən tutmuş, Əli Nazim, Əziz Şərif, Mir Cəlal, Mirzə İbrahimov, Cəfər Xəndan, H.Səmədzadəyədək bir sıra görkəmli alimlər tədqiqat aparmış, çoxlu elmi-tənqidi əsərlər yazmışlar. Adlarını çəkdiyimiz və çəkmədiyimiz alimlərin tədqiqatından sonra eyni mövzuya girişmək, bu haqda yeni söz demək, əlbəttə, asan deyil. F.Hüseynov bu vəzifənin öhdəsindən gələ bilmişdirmi? Dissertasiyanın ümumi elmi-nəzəri səviyyəsini, müəllifin zəngin axtarışlarını, elmi təhlil və ümumiləşdirmələrinin möhkəm məntiqini, inandırıcı dəlillərlə əsaslandırılmış hökmlərini və nəticələrini nəzərə alaraq, bu suala əvvəlcədən qeyd-şərtsiz müsbət cavab vermək olar.

Müəllif, Cəlil Məmmədquluzadənin nəsrinin əsas problemlərini tədqiq etmək üçün düzgün elmi-metodoloji yol seçmişdir. O, Mirzə Cəlilin nəsrini «Cəlil Məmmədquluzadənin ilk nəsr əsərlərində realizm. Adi əhvalatlarda böyük həqiqətlər», «Kəndli və fəhlə mövzusu, ictimai zidiyyətlərin inikası. Ədibin əhvalat və portret hekayələri», «İran Azərbaycanı həyatından real lövhələr», «Qadın azadlığı problemi», «Ziyalı surətləri, tərbiyə, məsələsi. «Bəlkə də qaytardlar» ətrafında» başlıqları altında fəsillərə ayırıb təhlil etmişdir. Bu bölgü Cəlil Məm-

mədquluzadə nəsrinin əsas problemlərini konkret şəkildə həll edib müəyyənləşdirmək üçün əlverişli imkan yaratmışdır. Həmin bölgüdə yalnız adını çəkmədiyimiz altıncı fəsil yersiz təsir bağışlayır ki, bu haqda aşağıda danışılacaqdır.

Müəllif qarşısına qoyduğu əsas problemlərin tədqiqinə keçməzdən əvvəl, Cəlil Məmmədquluzadə yaradıcılığının, o cümlədən ədibin nəsrinin qidalandığı mənbələrdən söhbət açıb belə bir düzgün nəticəyə gəlir: «Onun üç əsas sələfi vardı: min illərdən bəri xalqın qəlbindən süzülüb gələn söz inciləri xəzinəsi, yəni zəngin şifahi xalq ədəbiyyatımız; M.F.Axundovla başlanan realist yazılı milli ədəbiyyatımız».

Göründüyü kimi, tamamilə doğru hökmdür. Müəllifin fikrincə, Mirzə Cəlil yaradıcılığı, o cümlədən nəsri bu üç mənbə üzərində bünövrə tutsa da, onun əsas ideya qaynağı ədibin yaşadığı zəmanə idi, XX əsrin proletar inqilabları idi. Mirzə Cəlil məhz bu ideya qaynağından ilham alaraq əsrin inqilabi ədəbiyyatının təməlini qoymuşdur. Bu da tamamilə doğru hökmdür. Çünki müəllifin öz ifadəsi ilə desək, əgər Mirzə Cəlil sələflərinin irsi ilə kifayətlənib, inqilablar əsrinin əks-sədasına çevrilməsə idi, onda heç bir vaxt bizim tanıdığımız, sevdiyimiz, adı və cahanşümul yaradıcılığı ilə fəxr etdiyimiz Mirzə Cəlil olmazdı. Bütün bunlara əaslanaraq, cəsarətlə deyə bilərik ki, F.Hüseynov filoloji elmlər doktoru alimlik dərəcəsi almaq üçün müdafiəyə təqdim etdiyi dissertasiya ideya və metodoloji cəhətdən düzgün bünövrə üzərində qurulmuşdur. Dissertasiyanın müvəffəqiyyətinin şərtlərindən əsas məziyyət də, şəksiz ki, bundan irəli gəlmişdir.

Dissertasiya ideya və elmi-metodoloji cəhətdən düzgün bünövrə üzərində qurulduğu üçün müəllifin təhlil və ümumiləşdirmələri elmi səciyyə daşıyır. O, məzmun danışmır, ədəbi hadisələri sadalamır, əsərlərdən gəlməyən, lakin illər boyu dəbdə olan yalnış fikirlərin üzərindən qələm çəkir. Müəllifin nəticələri, hökmləri və mübahisələri Mirzə Cəlil nəsrinin ruhundan, ideya pafosundan doğduğu, əsrin ədəbi

inkişaf prossesinin ümumi inkişafı ilə məntiqi surətdə sıx bağlanıldığı üçün onların həqiqiliyinə şübhə etmirsən.

Mən, F.Hüseynovun elmi axtarışları, onun elmi taktı üzərində xüsusi dayanmaq istəyirəm. Dissertasiyanın müqəddiməsi göstərir ki, müəllif zəngin tədqiqat aparmışdır. O, Cəlil Məmmədquluzadə irsi haqqında inqilabdan əvvəl və sonra müxtəlif dillərdə yazılmış bütün elmi-tənqidi ədəbiyyatı nəzərdən keçirib saf-çürük etmişdir. Mirzə Cəlil haqqında, xüsusən onun nəsri haqqında yazılanların heç biri tədqiqatının nəzərindən yayınmamışdır. Əksinə sələflərinin gözündən qaçmış bir sıra materiallar ilk dəfə tapılıb üzə çıxarılmışdır. Məmmədquluzadəşünaslığın üfüqləri müəyyən dərəcə genişləndirilmişdir.

Mirzə Cəlilin «İranda hürriyyət»,«Quzu», «Sirkə», «Saqqalı uşaq», «Proletar şairi», «Oğru inək», «Qəza müxbiri» və s. əsərləri ilə əlaqədar olaraq, dövri mətbuatdan tapılan və tədqiqata cəlb edilən maraqlı qeydləri, tənqidi məqalələri buna misal göstərmək olar. Yaxud, ədibin bir sıra hekayələrinin İran, Türkiyə və Almaniyada nəşrinin, onlar haqqında həmin ölkələrdə yazılan tənqidi fikirlərin tədqiqinə də ilk dəfə F.Hüseynovun monoqrafiyasında rast gəlirik.

F.Hüseynov öz sələflərinin tədqiqatına böyük ehtiramla yanaşır, onların zəhmətlərini minnətdarlıq hissi ilə yad edib qiymətləndirir, müddəaları ilə razılaşmadığı müəlliflərlə mülayim elmi taktla mübahisəyə girişir, hətta onların ən kobud səhvlərini göstərib rədd edərkən belə elmi taktın çərçivəsindən kənara çıxmır.

Mən bu cəhəti ona görə xüsusi olaraq qeyd edirəm ki, bizim mübahisələrimizdə çox vaxt elmi takt gözlənilmir, bu isə bəzən mübahisələrin lüzumsuz gərginliyinə, əsəbiliyə səbəb olur.

Biz yuxarıda monoqrafiyanın elmi quruluşundan bəhs edərkən onu müsbət qiymətləndirirdik. Bu, həqiqətən belədir. Lakin açıq demək lazımdır ki, «Cəlil Məmmədquluzadə və realist rus ədəbiyyatı. Ədibin hekayələri tərcümədə» ad-

lanan altıncı fəsil əsərin daxili məntiqi ilə uyuşmadığı üçün yamaq kimi görünür. Fəsildə adları çəkilən bəhslərin hər biri müstəqil tədqiqat obyektləridir. Ayrı-ayrı fəsillərdə, yeri gəldikcə, Cəlil Məmmədquluzadənin realist rus ədəbiyyatından necə faydalanmasından, mütərəqqi rus klassiklərinin ədibin yaradıcılığına müsbət təsirindən bəhs olunmuşdur.

Altıncı fəslin «Cəlil Məmmədquluzadə və realist rus ədəbiyyatı» bəhsini bütünlüklə monoqrafiyanın içərisində əritmək olardı.bundan əsər uduzmaz, əksinə qazanardı. Həmin fəslin «Ədibin hekayələri tərcümədə» bəhsi isə bütünlüklə artıqdır. Bunu da gizlətməyək ki, bu bəhs əsərin ümumi səviyyəsindən aşağıdır. Bu da təbiidir. Çünki müəllif tərcümə sahəsində mütəxəssis deyildir.

Biz inanırıq ki, F.Hüseynov əsərini nəşrə hazırlarkən bu iradları nəzərə alacaqdır.

Nəhayət, monoqrafiyanın yaranması ilə əlaqədar olan bəzi cəhətləri də xatırlatmaq yerinə düşərərdi. F.Hüseynov on ildən artıqdır ki, ədəbiyyatşünas kimi məhsuldar fəaliyyət göstərir. Onun Mirzə Cəlilin «ikinci Sabirimiz» adlandırdığı mollanəsrəddinci şair Əli Nəzmi haqqındakı iri həcmli elmi əsəri (1970) ədəbiyyatşünaslığımızın son illərdə yaradılmış yaxşı monoqrafiyalarından biridir. Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün yazılan və çap olunan «Azərbaycan sovet ədəbiyyatı» dərsliyinin bir sıra oçerkləri, «XX əsr Azərbaycan ədəbiyyatı» dərsliyinin yarıya qədəri F.Hüseynovun qələmindən çıxmışdır. 1963-cü ildə o, Əli Nəzminin seçilmiş şerlərini müvafiq müqəddimə və şərhlərlə nəşr etmişdir. F.Hüseynov müdafiə kürsüsünə asanlıqla gəlib çıxmamışdır. «Cəlil Məmmədquluzadə nəsrində əsas problemlər» müəllifin on illik elmi-pedaqoji zəhmətinin məntiqi yekunudur.

*«Ədəbiyyat və incəsənət» qəzeti*
*09 iyun 1973-cü il*

# RƏSSAM İBRAHİM SƏFİ[1]

Oxuculara iki əsərini təqdim etdiyimiz məşhur türk rəssamı İbrahim Səfi 1898-ci ildə Naxçıvanın Baş Noraşen kəndində doğulmuşdur. İbrahimin atası Qafar bəy Səfiyev zamanının savadlı adamlarından olmuşdur. O, bədii ədəbiyyatı sevər, Şərq klassiklərinin əsərlərini oxuyar, özü də şer yazarmış. İbrahim 3 yaşında ikən atası vəfat etmiş, uşaq, qohumlarının himayəsində böyümüş, ibtidai təhsilini vaxtı ilə böyük ədəbimiz Cəlil Məmmədquluzadənin müəllimlik etdiyi Baş Noraşen məktəbində almış, sonra Yeravan seminariyasında oxumuşdur.



[1] Məqalə sənətşünaslıq doktoru Mürsəl Nəcəfovla birgə yazılmışdır.

İbrahim Səfinin ilk rəsm məşğələləri haqqında bildiyimiz budur ki, o, hələ uşaq ikən kənddə şəkil çəkməyə həvəs götərmiş, ibtidai məktəbdə oxuduğu zamanlar isə doğma yurdun mənzərələrini, habelə natürmortlar işləməyi bacarmışdır. Rəssam özü xatırlayır ki, 12 yaşında ikən çəkdiyi «Araz balıqçıları» rəsmini ibtidai məktəbdəki müəllimləri çox bəyənmişlər. Sonralar İbrahimi rəssamlıq sənətinə həvəs göstərməyə seminariyanın rəsm müəllimi, ruminiyalı rəssam Koltsa sövq etmişdir. Təsadüfi deyil ki, İbrahim Səfi ilk rəsm müəllimini hörmətlə yad edir.

Hələ seminariyada oxuduğu zaman professional rəssam olmaq arzusu ilə yaşayan gənc İbrahim təhsilini tamamladıqdan sonra Moskvaya gedir və oradakı rəssamlıq məktəbinin hazırlıq şöbəsinə daxil olur. Lakin o, Moskvada bir ildən artıq oxuya bilmir. Bizə məlum olmayan səbəblərə görə təhsilini yarımçıq qoyur. Ehtimal ki, İbrahimin rəssamlıq təhsilini başa vura bilməməsinə birinci dünya müharibəsi səbəb olmuşdur.

Birinci dünya müharibəsindən sonra ölkədə yaranan mürəkkəb həyatın burulğanı İbrahim Səfini ana vətənindən uzaqlara atır, tale aparıb onu Türkiyəyə çıxarır.

Qürbət diyarda gənc İbrahimin həyatı ağır keçir. O, bir qarın çörək qazanmaq üçün tütün fabrikində fəhləlik edir. Lakin rəssam olmaq arzusu İbrahimi heç bir vaxt tərk etmir. Nəhayət, o, İstanbulun Gözəl Sənətlər Akademiyasına daxil olub – 1923-cü ildə rəssamlıq təhsilini başa vurur. İndi 45 ildən artıqdır ki, İbrahim Səfi boyakarlıq sənətinin müxtəlif janrlarında çalışır, yeni-yeni tablolar, mənzərə və portretlər yaradır.

Biz, İbrahim Səfinin iki əsərini orjinalda görmüşük: «Bosfordan bir mənzərə» və «Qadın portreti». Bu əsərləri Türkiyədən əmisi İbrahim Səfinin qonağı olmuş həkim Zərrux xanım Səfiyeva Bakıya gətirmişdir. Reproduksiyalarını dərc etdiyimiz bu əsərlərdən və habelə əlimizdə olan digər

şəkillərdən görünür ki, İbrahim Səfi realist rəssamdır. Bundan əlavə aylıq «Türk kulturu» jurnalının son nömrələrindən birində sənətşünas Süleyman Arisoyun «Sənətkar rəssam İbrahim Səfi» başlığı altında çap olunmuş məqaləsindən öyrənirik ki, İbrahim Səfi yaradıcılıq aləminə gəldiyi ilk günlərdən indiyə kimi realizmə sadiqdir. O, öz yaradıcılıq təcrübəsində dünya incəsənətinin ən mütərəqqi ənənələrini davam etdirir. Bu fikri rəssamın sənət və sənətkarlıq haqqındakı düşüncələri də təsdiq edir. Süleyman Arisoyun məqaləsində deyilir ki, İbrahim Səfi yaradıcılığında XIX əsr rus realistlərinin, ilk növbədə «Səyyar rəssamların» («Peredvijniklər»in) ideya-bədii platformasında dayanmışdır. «Mənim sənət anlayışım rəssamlıqda gözəllik axtarmaq və gözəllik yaratmaqdan ibarətdir, mən gözəlliyi bəyənirəmsə, başqasına da bunu bəyəndirməyə çalışıram» deyən rəssam öz sənəti ilə həyatın, təbiətin, insanların gözəlliyini tərənnüm edir, qarşısında qoyduğu bu nəcib məqsədə nail olmaq üçün sənətinin ən təsirli ifadə vasitələrindən istifadə edir. İbrahim Səfinin realizmi bu sözlərə əsaslanır:

«Sənət xalqa uymalıdır insanların anlayacağı şəkildə yaradılmalıdır.

Mən rəsmdə gerçəkciyəm, portağal çəkirəmsə yuvarlaq çəkirəm, amma modernist onu künçlü-bucaqlı çəkir... Rəsm çəkilir, rəsm yazılmır, sözlə anladılmır... Rəsm anladılmadan özünü ifadə etməlidir, insanın ruhunu oxşamalı, insan sənəti sevməlidir...».

İbrahim Səfi etiraf ki, boyakarlıq təcrübələrində o, eyni zamanda fransız impressionistlərinin mütərəqqi cəhətlərinə biganə deyildir. O, impressionizmin palitraya gətirdiyi işığa, parlaqlığa, kolorit gözəlliyinə aludədir. «Bosfrordan bir görünüş» mənzərisi müəyyən mənada rəssamın təbiətə münasibətini izləməyə imkan verir. Görünür o, mənzərə üçün ürəkaçan motivlər seçir, geniş panoramları əhatə etməyə çalışır, rənglərin təzadına, koloritin gözəlliyinə fikir

verir. İbrahim Səfi rəngləri cəsarətlə işlədir, onun texnikası «dinamik və təsirlidir». Süleyman Arisoyun dediyinə görə «İbrahim Səfinin əsərlərini seyr edənlər lirik və ya romantik hisslərə qapılır, həyacan keçirirlər...».

Bütün bu deyilənlərdən görünür ki, İbrahim Səfi müasir Türkiyə sənətinin realizm cəbhəsində durmuş və durmaqdadır. «Türk kulturu» jurnalındakı məqalədən məlum olduğu kimi, türk rəssamlarından Hikmət Onat, Şərəf Aktik, Vəcif Bərəkətoğlu, Zəki Qocaməmi, Naci Kalmıkoğlu, Namik İsmayıl və başqalarının daxil olduğu realist sənət məktəbinə mənsubdur. İbrahim Səfi türk realistlərindən Naci Kalmıkoğluna daha yaxındır, özünün etiraf etdiyi kimi, Kalmıkoğlunun sənətini çox sevir və onunla bir cəbhədə durur.

İbrahim Səfi həm dünyagörüşündə, həm də rəssamlıq təcrübəsində mücərrədciliyə barışmaz olduğunu sübut etmişdir.

İbrahim Səfi sərbəst yaratmaq məqsədi ilə daimi müəllimlik ilə məşğul olmur. Bununla belə o, sənətini gənclərə öyrətməkdən çəkinməyir. Hazırda Londonda yaşayıb-yaradan rəssam Conson Baker bir neçə il İbrahim Səfidən dərs almışdır.

İbrahim Səfi yaradıcılığında uşaqlıq xatirələrinə əsaslanır və doğma yurdun məişətinə dair mörzulara da müraciət edir. Budur, əlimizdə olan reproduksiyalardan birində Baş Noraşendən Əyricə yaylağına gedən köçərilərin həyatından bir epizodun təsviri verilir. Gözlərimiz önündə əzəmətli dağ mənzərəsi canlanır. Qədim karvansara qarşısında köçərilər dəstəsi əylənir... Təsvir olmayan epizod, dağ mənzərəsi, hava – bunların hamısı insanda romantik əhvali- ruhiyyə oyadır.

İbrahim Səfi bir rəssam kimi Türkiyənin sərhədlərindən çox-çox uzaqlarda məşhurdur. Bizə məlumdur ki, onun fərdi sərgisi Türkiyə şəhərlərindən əlavə Fransada, Avstriy-

ada, ABŞ-da, İsveçrədə və başqa ölkələrdə nümayiş etdirilmişdir. Rəssamın yaradıcılığı, onun əsərləri haqqında xarici mətbuatda müsbət rəylərə rast gəlmək olur. Budur, Parisdə nəşr olunan «Orient» qəzetində oxuyuruq: «Səfi öz dövründə türk rəssamları arsında güclü sima kimi fərqlənir. O, heç bir zaman rəssamlığı abstraksiyaya çevirən konsepsiyalar ardınca getmir.

Tamaşaçılar İbrahim Səfinin parlaq boyalarına, incə nüanslarına valeh olurlar. Rəssamın mənzərələri o qədər təsirli və canlıdır ki, onlara baxarkən istər-istəməz romantika haqqında düşünürsən».

Dünyanın bir sıra mədəniyyət mərkəzlərində fərdi sərgiləri müvəffəqiyyətlə nümayiş etdirilən, görkəmli fırça ustası kimi şöhrət tapan İbrahim Səfinin əsərlərindən ibarət fərdi sərgi, şübhəsiz ki, doğma Azərbaycanda rəğbətlə qarşılanar. Biz inanırıq ki, Respublika Rəssamlar İttifaqı bu haqda təşəbbüs göstərəcikdir.

*«Ədəbiyyat və İncəsənət» qəzeti,*
*15 mart 1969-cu il*

# FƏRİDƏ VƏZİROVA[1]
## Zəhmətsevər alim

Azərbaycan sovet ədəbiyyatşünaslığının tanınmış nümayəndəsi, filoloji elmlər namizədi, dosent Fəridə Vəzirovanın 50 yaşı tamam olur. 50 yaş-yarım əsirlik ömür deməkdir. Fəridə xanım bu ömrün 30 ildən çoxunu əmək, mübarizə və elmi yaradıcılıq cəbhəsində şüurlu fəaliyyətə həsr etmişdir. Onun həyat salnaməsinin hər bir anı mənalı zəhmətdə, xalqa xidmətdə keçmiş, axtarışlar və tapıntılarla zəngin olmuş, əsil yaradıcılıq həyacanları və daxili narahatlıqlar müşayiət edilmişdir.

Ədəbiyyatşünaslarımız sırasında F.Vəzirovanın özünəməxsus səsi və mövqeyi vadır. Onun elmi və pedoqoji fəaliyyətini səciyyələndirən ən başlıca cəhətlər əməksevərlik və təvazökarlıqdır. İstedadlı alim gördüyü işin böyü-kiçikliyindən asılı olmayaraq, özünə, yaradıcı fəliyyətinə son dərəcə tələbkalıqla yanaşmışdır. Bir ədəbiyyatşünas və tənqidci kimi Fəridə xanımı ilk növbədə müasirlik, söz sənətimizin nisbətən az öyrənilmiş məsələləri maraqlandırmışdır. Onun, demək olar ki, bütün yaradıcılıq fəaliyyəti müasir ədəbiyyatımızın aktual problemlərinin tədqiqinə həsr edilmişdir. F.Vəzirova Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlı yaradıcılığının yaxşı tədqiqatçılarından biridir. Onun bu sahədəki araşdırmaları 1956-cı ildə müdafiə etdiyi namizəlik dissertasiyası ilə nəticələnmişdir. Ədəbi və elmi ictimaiyyətin rəğbətlə qarşıladığı və yüksək qiymətləndirdiyi həmin əsər təkminləşdirilərək dörd il sonra «Cəfər Cabbarlı yaradıcılığında sosializm realizmi» adı altında nəşr edilmişdir.

Fəridə xanım Azərbaycan sovet ədəbiyyatının nəhəng

[1] Məqalə professor Tofiq Rüstəmovla birgə yazılmışdır.

simalarından olan M.S. Ordubadinin ədəbi irsinin tədqiqi, nəşri və geniş təbliği sahəsində xüsusilə coşğun fəaliyyət göstərmişdir. Onun 1970-ci ildə çıxan «Məmməd Səid Ordubadi» monoqrafiyası, 1972-ci ildə Azərbaycan və rus dillərində nəşr olunan «M.S. Ordubadi» kitabçası elmi jurnallarda, dövri, mətbuat səhifələrində dərc edilən onlarca orijinal məqaləsi görkəmli ədibin məqaləsi çox zəngin irsini hər tərəfli örgənməkdə, müxtəlif janırlı əsərlərinin sənəkarlıq xüsusiyyətlərini müəyyənləşdirmək də səmərəli addımlardır. 1964-1967-ci illərdə Fəridə xanım M.S.Ordubadinin 8 cilddən ibarət əsərləri külliyatını hazırlayıb nəşr etdirmişdir. Şübhəsiz ki, bu, ədəbiyyatşünaslığımız qarşısında onun ən böyük xidmətlərindən biridir.

F.Vəzirova vətənpərvər insandır. Böyük Vətən müharibəsinin ilk günlərində, bütün xalqımız üçün çətin sınaq dövründə o, təhsilini yarımçıq qoyub könüllü olaraq Qızıl Ordu sıralarına getmiş, qaynar gənclik çağlarını odlu-alovlu hərb cəbhələrində, ana yurdun xilası naminə qızğın çarpışmalarda keçirmiş, yalnız alman faşizmi və Yaponiya militarizmi darmadağın edildikdən sonra, 1945-ci ilin noyabrında Azərbaycana qayıdaraq universitetin auditoriyasında öz yerini tutmuşdur.

Uzun illərdir ki, Fəridə xanımın elm pedoqoji və ictimai fəaliyyəti Azərbaycan Dövlət Universiteti ilə bağlıdır. Onun mühazirələri konkretliyi və elmiliyi ilə diqqəti cəlb edir. Fəridə xanım onlarca diplom işinə və namizədlik dissertasiyasına rəhbərlik etmişdir.

F.Vəzirova ömrünün ikinci yarım əsrinə yaradıcılığının çiçəkləndiyi bir dövrdə qədəm qoyur. Biz inanırıq ki, qarşıdakı illər onun üçün yeni-yeni yaradıcılıq nailiyyətləri ilə, qiymətli elmi tənqidi əsələrlə əlamətdar olacaqdır.

*"Ədəbiyyat və incəsənət" qəzeti*
*23 fevral 1974-cü il*

# M.S.ORDUBADİNİN NAMƏLUM BİR PYESİ

M.S.Ordubadi 1939-cu ildə «Ədəbiyyat qəzetinin» redaksiya heyətinin üzvü idi. O demək olar ki, redaksiyaya hər gün gəlirdi. Bir dəfə ədib söhbət zamanı dedi ki, o, mövzunu müasir həyatdan aldığı «Sədəf» adlı bir pyes yazmış, lakin heç bir yerdə çap etdirmədən əl yazmasını itirmişdir.

Müəllifin öz xəttilə yazılmış nüsxəsini bu ilin fevral ayında Kirovabad (Gəncə) şəhərində tapdığımız bu mənzum pyes 6 pərdədən ibarətdir. Pyesin beşinci və altıncı pərdələrinin iki variantı vardır.

Əlyazmasının böyüklüyü kağızın içərisində Bakı Azərbaycan İşçi teatrının repertuar Komisyonunun pyes haqqında müfəssəl bir rəyi vardır. Bu rəydən biz öyrənirik ki, Ordubadi həmin pyesi 1931-ci ildə İşçi teatrı üçün yazmış, ancaq teatr tərəfindən səhnəyə qoyulmamış, əl yazması isə əldən-ələ keçib uzun müddət naməlum qalmışdır.

Pyesin altıncı pərdəsinin axırından bir neçə vərəq düşmüşdür. Ancaq həmin pərdənin ikinci variantı isə bütövdür. Yazıçı pyesin əvvəlində belə bir xülasə vermişdir:

«Əsər kolxoz təsərrüfatının birinci dövrlərini göstərir. Qolçomaqlar və kənd mollası kolxoz təşkilatçısı Rüstəmi bayqut edirlər: Rüstəmin qaynatası Sərdar, yoxsul kəndlilərdən sayılan Nəsir mollanın və qolçomaqların tərəfinə keçir. Sərdarın qızı, Rüstəmin nişanlısı Sədəf və Sədəfin qardaşı Bəhram Rüstəmin tərəfində durub kollektiv təsərrüfat təşkilinə yardım edirlər. Ailələr iki tərəfə bölünüb bir-biri ilə mübarizə aparırlar. Kolxoz təşkilatçısı Rüstəmin bacısı Leylanı nişanlısı yalançı və dinci komsomol Hüseyn toy günündə boşayır və paltarlarını əynindən çıxarıb aparır.

Rüstəmin böyük yeznəsi yoxsul olduğuna baxmayaraq, qolçomaqlar tərəfinə keçir, Rüstəmin böyük bacısı Tərlanı

boşayr.

Qolçomaqlar qaçaq Qurbanı pul ilə alıb kolxoza və kolxozçulara zərər vururlar. Kəndin mollası bu zərərlərə aid xəbərləri möcüzə deyib avam xalqın içərisinə yayır. Vurulan zərərlərdən bəzi kolxoz üzvlərinin arasında ümidsizlik meydana gəlir. Nəhayət komsomol və kommunist üzvləri, xüsusən bitərəf və həqiqi kolxozçu saylan Kərəmin çalışması üzərində təsərrüfat möhkəmlənir. Qolçomaqlar qaçaq Qurbana vəd verdikləri paranı vermək istəmədiklərindən Qurban qolçomaq Təhməzi və Daşdəmiri öldürür. Bəbir (qolçomaq) yaralı olaraq həbsə alınır. Molla kolxozçulara yanaşır və qiyafəsini dəyişirsə də, nəhayət həbsə alınır. Məsələ açıldıqdan sonra Sərdar və Nəsir kolxoza gəlib səhvlərini boyunlarına alırlar. Bu qələbənin nəticəsində Rüstəm və Sədəfin toyları bitir».

Xülasədən göründüyü kimi müəllifin pyesi Sədəfin adı ilə adlandırmasına baxmayaraq, əsərin baş qəhrəmanı Rüstəmdir. Rüstəm-30-cu illərin əvvəllərində kollektiv təsərrüfat uğrunda fədakarcasına mübarizə edən kənd kommunistlərinin nəcib sifətlərini özündə cəmləşdirən maraqlı bir surətdir. O, kolxozun ilk təşkilatçısı və sədridir. Kolxozun təşkilində Rüstəm bir çox ciddi maniələrə rast gəlir. Kəndin qolçomaqları kolxoz əleyhinə mübarizə aparırlar. Rüstəmin öz yaxın qohumları belə ondan üz döndərir. Lakin bunların heç biri Rüstəmi ruhdan salmır. O, kolxozun təşkili yolunda qarşıya çıxan maniələrə qanunu bir hadisə kimi baxır. Rüstəm belə bir qəti inamla yaşayır: Heç bir qüvvə bu yeni quruluşun qarşısını ala bilməyəcəkdir, yenicə yaranmaqda olan kollektiv təsərrüfat gec-tez qalib gəlib kəndi yoxsulluq pəncəsindən çıxaracaq, ona xoşbəxt həyat verəcək və kolxozun düşmənləri mütləq məhv olacaqlar. Çünki həyatın, tarixi inkişafın tələbi belədir.

Lakin Rüstəm həddindən artıq xudbindir. O, kolxoza qarşı duran qüvvələrin niyyətlərini vaxtında dərk edə bilmədiyi üçün, kəndin yoxsullarını onların əleyhinə mübarizəyə qaldıra bilmir. Rüstəmin əsas bəlası burdadır ki, o,

kolxozun düşmənlərinə qarşı mübarizə haqqında hər addım başı danışır, ancaq bu mübarizəni əməli olaraq təşkil edə bilmir. Bu cəhət, Rüstəm surətini bir qədər zəiflətmişdir.

Pyesin ikinci müsbət surəti Sədəfdir. Sədəf şəhərdə təhsilini bitirdikdən sonra öz doğma kəndinə qayıdaraq yeni həyat uğrunda mübarizəyə qoşulur. O, kəndə demək olar ki, Cabbarlının Alması ilə birlikdə qayıdır. Lakin Almasda olan mübarizlik, mətnlik, barışmazlıq kimi sifətlərin heç birini biz Sədəfdə görmürük.

Sədəfin şəhərdən hansı ixtisasla qayıtması, kənddə nə iş görməsi bəlli deyildir. O, gələcək xoşbəxt həyat haqqında bol-bol danışır, xoş arzularla yaşayır, sinfi mübarizəni ən gərgin xarakter aldığı bir zamanda təbiətin gözəlliyi ilə əylənir. Nəticədə Sədəf müasir həyatla qırılmaz tellərlə bağlı olan Almas kimi mübariz deyil, xəyalpərvər gənc bir qız kimi təsir bağışlayır.

Pyesin əsas münaqişəsi kolxozun təşkilatçıları ilə düşmənlərin mübarizəsi zəmnində qurulmuşdur. Bu mübarizə «Almas» və «Həyat» da olduğu qədər yüksək pilləyə qaldırılması da, kolxoz quruluşunun ilk dövrünü, bu quruluşun düşmənlərinin çirkin əməllərini əks etdirir.

Əsərin sonu qolçomaqların məğlubiyyətilə bitir. Ancaq onlar kommunistlərin və yoxsul kəndlilərin zərbələri altında deyil, öz aralarında baş verən çəkişmələri nəticəsində məğlub olurlar. Münaqişənin bu şəkildə həll edilməsi hadisənin sxematikləşdirmişdir. Görünür ki, müəllif bunu hiss etdiyi üçündür ki, əsərin beşinci və altıncı pərdələrini bütünlüklə yenidən işləmişdir.

«Sədəf» pyesində Ordubadinin şeiri qüvvətli və axıcıdır. Müəllif əsərdə əruzun bütün bəhrələrindən istifadə etmişdir.

«Sədəf» pyesi Məmməd Səid Ordubadinin sovet həyatına həsr etdiyi ilk əsərlərdəndir. Yazıçının ədəbi əsərinin irsinin öyrənilməsində bu pyesin əhəmiyyəti vardır.

*«Ədəbiyyat və İncəsənət» qəzeti*
*31 iyul 1954-cü il*

# MİRZƏ ƏBDÜRRƏHMAN TƏBRİZİ

1941-ci ilin sonu idi. Alman faşist qoşunları Mozdoka çataraq Qafqazın içərilərinə doğru irəliləmək istəyirdilər. Bizi də səfərbərliyə alıb hərbi hissə yaratmışdılar. Lakin hələlik Dağıstan ərazisində ehtiyatdda saxlanırdıq. Bizi iki-iki, üç-üç, yaxud tək-tək şəhərdəki, kəndlərdəki evlərə paylamışdılar. Əhali əsgərləri evində saxlamağı özünə borc bilirdi. Mən də bir qoca kişi ilə yaşlı qadının evində qalırdım.

Günlər çox ağır-ağır gəlib-keçirdi. Mənim yaşadığım Buynaksk şəhərindən müharibə meydanı bir o qədər də uzaq deyildi. Sarsıdıcı xəbərlər, tutqun günlər, yağan qar, əsən acı rüzgar ürəyimi öz caynaqlarında sıxırdı. Gəzib-baxmalı bir yer yox idi ki, az-çox ürəyim açılsın.

Axırda qəbristanlığa getməyə başladım. Məni heyrət bürümüşdü. Hər cümə axşamı ağsaqqalların, ağbirçəklərin yığışıb bu qarda, soyuqda, küləkdə, aclıqda, qəhətlik içində bir qəbirin üstündə şam yandırdıqlarını, Yasin oxuduqlarını, görürdüm. Dərin xəyala dalıb bu rəhmətliyin kimliyi barədə xeyli düşünsəm də axırını bir yana çıxara bilmirdim. Hər kəsin öz hayına qaldığı bir vaxtda, görəsən bu kim idi ki, bu qədər adamı tufanda evindən, eşiyindən çıxarıb qəbristanlığa gətirirdi?..Nəhayət, sualımı ev sahiblərinə verdim. Qoca kişi qəbir sahibinə rəhmət oxuyub dedi:

– Bala orada yatan bir mömin, əməlisaleh, xeyrixah bir kişi idi. Adına Hacı Mirzə Əbdürrəhim Talıbzadə deyərdilər. Əsli buralı deyildi. Təbrizdən köçüb gəlmişdi. Amma öz ağlı, fərasəti, müdrikliyi və pulu ilə buradakıların hamısına ağsaqqallıq edirdi. Mən gözümü açandan, söz anlayandan onu hamıya əl tutan, xeyirxahlıq edən görmüşdüm. Kimin nə işi olsaydı, ona məsləhətə gedərdi, ağız açardı. Mən görmədim ki, ehtiyacı olan bir adam onun yanına

minnətə gedib əliboş qayıtsın. Xalqa cürbəcür yollarla kömək edirdi.

Vətəndən gələnlərə – təbrizlilərə, ərdəbillilərə, sərablılara... daha artıq yardım göstərirdi. Bir ərdəbilli ondan pul istəyəndə, onun üçün Buynakskda dükan açmışdı. Stavropol şosse yolunu da o çəkmişdi.

İndi, oğlum, sənin gördüklərin həmin yaxşılıq görmüş adamlardır ki, otuz ildir hər cümə axşamı istiyə-soyuğa, yağışa-tufana, aclığa-toxluğa, acı xəbərlərə baxmayıb, rəhmətlik Hacı Mirzə Əbrürrəhimin qəbri üstünə yığışır, şam yandırır, Yasin oxutdururlar. Yaxşılar belədirlər, bala, heç vaxt yaddan çıxmır.

Mən rəhmətlik Mirzə Əbdürrəhim Təbrizinin adını eşitmiş, haqqında kitab və məqalələr oxumuşdum, farsca «Əhmədin kitabı, yaxud Talibin gəmisi» (üç cilddə), «Kitab yüklü eşşək», «Xeyirxahların məsləki» adlı romanlar, fəlsəfəyə, insan və dövlət hüququna dair elmi traktlar yazdığını, Rusiya və Avropa ölkələrindəki alimlər, ziyalılar arasındakı böyük nüfuz sahibi olduğunu bilirdim. Məşhur mesenat, xeyriyyəçi, fenomen şəxsiyyət Hacı Zeynalabdın Tağıyev tərəfindən Bakıya qonaq çağrılmasından, Bakı ziyalılarına ana dilində elmi mühazirə oxumasından, fizika, kimya, biologiya, bitkişünaslıq, mexanika, pedaqogika, coğrafiya, tarix, ədəbiyyat... sahəsində yüksək bilik sahibi olduğundan xəbərim var idi. Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, akademik Korş kimi nəhəng bir alimin onu Xarkova dəvət edib alimlərə mühazirə oxutdurmuşdur.

*«Müasirləri Abbas Zamanov haqqında»*
*Bakı, «Çinar çap» 2003, səh. 219-224*

# MİRZƏ ƏLƏKBƏR SABİR
## Köhə məhəbbətin yeni təcəssümü



Mayın 24-də Bakının Balaxanı qəsəbəsində qeyri-adi bir xalq şənliyi var idi... qəsəbənin sakinləri–fəhlələr, qulluqçular, məktəblilər axışıb Mirzə Ələkbər Sabirin adını daşıyan meydana gəlmişdilər. Şairin heykəlinin ətrafında böyük bir izdiham toplaşmışdı. Buraya Azərbaycan Yazıçılar ittifaqı idarə heyətinin birinci katibi, xalq yazıçısı İsmayıl Şıxlının başçılıq etdiyi nümayəndə heyəti gəlmişdi. Heyətə xalq yazıçısı Bayram Bayramov, xalq şairi Balaş Azəroğlu, tanınmış şair, nasir və alimlərimiz Mədinə Gülgün, Əzizə Cəfərzadə, Cabir Novruz, Nəriman Həsənzadə, Bəkir Nəbiyev, Fikrət Sadıq və başqaları daxil idilər. Lenin rayonunun partiya və sovet rəhbərləri də burada idilər. Bu şənlik, xalq izdihamı Mirzə Ələkbər Sabirin ənənəvi Şer günlərini keçirmək üçün toplaşmışdı. Məktəblilər əllərində şairin şəkillərini, «Hophopnamə» tiplərinin karikaturalarını tutmuşdular. Divarlara Sabirin satiraları yazılmış şüarlar vurulmuşdu. Qəsəbə bayramsayağı bəzənmiş, sanki hamı – adamlar da, yamyaşıl ağaclar da, tərtəmiz süpürülmüş küçələr də, yenicə ağardılmış binalar da bayram paltarı geyinmişdi. Hamı böyük şairə olan məhəbbətini bildirmək üçün fürsət axtarırdı. Qəsəbəyə Sabir ruhu, Sabir nəfəsi hakim idi.

Sabir Şer günlərinin başlandığını xəbər verən rayon icraiyyə komitəsinin sədri Mirismayıl Əliyev deyirdi:

– Biz fəxr edirik ki, vaxtilə böyük şair bizim rayonun

ərazisinə daxil olan Balaxanı qəsəbəsində müəllimlik etmişdir. Sabir burada neft fəhlələrinin həyatı ilə bilavasitə tanış olmuş, bir sıra ölməz satiralarını burada yazıb-yaratmışdır. Biz çalışacağıq ki, rayonumuzda quruculuq işləri böyük şairin adına layiq səviyyədə getsin. Sabirin şerləri bizi bu gün də yüksək, vətəndaşlığa çağırır, keçmişin bürokratizm, əsarət, tənbəllik, əliəyrilik, laqeydsizlik kimi qalıqları ilə mübarizədə bu gün də bizə kömək edir.

Şairlər, yazıçılar xitabət kürsüsünə qalxaraq, böyük şairə olan ölməz sevgilərini izhar edir, məktəblilər şairin satiralarından səhnəciklər göstərirdilər.

Qəsəbənin qocaman sakini, partiya müharibə və əmək veteranı Ağakişi Rəsulzadə həyəcanla deyirdi:

– Sabir Balaxanıda müəllimlik edəndə mən hələ məktəbə getmirdim. Mənim yaşıdlarım Sabirin keçdiyi küçələrdə dayanıb ona tamaşa edirdilər. Uşaq hafizəsi iti olur. Yadıma gəlir ki, o zaman kəndimizdə Sabir haqqında böyük hörmətlə danışardılar. Mənə Sabirin keçmiş şagirdlərindən Əlimişan Hüseynzadə dərs demişdir. Əlimişan öz müəllimini qızğın məhəbbətlə yad edirdi. Onun danışığının əvvəli də, axırı da Sabir idi.

Ağakişi Rəsulzadənin dedikləri tamamilə həqiqətdir. Balaxanı camaatı sağlığında Sabiri əzizləmiş, onu mürtəcelərin təqiblərindən, hədə-qorxularından əzmlə qorumuşlar.

Sabir Balaxanıda müəllimlik etdiyi zaman onun sarsıdıcı satiralarının tənqid hədəflərindən biri 1910-cu ilin oktyabr ayında şairə imzasız məktub göndərmişdi. Məktubda deyilirdi ki, əgər ayın sonunadək o, Balaxanını tərk etməsə ailəsi başsız qalacaqdır. «Nəşr-maarif» cəmiyyəti Balaxanı şöbəsinin müdiri, mütərəqqi ziyalı Baxış Əhmədov «Günəş» qəzetində (5 noyabr 1910, №60) açıq məktub yazıb Sabirə imzasız məktub yazan qorxaq cahili rüsvay etmişdi.

Xatirələrindən, arxiv materiallarından və mətbuatda çıxan yazılardan biz öyrənirik ki, balaxanınılar Sabirin hör-

mətini saxlayır, onun əzizləyir, onun qayğısına qalırdılar. Sabir Balaxanıda yaşadığı zaman mədəsinin ağrıları ona əziyyət verirdi. Həkimlər şairə pəhriz saxlamağı məsləhət görmüşdülər. Kəndin hörmətli ağsaqqallarından Hacı Sultanəli hər gün evində Sabir üçün pəhriz xörəkləri hazırlatdırırmış.

Məlumdur ki, Sabir vəfatından bir həftə əvvəl özünü son dəfə həkimlərə göstərmək üçün Bakıya gəlib, «İslamiyyə» mehmanxanasına düşmüşdü. Balaxanı camaatı bundan xəbər tutmuş, 400 manat pul toplayıb şairin «dəyərli müsahibi» Hüseynqulu Qeybulla oğlunun vasitəsilə ona göndərmişdilər. Xəstə şair balaxanılıların bu hərəkətindən son dərəcə mütəəssir olub demişdi: «Hüseynqulu, mənim salamımı Balaxanıdakı dostlarıma çatdır və de ki, mən Balaxanı kəndinin camaatından yerlə göy qədər razıyam».

Şair 400 manatı qəbul etməyib. Kəndin kasıblarına paylanmasını məsləhət görmüşdü.

Balaxanılılar vəfatından sonra da Sabiri unutmamışlar. Yuxarıda adı çəkilən Baxış Əhmədov Sabirin oğlu Məmmədsəlimə məktəbi qurtaranadək ayda 25 manat pul göndərmişdir. Şairin Balaxanıdakı keçmiş şagirdləri və dostları Ağahüseyn Rəsulzadə, Nemət Bəsir, Əlisəttar İbrahimov, Mikayıl Qafarov, Xudaverdi Mahmudov və başqaları sonralar Sabir haqqında yazdıqları səmimi xatirələr, məqalələr və şeirlərdə onu minnətdarlıq hissi ilə yad etmiş, şairin həyatına və yaradıcılığına dair qiymətli məlumatlar vermişlər.

Bütün bu yuxarıda deyilənlər belə bir fikir söyləməyə haqq verir ki, mayın 24-də Balaxanı qəsəbəsində Sabirin şərəfinə düzəldilən bayram şənliyi balaxanılıların atalarının, babalarının böyük şairə bəslədikləri köhnə məhəbbətin yeni təcəssümüdür.

*«Ədəbiyyat və İncəsənət» qəzeti*
*31 may 1985-ci il*

# MƏMMƏD TAĞI SİDQİ
## Məmməd Tağı Sidqinin qəbri tapıldı

M.F.Axunovla başlayan yeni azəri mədəniyyətinin tarixinə görkəmli filosof, yazıçı və müəllim kimi daxil olmuş Mirzə Məmmədtağı Sidqi Cəfərov 1903-cü ildə Naxçıvanda vəfat etmiş, şəhər əhalisi tərəfindən böyük ehtiramla dəfn olunmuşdu. Sidqinin vəfatından sonra ailəsi Naxçıvandan köçmüş, yaxın dostları bir-bir vəfat etmiş, nəticədə baxımsızlıq üzündən mərhumun qəbri itmişdi.

1960-cı ildə Naxçıvanda olarkən biz, Sidqinin qəbri ilə maraqlandıq. Dedilər ki, bu haqda ancaq şəhərin qocaman sakinlərindən Ağamməd Ərbab dürüst məlumat verə bilər, o isə indi xəstədir. Yaşı 90-c ötmüş Ağamməd kişinin yanına getdik. Məlum oldu ki, Sidqinin dəfnində şəxsən iştirak etmişdir. O, dedi ki, Sidqi Naxçıvan qəbristanında, «İmamzadə» adlanan gümbəzin yanında yamacda dəfn olunmuşdur və sağaldıqdan sonra qəbrin yerini dürüst göstərə bilər. Ağamməd kişi qəbrin yerini və nişanələrini təsvir etdi. Şəhərin sakinlərindən vaxtilə Sidqinin «Məktəbi-tərbiyyə»sində oxumuş Nəcəf Sultanov bizi aparıb həmin qəbri göstərdi. Zaman keçdikcə qəbir uçub dağılmış, onun üstündə ancaq bir qat köhnə kərpic qalmışdı. O zaman müəyyən fikrə gəlmək üçün Ağamməd kişinin sağalmasını gözləmək qərara alındı. Lakin o sağalmadı və məsələ mübahisəli qaldı...

Yaxınlarda Cəlil Məmmədquluzadənin yubileyi münasibəti ilə Naxçıvanda olarkən, təkrar bu məsələ ilə maraqlandım. M.Sidqinin pedaqoji görüşləri mövzusunda dissertasiya üzərində işləyən İbrahim Mollayev dedi ki, o Sidqinin qəbrini axtarmış və şəhərin qocaman sakinləri Ağamməd kişinin nişan verdiyi qəbri ona göstərmişlər. Bu zaman xoş-

bəxtlikdən M.Sidqinin oğlu, fərdi pensiyaçı Məmmədhəsən Cəfərov da yubileydə iştirak etmək üçün Naxçıvana gəlmişdi. İyunun 13-də M.Cəfərovla birlikdə qəbristana getdik. O, tərəddüd etmədən gəlib həmin qəbrin yanında dayandı: «atamın qəbri budur», – dedi. Bu şəkil də həmin gün orada çəkildi.

Beləliklə, Mirzə Məmmədtağı Sidqinin qəbri qəti olaraq müəyyənləşdirildi. İndi söz əlaqədar təşkilatlarındır. Görkəmli maarifpərvərin qəbri layiqincə təmir edilməlidir.

*«Ədəbiyyat və incəsənət» qəzeti,*
*24 iyun 1967-ci il*

# LƏTİF SƏFƏROV
## Xatirəyə dönmüş həyat
## Kinorejissor, əməkdar incəsənət xadimi



Ömrümdə ilk dəfədir ki, aramızdan çox vaxtsız getmiş istedadlı bir rejissordan yazıram. Özü də ürək ağrısı ilə, şübhələrlə. Onun son anını min dəfə götür-qoy edir, düşünürəm... Axı nə üçün, niyə? Nə səbəbə görə o, varlığı qədər sevdiyi həyatdan bezikib intihar etmişdir?

Cismani ölmüş bu insan Azərbaycan SSR əməkdar incəsənət xadimi, istedadlı kino rejissoru Lətif Bəşir oğlu Səfərovdur. L.Səfərovun sənət yolundan yazmaq həvəsi ilə 15 il bundan əvvəl sənət dostlarını axtarmaq qərarına gəlmişdim.

28 Aprel küçəsi. Yaraşıqlı bir bina. Bu binanın 4-cü mərtəbəsindəki mənzillərin birində Lətif Səfərov yaşamışdır. İndi burada onun oğlu və sabiq arvadı, Azərbaycan SSR xalq artisti Şövkət Ələkbərova ilə söhbət edirəm.

- *Lətif kimlərlə dostluq edərdi?*

- Qriqori Kozintsev, Ağarza Quliyev, Abbas Zamanov, Rəsul Rza və başqaları ilə. Abbas Zamanovla görüşüb söhbət etmisinizmi?

- ...

Elə həmin gün filologiya elmləri doktoru, unudulmaz (Allah müsahibə götürdüyüm adamların hamısına qəni-qəni rəhmət eləsin) Abbas Zamanova zəng etdim. Ertəsi gün səhər tezdən aşağıdakı məzmunda səliqə ilə yazılmış iki

vərəqlik bir yazı aldım. Sanki unudulmaz Abbas müəllim belə bir zəngi çoxdan gözləyirmiş...

*Nəriman HƏSƏNLİ*

* * *

«Mərhum rejissor Lətif Səfərovla[1] təxminən 10 il dostluq etmişəm. Lətifin həyatının, yaradıcılığının son 10 ili demək olar ki, mənim gözümün qabağından keçib. Onun çəkdiyi bir sıra kino-oçerklərin və «Bəxtiyar» filminin ədəbi ssenarisini mən yazmışam. Odur ki, mən Lətifi sənətkar, insan və dost kimi ən yaxşı tanıyanlardan biriyəm. Təəssüf ki, mən heç bir vaxt Lətif haqqında xatirə yazmaq fikrində olmamışam. Bu gün siz mənə zəng vurduqdan sonra keçmiş günləri xəyalımda canlandırdım. Aşağıdakılar yadıma düşdü:

1. Lətif öz sənətinin vurğunu idi, həqiqi mənada, fədakar idi. Sənət mücahidi idi. O, hər hansı bir işin (böyük və ya kiçik olsun) üzərində çalışarkən, hər şeyi, hətta ailəsinin qayğısına qalmağı belə unudar, özünü işə həsr edər, bütünlüklə o işlə yaşayardı. Lətif yorulmaq bilməzdi, onun gecəsi-gündüzü olmazdı. Bu çəlimsiz adamın işgüzarlığına, enerjisinin tükənməzliyinə mən həmişə heyrət edərdim. Dəfələrlə onun səhərə kimi mütaliə və yazı-pozu ilə məşğul olduğunun, səhər isə növbəti kadrları çəkməyə getdiyinin şahhidi olmuşam. Gecələr uzun müddət birgə çalışdıqdan sonra mən yatardım, o isə yenidən işləməyə gedərdi.

Lətif Səfərov professional kinematoqrafçı idi. Üzdən dırmıqlamağı sevməzdi, mövzunun obrazları daxili məntiqinə nüfuz edərdi. Mütaliəsi geniş, nəzəri biliyi dərin idi. Həmişə axtarışda olardı, heç bir vaxt özündən, gördüyü işlərin nəticəsindən razı qalmazdı. Çox fikirləşər, çox düşünər, çox götür-qoy edərdi. Hər cəhətdən tam hazır olmayınca, filmin çəkilişinə başlamazdı. Novator idi. Açılmış yollarla getməzdi, heç kəsi yamsılamazdı, öz səsi, öz nəfəsi

[1] Xalq artisti Şövkət Ələkbərovanın həyat yoldaşı olub.

vardı. Onun novatorluğu «Qızmar günəş altında» filmində ilk dəfə özünü göstərdi. Bu filmdən sonra Lətif artıq yaxşı rejissor kimi tanındı. Lətif Səfərov filosof sənətkar idi. İnsanları, həyat hadisələrini fəlsəfi cəhətdən mənalandırmağı bacarırdı. Onun sənətinin bu cəhətini biz ilk dəfə «Leyli və Məcnun» filmində gördük. Təəssüf ki, bu onun son filmi oldu.

2. Lətif nəcib insandı. Paxıllıq, qibtə, qeybət, nə oldğunu bilməzdi. Bəziləri onun paxıllığını çəkər, ona qibtə edərdilər. Lətif buna əhəmiyyət verməzdi. Hamıya əlindən gələn köməyi əsirgəməz, hamının müvəffəqiyyətinə sevinərdi.

3. Lətif maraqlı adam idi, şirin söhbətcil idi. Dostları onun söhbətlərindən doymazdılar. Qəribə imitasiya qabiliyyəti var idi. Lətif bədii ədəbiyyatı, xüsusən, Nizaminin, Füzulinin, Nəsiminin, Səməd Vurğunun bir çox şeirlərini özünəməxsus avazla, əzbər oxuyardı. Ziyafətlərdə, dostların toplandığı məclislərdə Azərbaycan şairlərinin şeirlərini əzbər oxumaq Lətif üçün vərdişə çevrilmişdi.

4. Lətif qayğıkeş, mehriban, səmimi dost idi. Əli-cibi açıq idi. Başı özününkü deyildi. Dostlarını unutmazdı, istərdi ki, onu da unutmasınlar. Şirin zarafatlar edərdi, baməzə idi. Dadlı lətifələr danışardı. Gülərdi, güldürərdi, heç kəsin qəlbinə dəyməzdi.

5. Lətif üçün xas olan cəhəti də ayrıca göstərmək istəyirəm. Sənətkar Lətif ictimai xadim və yaxşı vətəndaş idi. O, ictimai işlərdən qaçmaq üçün özünü «kolluğa» vuranlardan deyildi. Azərbaycan Kinematoqrafiya İşçiləri İttifaqının «Kino evi»nin yaranması Lətifin adı ilə bağlıdır. Lətif Azərbaycan kino sənətini ümumittifaq yığıncaqlarında, xarici ölkələrdə ləyaqətlə təmsil edərdi. Lətif prinsipial, inadkar və son dərəcə çılğın idi. Çılğınlığı üzündən, bəzən başı bəlalar çəkərdi, lakin sənət yolundan sarpmazdı. Lətifi mən çox sevərdim, indi də sevirəm.

*«Azərbaycan» qəzeti,*
*14 fevral 1999-cu il*

# AZƏRBAYCAN-GÜRCÜ ƏDƏBİ ƏLAQƏLƏRİNƏ DAİR SƏNƏD

1907-ci ildə mətbuatda çıxan materiallar göstərir ki, İlya Qriqoryeviç Çavçavadzenin xaincəsinə qətl edilməsi Qafqazda yaşayan bütün xalqlar kimi, Azərbaycan xalqının da kədərinə səbəb olmuş, qardaş gürcü xalqının bu böyük yasında azərbaycanlılar da yaxından iştirak etmişlər.

O zaman Tiflisdə nəşr edilən «Zakavkazye» qəzetinin 1907-ci il 11 avqust tarixli nömrəsində şairin cənazəsi üzərinə qoyulan əklillərin siyahısı vreilmişdir. Həmin siyahıda Bakı cəmiyyəti-xeyriyyəsi tərəfindən göndərilən əklilin də adı vardır. Yenə həmin nömrədə xəbər verilir ki, Bakıda, Gəncədə və Naxçıvanda İ.Q.Çavçavadzenin ölümü münasibətilə xüsusi matəm yığıncaqları keçirilmişdir.

Qəzetin 9 sentyabr tarixli (şairin dəfni günü) nömrəsində isə o zaman Tiflis mətbuatında fəal iştirak edən jurnalist Hüseyn Minasazovun məqaləsi dərc edilmişdir.

Azərbaycan-gürcü ədəbi əlaqələrinin öyrnəilməsində müəyyən əhəmiyyəti olduğunu nəzərə alaraq, Hüseyn Minasazovun məqaləsini eyni ilə çap edirik.

## ПАМЯТИ ГРУЗИНСКОГО ПОЭТА

«Мир этот — зеркало, где человек приходит взглянуть на свою физиономию и уходит в вечность».

Слова эти принадлежат величайшему поэту Востока — знаменитому Саади.

Да. Но есть люди, которые, уходя в вечность, оставляют на этом зеркале — мире никогда неизгладимый образ — или чудовищно отвратительный, или чарующе-прекрас-

ный. Потомство проклинает первых, тогда как последние внушают ему чувство святого благоговения перед величием их бессмертных образов.

Для грузинского народа почивший Илья Григорьевич Чавчавадзе был именно таким человеком, увековечившим свое имя роскошными плодами поэтического таланта.

Но только ли грузинского народа?

Таланты принадлежат человеку, и ими вправе гордиться все.

Сын Кавказа, певец родных полей, долин и гор, до самозабвения любящий свою, когда-то цветущую родину, баян кавказской поэзии, создавший дивные мелодии из тончайших нитей любви, надежды и всепрощения, — разве он не дорог и нам — мусульманам?

И разве в творениях этого, безжалостной рукой сраженного, певца мы не находим отражения наших бесконечно печальных дум и тяжких страданий?

Разве эти творения, покрытые дымкой чисто восточной грусти, не говорят нам того же, что мы привыкли слышать от наших поэтов, великих изобразителей народных нужд и горя?

Наконец, разве бодрящие звуки пленительной музы не питают и в нас, вечно тоскующих, светлую надежду на лучшее грядущее?

Погиб Чавчавадзе, а с ним вместе погиб человек, принадлежавший к славной плеяде тех, кто всю жизнь свою зовут народы на путь прогресса и единения...

Мир его праху!

*Гусейн Минасазов.*
*«Закавказье», 9 сентября 1907, № 184.*

*«Azərbaycan ədəbiyyatı» Məsələləri.*
*Bakı, 1964, s.145.*

# SABİT RƏHMAN
## Son görüş
## və yaxud baş tutmayan yubiley



1970-ci ilin sentyabr ayı idi. Unudulmaz dramaturqumuz Sabit Rəhmanın anadan olmasının 60 illik yubileyinin keçirilməsinə respublikada hazırlıq gedirdi. Məktəblərdə, müəssisələrdə yazıçı ilə görüşlər keçirilirdi. O zaman mən Nizami adına Ədəbiyyat muzeyinin direktoru idim. Nizami muzeyi bir qayda olaraq yazıçıların yubileylərinin keçirilməsində yaxından iştirak edirdi. Muzeydə Sabit Rəhmanın zəngin həyat və yaradıcılığını əks etdirən maraqlı sərgi hamının xoşuna gəlmişdi. Haqqında mətbuatda xususi məqalə də çıxmışdı.

Yazıçıların yubileylərinin keçirilməsində Nizami muzeyinin də səsi eşidilərdi. Bu ənənəyə sadiq qalaraq Sabit Rəhmanın yubileyinin muzeydə keçirilməsini qərara aldıq. Yığıncağa gəlməyə Sabit Rəhman çətinliklə razılıq vermişdi. Görüşdə Rəsul Rza, İlyas Əfəndiyev, Mir Cəlal, Məmməd Rahim, Əbülhəsəni də dəvət etmişdik. Sabitin həyatı və yaradıcılığı haqqında giriş sözünü mən dedim. Sonra çıxışlar başlandı. Yanılmıramsa, birinci İlyas Əfəndiyev danışdı. Onun danışığından bu sözlər xatirəmdə həkk olunmuşdur: ədəbiyyata gəldiyim ilk günlərdən Sabit mə-

nim üçün müəllim olmuşdur. Mən Sabit Rəhmandan çox şey öyrənmişəm. Sabitin yaradıcılığı bizim üçün zəngin bir örnəkdir. Mir Cəlal deyirdi: oxucunu güldürmək çətindir. Bədii yaradıcılığının bu cəhətini Sabit bizim hamımızdan yaxşı bacarır. O, müasir komediya janrımızın binasını qoymuşdur. Sabit gülən və güldürən sənətkardır. Rəsul Rza Sabit Rəhmandan gözəl bir dost kimi bəhs etdi. O, dedi: Sabit mənim üçün hər şeydən əvvəl dostluq mücəssəməsidir. Biz onunla, necə deyərlər, can bir qəlbdə dostuq. İndiyədək dostluğumuza kiçicik ləkə belə düşməyib. Fəxr edirəm ki, Sabit kimi vəfalı bir dostum vardır.

Yığıncağın axırında Sabit özünəməxsus yumorla danışaraq dedi: Ürəyiniz istədiyi qədər məni tərifədiniz. Yuxuda görmədiyim xidmətlərdən bol-bol söhbət açdınız. Bu süni tariflər üçün yox, zəhmət çəkib buraya gəldiyiniz üçün sağ olun!

Çox təəssüf ki, təxminən bir həftə sonra Sabitin ürəyi döyünmədi. Muzeydəki yığıncaq Sabit Rəhmanla son görüş oldu və onun 60 illik yubileyi baş tutmadı.

*«Ədəbiyyat və incəsənət» qəzeti,*
*23 noyabr 1990-cı il*

# SEYİD HÜSEYNİN NƏŞR OLUNMAMIŞ HEKAYƏSİ

## Ədəbi irsimizdən

*Görkəmli nasir və tənqidçi Seyid Hüseynin oxuculara təqdim edilən bu əsərinin əlyazmasını dostum, yazıçı Qılman İlkin 16 il əvvəl aşağıdakı qeydlə mənə bağışlamışdı: «Böyük ədibimiz Seyid Hüseynin heç yerdə çap edilməmiş «Mənim günahım» əsərinin əlyazmasını Abbas Zamanova hədiyyə edirəm.*

*Hörmətlə, Qılman İlkin*
*31 may, 1962*

O zaman Qılman İlkin mənə demişdi ki, əlyazmasına bir neçə il əvvəl Azərnəşrin arxivində rast gəlmiş, götürüb saxlamışdır.

Lakin «heç yerdə çap olunmamış» sözü tədqiqatçı üçün əsas ola bilməzdi. Əsərin çap olunub-olunmamasını dürüst müəyyənləşdirmək üçün, əlbəttə, axtarış aparılmalı idi.

Bu məqsədlə Seyid Hüseyn irsinə dair tədqiqatları araşdırmalı oldum. Filologiya elmləri namizədi Sabir Məmmədovun «Seyid Hüseynin həyatı və yaradıcılığı» mövzusunda namizədlik dissertasiyasını nəzərdən keçirərkən öyrəndim ki, 1913-cü ildə «İqbal» qəzetində S.Hüseynin «Suzeş, yaxud iki məhəbbət» sərlövhəsi altında bir əsəri nəşr olunmuşdur.

Dövlət arxivində «İqbal» qəzetini vərəqləyərkən məlum oldu ki, əsərin natamam variantı 1913-cü ilin oktyabr-noyabr aylarında «İqbal» qəzetinin 3,11,16, 21,24 və 28-ci

nömrələrində hissə-hissə nəşr edilmişdir. 28-ci nömrədə gedən hissənin sonunda «mabədi var» yazılmış, lakin, nədənsə, müəllif əsəri bitirməmişdir.

Əlyazması ilə qəzetdə gedən hissələrin müqayisəsi göstərdi ki, yazıçı inqilabdan sonra (çox ehtimal ki 20-ci illərin birinci yarısında) əsərin üzərində əsaslı surətdə yenidən işləyib tamamlamış və adını da dəyişdirmişdir.

Görünür, müəllif o zaman əsəri Azərnəşrə vermiş, nədənsə, əsər çap olunmamışdır. Xoşbəxtlikdən əsərin əlyazması nəşriyyatın arxivində qalmışdır.

Həmin əlyazması hazırda Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılmaqdadır.

«Mənim günahım» kiçik psixoloji povestdir. Seyid Hüseynin fərdi yaradıcılıq dəst-xətti bu povestdə də özünü açıq göstərməkdədir. Rəvan dil, səlis üslub, şirin təhkiyə, hadisələrin gözlənilməz istiqamətlərdə inkişafı və düyün nöqtəsinin gözlənilməz şəkildə açılması müəllfin bu əsəri üçün də səciyyəvi xüsusiyyətlərdir.

Seyid Hüseyn nəsrinin ana xəttini təşkil edən motivlər – humanizm, keçmiş cəmiyyətin feodal-patriarxal əxlaq normalarının tənqidi, azad məhəbbət üzərində qurulmuş yeni ailə-məişət normalarının təsdiqi, qadının cəmiyyətdə rolu kimi problemlər «Mənim günahım» əsərində ustalıqla qələmə alınmışdır.

*«Ədəbiyyat və incəsənət» qəzeti*
*15 aprel 1978-ci il*

# CƏNUBDAN SƏSLƏR

***«Azərbaycan müəllimi» qəzetində «Cənubdan səslər» adı altında xüsusi bölmə ayrılmışdır. Cənubi Azərbaycan ədəbiyyatının patriotlarından və tədqiqatçılarından olan Abbas Zamanov könüllü olaraq o bölmənin rəhbərliyini boynuna götürmüşdür. Təkcə «Azərbaycan müəllmi»ndə çap olunmuş məqalələri bir yerə toplansa samballı bir kitab əmələ gələr.***

***Mirzə İBRAHİMOV***
***Xalq yazıçısı***
***«Azərbaycan» jurnalı, 1984, № 2,***



*ABBAS ZAMANOV, 1942*

# MƏMMƏDƏLİ MƏHZUN «HİCRAN XƏSTƏSİ»

Vətənimizin cənubunda yazıb-yaradan qocaman şair Məmmədəli Məhzunun adını eşitmiş, bir neçə şerini oxumuşdum. Çoxdandır ki, onun əsərlərini tapıb oxumaq, yaradıcılığı ilə yaxından tanış olmaq sorağında idim.

Bu günlərdə keçmiş tələbələrimdən Dilruba Rzayeva Məhzunun iki il əvvəl Tehranda Gəncəli Səbahinin müqəddiməsi ilə nəşr edilmiş «Hicran xəstəsi» kitabını mənə verdi. Oxudum... kədərləndim, qəhərləndim, düşündüm...

M.Məhzun vətəndən didərgin düşüb uzun illər qürbətdə yaşamış, bəhrəngilərin, mərziyələrin, oqtayların, yüzlər və minlərlə günahsızların vəhşicəsinə qətl edilməsi xəbərini qürbətdə eşidib xısın-xısın göz yaşları tökmüşdür. O zaman onun yeganə təsəllisi künçdə-bucaqda yazdığı dərdli misralar olmuşdur. Lakin zəhərli şovinizm hissləri yayan, başqa xalqların dilinə xor baxan «ali ariya iqri» pəhləvanlarının qorxusundan illər boyu bu şerləri gizli saxlamış, ancaq Məhzun şahlıq rejimi devrildikdən sonra üzə çıxara bilmişdir.

Məhzunun şerlərini oxuyarkən dəhşətə gəlirsən: adam necə ağır əzab-əziyyətlərə məruz qalar, necə ağır təqiblərə, zülmə, təhqirlərə dözərmiş... insanın canı bərk olur.

«Hicran xəstəsi» haqqında məqalə yazıb təəssüratımı oxucularla bölüşdürmək istədim. Lakin məqaləni yazmaq üçün kitabı bir daha nəzərdən keçirdikdə fikrimi dəyişdim: oxuduğum şerlərdə hər şey açıq-aydın deyilmişdir. Yaxşısı budur ki, qoy, müəllifin şerləri dilə gəlsin.

Bu, hörmətli oxucular üçün daha maraqlı olar.

## AYRILIQ

Ayrılıq çəkmədən qocaldım, dostlar,
Vətənimdən ayrı, elimdən ayrı.
Yaşılbaş sonatək düşmüşəm uzaq,
Çəmənimdən ayrı, gülümdən ayrı.

Dağıtdı yuvamı qaniçən cəllad,
Gözəl vətənimi eylədi bərbad.
Xəzan bülbülütək uçdum hər yana,
Gülşənimdən ayrı, gülümdən ayrı.

Əlimdən aldılar ana dilimi,
Sitəm ilə sındırdılar belimi,
Kəsdilər dilimi, sındı qollarım
Qələmimdən ayrı, dilimdən ayrı.

Od tutdu hicranda alışdı canım
Yadıma düşəndə Azərbaycanım!
Xəstəyəm qürbətdə olmuşam məhzun,
Vətənimdən ayrı, elimdən ayrı.

## MƏNİM

O, gündən ki, ayrılmışam elimdən,
Ah-vaynan keçibdi dövranım mənim.
Vətən adı düşməz bir an dilimdən,
Qurtarmaz olubdu hicranım mənim.

Gecə kimi işıq günüm qaralıb,
Laləsifət bağrım yanıb, qaralıb.
Ömür dağın boran alıb, qar alıb,
Ucalıb göylərə fəğanım mənim.

Elim orda, mən burada ağlaram,
Ürəyimi hicr oduynan dağlaram!
Qürbət eldə kimə ümid bağlaram?
Yoxdur ürəyimdən yananım mənim.

Bulud kimi qaralmışam, dolmuşam,
Qəm-qüssədən saralmışam, solmuşam,
Ellərimin gözün yolda qoymuşam,
Odur əzabdadır vicdanım mənim.

Mərd igidlər əl çəkərmi elindən?
Şeyda bülbül ayrılarmı gülündən?
Məhzunundа vətən düşməz dilindən,
Çünki, odur sevgili cananım mənim.

Bundan sonra dərdli üzün gülməsin,
Pünhan ağla, biganələr bilməsin.
Gedin, deyin daha təbib gəlməsin,
Yoxdur sağalmağa gümanım mənim.

## AYRILIQ FƏĞANI

Məktub gözləməkdən mən gecə-gündüz-
Rəngim solub zəfərana dönübdür,
Hicranın oxları dəlib bağrımı,
Gözüm yaşı qızıl qana dönübdür.

Huşum gedib, ağlım çıxıb başımdan,
Sellər axıb gözlərimin yaşından,
Xəbər yox vətəndən, yar-yoldaşımdan,
Baş ağarıb, bel kamana dönübdür.

Ağlamaqdır işim, yoxdur gülməyim,
Müşkül olub ana yurda gəlməyim,

Çətin gəlir qürbət eldə ölməyim,
Sağlam bədən xəstə cana dönübdür.

Yaddan çıxmır ellər, obalar, dağlar,
Al-yaşıl örpəkli, çiçəkli bağlar,
Ürəyim qan olub, gözlərim ağlar,
Dərdim artıb bir ümmana dönübdür.

Ciyərim qanıdır şərabım mənim,
Parə qəlbimdəndir kababım mənim,
Ayrılıq dərdinə yox təbim mənim,
Qürbət ölkə bir zindana dönübdür.

*«Azərbaycan müəllimi» qəzeti,*
*12 may 1982-ci il*

# HƏBİB FƏRŞBAF

Həbib Fərşbaf Təbrizdə yazıb-yaradan istedadlı şairlərdən biridir. O, uşaq yaşlarından xalça karxanasında işə girmiş və indi də bu sənəti davam etdirməkdədir. Elə buna görə də özünə «Fərşbaf» (Xalçatoxuyan) təxəllüsü götürmüşdür.

Şair kiçik yaşlarından zülmün, istismarın, ağır zəhmətin şahidi olmuş, yüzlər və minlərlə yoxsullar kimi o da kölə vəziyyətində yaşamış, bir qarın çörək əməyini varlılara ucuz qiymətə satmışdır. Buna görə yaşa dolub yaxşı-yamanı ayırd etməyi bacardıqdan sonra belə qənaətə gəlmişdir ki, insan cəmiyyəti əzən və əzilənlərdən ibarətdir və bütün tarix boyu bunların arasında barışmaz mübarizə getmişdir, bu mübarizə indi də gedir və gələcəkdə də gedəcəkdir:

Bu ellərin, nəsillərin qaydasıdı:
Zalimlərə, zülmə qarşı üsyan demiş.
Gələcəkdə bu sayaqdır,
Keçəcək də belə imiş.

Həbib Fərşbaf yaradıcılığa təxminən 70-ci illərin əvvəllərində başlamışdır. Məlumdur ki, o zaman, amansız şah üsuli- idarəsinin hökm sürdüyü qanlı-qadalı illərdə onun yazıları işıq üzü görə bilməzdi. Fərşbafın şeirləri İran İslam İnqilabının qələbəsindən sonra nəşr olunmağa başlamış, 1980-ci ildə Təbrizdə çıxan «Dan yeri» kitabında toplanmışdır.

Həmin kitabdan aşağıda verdiyimiz nümunələrdən aydın göründüyü kimi, Həbib Fərşbaf istismar olunan zəhmətkeş sinfin şairidir, azadlıq və əmək müğənnisidir.

## DAN YERİ

Gecədən çox keçsə də
Hələ səhər olmayıb.
Mürgüləyən gözlərdə,
Ümid gülü solmayıb.

Baxıram qaranlıqda,
Yenə bir ulduz axır.
Gözlərim yorulmadan,
Dan yeri Sarı baxır.

Ulduzlar hey dalbadal,
Fəzada axır, sönür.
Nə ürəyim bunların,
Nə ümid daşa dönür.

Hər bir ulduz axışı,
Bir addımlar səhərə.
Hər bir yeni hərəkət
Bir qədəmdi zəfərə.

Minlər işıqlı ulduz,
Tək bir Günəşə qurban!
Ulduzlar axmasalar
Bəs necə sökülər dan?

Dan yeri uca boylu,
Dan yeri arzu kanı.
Dan yeri ümidlərin,
Qurtuluşun məkanı.

Dan yerində daş olub
Saysız solmaz baxışlar.

Günəşin həsrətilə
Çiçəklənir naxışlar.

Ömür başa çatır
Tükənməmiş intizar.
Günəş deyə bağlanıb
Son nəfəsdə dodaqlar.

Ömürlər ipi gödək,
Günəş quyusu dərin.
Ömürlər birləşməsi
Zaminidir səhərin.

Bir vaxt sabah çatacaq
İlk xoruz banlayacaq.
Daha zülmət gecədən
Bir əsər qalmayacaq.

Nəhayət, gümüş kimi
Ağaracaq dan yeri.
Al-əlvan şəfəqlərə
Boyanacaq dan yeri.

Dan yerində qırmızı
Günəş parıldayacaq.
Bu günəş öz işığını
Yer üzünə yayacaq.

Nə az birinə, nə çox
Bu günəş öz nurunu
Bərabər paylayacaq,
Bərabər paylayacaq.

## XOŞ QƏDƏM

Qəhrəman xalqımızın hümməti ilə qara məhbəslərdən azad olmuş qardaşlara və bacılara

Haray ellər,
Gözünüz aydın!
Başı uca, alnı açıq
Qayıtdılar igidləriz.
Deyin gəlsin Qorqud dədə
Boy boylansın,
Qalib gələn Domrullara
Qoşma desin, söz söyləsin.

Əziz dostlar,
Xoş gəlmsiz ana yurda!
Mən xalqımın tərəfindən
Bu zəfərli gəlişizə
Baş əyirəm indi burda,
Qalib çıxdız
Bu ilk sınaq səngərindən, əziz dostlar!
Bir an belə dayanmadan
Mübarizə yollarını addımladız
Zolaq-zolaq ayaqlarla.
Kəsilmədi bir an səsiz,
Hey oxuduz azadlığın nəğməsini
Siz tikilmiş dodaqlara.
Mətanətlə qan uddurduz quduz yada,
Başımızı ucaltdız siz bu dünyada
Ay ellərin sədaqətli oğulları və qızları.

Yaxşı bilir ellərimiz
Necə ağır əzablara qatlaşıbsız
El yolunda illərlə siz.
Biz əminik buna ancaq:

Siz dözdüz qara günlərə
Xalqımızı qara gündən qurtaracaq.

Gəlin, dostlar, ana Təbriz qol açıbdır
İntizardır bu gün sizə.
Ellərizin gözü həsrət
Ümid verən gözlərinizə
Gəlin, dostlar, sizdən alsın
Unudulmaz şəhidlərin qoxusunu
Ana yurdun.
Gəlin, dostlar,
Hümmətizlə
Sədaqətə addımlasın
Bu boyanmış qana yurdum.

## İŞÇİ QARDAŞIMA

Sən ey alnı tərli, əli qabarlı,
Arzusu baharlı, əməyi barlı,
Sən ey dağ vüqarlı işçi yoldaşım
Sənin şərəfinə əyilir başım.

Yaradan əllərin olmasaydı gör
Dünya belə gözəl olardı məyər?
Baxıram hər yana, hər bir səmtə mən
Sənin hünərindən bir nişanə var

Təbiət diz çökür qarşında sənin,
Sədd olur sel-sular, yarılır dağlar

Torpağa dəyəndə qabarlı əlin
Qızıla döndərir qara torpağı
Sənin pak tərinin damcılarından
Gül-çiçək bürüyür bağçanı-bağı.

Bütün yer üzünün motorlarında
Heç bir enerji yox, qol gücün yanır.
Bir ləhzə dayansa qadir əllərin
Bütün bu həyatın qəlbi dayanır.

Göydələn binalar yaratmısan sən,
Özünə tikdiyin hansı binadır?
«Güzəçi su içər sınıq güzədən»
Sərmayə əsirində qayda bunadır

Min sərvət, min nemət yaratsan da sən,
Qazancın, hasilin əl qabardır.
Sənin zəhmətinin alım-satımı
Sərmayədarların sərvət kanıdır.

Biliyə, birliyə çatmayınca sən
Ərbablar nəfinə işləyəcəksən.

Azadlıq uğrunda o böyük rəhbər
Birliyə, döyüşə çağırıb sizi
Siz bu çarpışmada əmin olun ki,
Əldən verəcəksiz zəncirlərizi.

Düşünən beyinlə qabarlı əlin
Vəhdətindən doğur aydın gələcək.
Birləşin, səadət birliyizdədir,
Dövran birliyizdən təzələnəcək.

*«Azərbaycan müəllimi» qəzeti,*
*25 avqust 1982-ci il*

DAVAMI